Dekabr- 2014

335

khazar-review.khazar.org

KHAZAR-REVIEW

# XƏZƏR
XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU



"XƏZƏR"İN NÜMAYƏNDƏ HEYƏTİ HACETTEPE UNİVERSİTETİNDƏ

ISSN 2218 - 2772

AYLIQ DƏRGİ



HACETTEPE ÜNİVERSİTESİ

XƏZƏR UNİVERSİTETİ · BAKI · 1991







## “XƏZƏR”İN NÜMAYƏNDƏ HEYƏTİ

















# HACETTEPE UNİVERSİTETİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova-Yakarişık, departmentin vokal müəllimi, əməkdar artist Fidan Hacıyeva, rəqs müəllimləri Səbinə İsmayılova və Telman Əliyev, Xəzər universiteti Kamera orkestrinin qızlardan və oğlanlardan ibarət rəqs qrupunun üzvləri (36 nəfərlik heyət) noyabrın 17-22-də Türkiyənin Hacettepe Universitetinin rəsmi dəvəti ilə Ankarada səfərdə olmuşlar. Bakı-İstanbul-Ankara marşrutu ilə hərəkət edən nümayəndə heyətini noyabrın 17-də Ankaranın Esenboğa hava limanında Hacettepe Universitetinin nümayəndələri səmimi qarşıladılar.

Səfərin ikinci günü Hacettepe Universitetinin tərtib etdiyi proqrama uyğun olaraq, nümayəndə heyətinin üzvləri və Hacettepe Universitetinin əməkdaşları birlikdə Ankaranın mərkəzində yerləşən Cebeci qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin məzarını ziyarət etdilər və xatirə şəkilləri çəkildi. Həmin gün Xəzər Universitetinin musiqi kollektivləri Hacettepe Universitetinin Beytepe kampusundakı konsert salonunda ilk konsertini verdi.

*(Ardı səh. 12-də)*









XƏZƏR UNİVERSİTETİ

# MƏZUNLARLA

Noyabrın 29-da Xəzər Universitetinin Məzunlar Birliyi universitetin Neftçilər kampusunun Mərmər salonunda 130 nəfərdən çox məzunla görüş keçirdi. Məzunlar qrup yoldaşları və müəllimləri ilə görüşdülər. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək məzunları salamladı, universitetin son nailiyyətləri və gələcək planları haqqında məlumat verdi, onlara universitetlə bundan sonra da sıx əlaqə saxlamağı tövsiyə etdi.












# GÖRÜŞ

Xəzər Universitetinin 1996-cı il məzunu Nigar Əliyeva-Abbasbəyli, 1999-cu il məzunu Emil Əliyev və 2011-ci il məzunu Elnarə Əliyeva çıxış edərək, "Xəzər"də təhsil səviyyəsi, pedaqoji kollektiv haqqında müsbət hiss və düşüncələrini bildirdilər.

Tədbir iştirakçılarına universitetin Kamera orkestrinin iştirakı ilə konsert proqramı təqdim olundu.







Təbrik Edirik!

## “XƏZƏR”DƏ YUBİLEY MƏRASİMİ

Dekabrın 9-da Xəzər Universitetinin Konfrans zalında Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə tarix elmləri doktoru, professor, əməkdar müəllim, Bakı Dövlət Universiteti Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, Xəzər Universitetinin nəşri olan “Azərbaycan arxeologiyası” jurnalının baş redaktoru Qüdrət İsmayılzadənin anadan olmasının 80 illiyi münasibətilə “Axtarışlarda keçən ömür” adlı yubiley tədbiri keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşlar və tələbələr, qonaqlar iştirak edirdilər. Tədbir Q. İsmayılzadənin həyat və fəaliyyətinə aid slayd-filmin nümayişi ilə başlandı.

Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, görkəmli alimin çoxşaxəli fəaliyyətindən danışdı, universitetin təbrik məktubu və hədiyyəsini ona təqdim etdi. Şair Teyyub Qurban, universitetin Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyub, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Firəngiz Nəsirova, AMEA Arxeolgiya və Etnoqrafiya İnstitutunun Orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru Tarix Dostiyev və İçərişəhər Dövlət Tarix Memarlıq Qoruğu İdarəsinin elmi işlər üzrə rəis müavini, tarix elmləri doktoru Vəfa Quliyeva da yubilyarı təbrik etdilər.

Sonda Q. İsmayılzadə tələbələrin suallarını cavablandırdı və xatirə şəkilləri çəkildi.

## TƏLƏBƏ KÖNÜLLÜLƏR ÜÇÜN TURNİR



Azərbaycan Olimpiya Komitəsinin mərkəzi ofisində noyabrın 23- də AOK-un təşkilatçılığı ilə “Bakı -2015” Avropa oyunlarının tələbə könüllüləri üçün “Nə? Harada? Nə zaman?” adlı turnir keçirilmişdir. Müxtəlif universitetlərdən 25 komandanın iştirak etdiyi turnirdə Xəzər Universiteti “Xəzər - 1” və “Xəzər -2” adlı iki komanda ilə təmsil olunmuşdur.

Tədbirdə tələbə könüllülərin intellektual səviyyəsini yoxlamaq üçün idman növləri haqqında müxtəlif suallar verilmişdir. Sonda qalib komandalara hədiyyələr təqdim olunmuşdur.

## TƏCRÜBƏDƏN AZƏRBAYCANDA İSTİFADƏ EDİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNDU

Noyabrın 25-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının başçılıq etdiyi nümayəndə heyəti – Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs və Texnopark direktoru Özdən Doyuran Ankara ətrafında Anadolu Organize Sanayi Bölgesi Yönetim Kurulu Başkanı Hüseyın Kutsi Tuncay və Bölgə müdirü İhsan Gökçinar ilə görüşdülər.

MITEK prezidenti Cenk Polat da görüşdə iştirak edirdi. Yönetim Kurulu Başkanı H.K.Tuncay Anadolu Organize Sanayi Bölgesinin yaranma tarixi və fəaliyyəti haqqında geniş məlumat verdi, sualları cavablandırdı.

Bu təcrübədən Azərbaycanda istifadə edilməsi məsələsi müzakirə olundu.







## AB-NİN ENERJİ TƏHLÜKƏSİZLİYİ STRATEGİYASI HAQQINDA JAN MONNE SEMİNARI

Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə noyabrın 26-da Ukraynadakı böhrandan sonra Avropa Birliyinin (AB) enerji təhlükəsizliyi strategiyası mövzusunda seminar keçirilib.

Qonaq mühazirəçi – Yıldız Texniki Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departametinin müdiri professor Nurşin Ateşoğlu Güney Ukrayna böhranından sonra gələcək enerji yol xəritəsi haqqında danışdı. O, Birliyin enerji tələbatını ödəmək üçün enerji təchizatının əldə edilməsinin alternativ vasitələrinə diqqət yönəltdi, iddia etdi ki, 2020-ci ilədək AB əlavə qaz təchizatına nail olmayacaq.

Buna görə də, Avropanın enerjiyə tələbinin azaldılmasının əhəmiyyətli olduğunu bildirdi.

## ENERJİ TÜRK ÖLKƏLƏRİ ARASINDA VƏ QONŞULUQDA ƏMƏKDAŞLIĞI ASANLAŞDIRAN BİR VASİTƏ KİMİ



Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə noyabrın 27- də Türk Dünyası Araşdırmaları Mərkəzində "Türk Dünyası Seminarlar Silsiləsi" layihəsinin növbəti seminarı təşkil olundu. Yıldız Texniki Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departametinin müdiri professor Nurşin Ateşoğlu Güney Cənub Qaz Dəhlizi layihəsi və onun gələcəyi haqqında məruzə ilə çıxış edərək, layihə ilə əlaqədar Türk Dünyası və ondan kənarda enerji sahəsində əməkdaşlıq imkanları haqqında öz fikirlərini bildirdi, onun potensial yayılma təsirinin vasitəsilə nəinki Xəzər dənizi regionuna, həm də qonşuluğuna fayda gətirəcəyini qeyd etdi.











# DUNYA SCHOOL TOUR FOR FOREİGN GUESTS

On December 10th, 2014, a tour of Dunya School, the private school working in affiliation with Khazar University, was held for all the foreign students, instructors and staff members of Khazar University. About 30 people participated in the tour, which was organized jointly by Khazar University's International Office and the Dunya School administration. The event was led by Professor Hamlet Isaxanli, founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees as well as co-founder of Dunya School; Nailakhanim Isayeva, co-founder of Dunya School; Marufa Maddatli, Director of Dunya School; and Rena Hasanova, Dunya School IB Program Director.

Participants arrived at Dunya School and were greeted by the school staff in a conference room. They were given information about the school's history and current activities. All the foreign guests introduced themselves. Then they were taken on a tour of the school's new campus, which was constructed this year and began operation at the beginning of the academic year in September. They saw the classrooms, well-equipped library, computer lab, the separate preschool building, and the swimming pool and gymnasium facilities. Then they were taken to the school cafeteria, where a meal was served in their honor. The guests commented that they were very impressed with the state-of-the-art campus and with the quality of the classes they observed.





## "ARAZIN O TAYINDA" ADLI SƏNƏDLİ FİLMİN NÜMAYİŞİ



Noyabrın 28-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə elmlər doktoru Nəsiman yaqublunun təqdimatında konfrans zalında 1945-1946-cı illərdə S. C. Pişəvərinin başçılıq etdiyi Azərbaycan Milli Hökumətinin yaranması və fəaliyyətinə həsr olunmuş "Arazın o tayında" adlı sənədli film nümayiş etdirildi. Film tələbələr tərəfindən böyük maraqla qarşılandı.

## XƏZƏR UNİVERSİTETİNDƏ ÇİN GUŞƏSİNİN AÇILIŞI

Noyabrın 28-də Xəzər Universitetinin Mərmər salonunda Kitabxana - İnformasiya Mərkəzinin nəzdində fəaliyyətə başlayan Çin Guşəsinin açılış mərasimi oldu. Guşə universitetin Kitabxana - İnformasiya Mərkəzi ilə Çin Mədəniyyət Nazirliyinin nümayəndəsi arasında imzalanmış müqavilə əsasında yaradılmışdır. Müqaviləyə əsasən Çin tərəfi Çin mədəniyyətinə, ədəbiyyatına, cöğrafiyasına, dilinə dair dərsliklər, posterlər və digər materialları Kitabxana - İnformasiya Mərkəzinə hədiyyə etmişdir. Kitabxana - İnformasiya Mərkəzi öz növbəsində Çin kitablarını və mədəniyyətini təşviq erməyi üzərinə götürmüşdür. Qeyd edək ki, Xəzər Universitetində Çin dili tədris olunur və bununla bağlı Çin dilində olan ədəbiyyata böyük tələbat olduğundan belə bir kolleksiyaya ehtiyac var idi.

Tədbiri açan Kitabxana - İnformasiya Mərkəzinin direktoru Gülşən Mehdiyeva qonaqları salamlayaraq, Cin Guşəsinin yaradılması prosesindən danışdı. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxışında Çin dilinin və mədəniyyətinin əhəmiyyətindən söz açdı və bu əlamətdar hadisə münasibətilə Kitabxana - İnformasiya Mərkəzini təbrik etdi.

Tədbirdə iştirak edən Konfusi İnstitutunun direktoru Xu Fenxua öz çıxışında Xəzər Universiteti ilə əməkdaşlıqdan danışdı və H. İsaxanlı ilə bərabər qırmızı lenti kəsərək, Çin Guşəsini açıq elan etdilər. Mərasimin davamı olaraq çinli müəllimləri və Xəzər Universitetinin tələbələri Çin dilində şeir söyləyib, mahnı oxudular.

Çin Guşəsinin əsas məqsədi Çin dilini, ədəbiyyatını və mədəniyyətini təbliğ etmək və Çin dilini öyrənən tələbələrə dəstək olmaqdır. Gələcəkdə guşədə Çinin bayramları və əlamətdar günləri də qeyd olunacaq.







## LAYİHƏ İDARƏETMƏ MƏKTƏBİNİN MƏZUNLARINA SERTİFİKAT TƏQDİM OLUNDU



Noyabrın 28-də Bakıdakı JW Marriott Absşeron otelinin Şərq zalında Layihə İdarəetmə Məktəbinin (The School of Project Management) üçüncü qrup məzunları üçün buraxılış mərasimi keçirildi.

Məktəb BP, ESI International və Xəzər Universitetinin birgə layihəsi əsasında yaradılmışdır.

Tədbirdə dövlət, QHT, yerli və beynəlxalq şirkətlərin təmsilçiləri iştirak edirdilər. BP Şirkətinin Azərbaycan-Türkiyə-Gürcüstan regionu üzrə prezidenti Gordon Birrell, Xəzər Universititetinin təsisçisi, Qəyyumlar və Direktorlar Şurasının sədri professor Hamlet İsaxanlı və eləcə də ESİ İnternational təşkilatının nümayəndəsi Ed Hughes mərasimdə çıxış edərək, Layihə İdarəetmə Məktəbinin əhəmiyyətindən danışdılar. Məktəbi müvəffəqiyyətlə bitirmiş 71 iştirakçıya Corc Vaşinqton Universitetinin layihə idarəetməsi üzrə magistr sertifikatı təqdim olundu. Xəzər Universitetinin İnkişaf direktoru Raziyə İsayeva da Layihə İdarəetmə Məktəbini müvəffəqiyyətlə bitirən məzunlar arasında idi. Əməkdaşımızı təbrik edir, ona yeni uğurlar arzulayırıq.

***Письмо в редакцию***




Я, Махмудова Лейла - студентка первого курса Университета Хазар, факультета Экономики и Менеджмента, одна из победителей в конкурсе “Россия глазами азербайджанских студентов и школьников”. В качестве награды нам предоставили возможность посетить столицу России Москву и Санкт- Петербург.

Конкурс проходил в 3 этапа. На первом этапе мы должны были ответить на вопросы, связанные с Россией. Там были вопросы, касающиеся географии России, а так же искусства, еще были вопросы про праздники, и выдающихся российских азербайджанцев . На втором этапе конкурса мы должны были представить им наше домашнее задание. На дом было задано сделать презентацию, поставить сценку или же приготовить любое блюдо из Русской кухни. Я выбрала презентацию. Моя презентация состояла из 4-х частей: первая часть достопримечательности России, вторая часть национальные праздники, третья часть великие художники России, а четвертая часть - это Вооруженные Силы России.

На третьем этапе конкурса мы должны были рассказать стихотворение из произведений русских писателей. Я выбрала стихотворение Александра Сергеевича Пушкина “Делибаш”, посвященную русско-турецкой войне.

После этих трех этапов, судьи должны были посчитать голоса и выбрать победителя из пяти конкурсантов. Так как судьи не могли выбрать одного победителя, они пришли к общему выводу послать в Россию двоих студентов. Поездка состоится в январе месяце следующего года.

# İÇİNDƏKİLƏR


Universitet xəbərləri 3
Təhsil 16
*Seyfəddin Altaylı.* Xəzərin mehi 22
*Leyla Əliyeva.* Xəzər Universitetində xarici dilin tədrisi 26
Mədəniyyət 29
Abdulla Suvar. Səhnə üçün doğuldu, sənət naminə yaşadı 32
*Elmira Muradəliyeva.* Haqqı bir neçə tarixçi nəslin üzərində qalan böyük alim və şəxsiyyət 34
Həmvətənlərimiz dünyada 36
İKT 37
Dünya 38
Türk dünyası 40
İslam dünyada 42
Elm 44
*Kurt Vonnequt.* Gülumsəyin, indi quş çıxacaq 48
*Qorxmaz Quliyev.* İctimai fikir poeziyası 52
*Teyyub Qurban.* Şeirlər 54
*Ləman Mustafaqızı.* Sosial şəbəkələr ailə dağıdır, ya ünsiyyət yaradır? 56
*Gözəl Ağayeva, Tərgül Ağayeva.* Kəlağayı böyük bir aləmdir 58
*Nigar Cəfərli.* İvonno Kezbere: Mən Azərbaycanın vurğunuyam 60
Maraqlı 61
Təbabət 62
Mozaika 65
İdman 68



Xəzər Xəbər

**1995-ci ilin yanvarından çıxır**

Təsisçi:
**Xəzər Universiteti**

Baş redaktor:
**Hamlet İsaxanlı**

Baş redaktor müavini:
**Əlirza Balayev**

Redaksiya heyəti:
**Camal Mustafayev**
**Cəmil Həsənli**
**Nizami Cəfərov**
**Knyaz Aslan**
**Əfqan Abdullayev**

Rəssam:
**Mir Rafiq Əbdülrəhimov**

Kompüter tərtibatçısı:
**Nigar Aydəmirova**

Foto:
**Media Mərkəzi**

*Ünvan:*
*Bakı, Məhsəti küç.11,*
*(”Neftçilər” metrosunun yanı)*
*Tel.: (+99412) 323 93 13*
*(+99412) 421 10 93 (209)*
*GSM: (+99450)321 31 69*
*Faks: (+99412) 493 93 79*
*E-mail:xazarxabar@khazar.org*
*Şəhadətnamə:376*
*İndeks:67178*
*Tiraj:3000*

## "XƏZƏR"İN NÜMAYƏNDƏ HEYƏTİ HACETTEPE UNİVERSİTETİNDƏ

*(Əvvəli səh. 3-də)*

Səfərin üçüncü günü H.İsaxanlının rəhbərlik etdiyi nümayəndə heyəti və Hacettepe Universitetinin profofessor-müəllimləri və əməkdaşları birlikdə Türkiyə Cumhuriyyətinin qurucusu Atatürkün məzarını ziyarət etdilər, orada duyğulu anlar yaşadılar. Tələbələr Mavzoleyin, fəxri qarovulda duran əsgərlərin önündə xeyli xatirə şəkilləri çəkdirdilər, universitet adından xatirə dəftərinə ürək sözlərini yazdılar.

Həmin gün M. Tuncer H. İsaxanlını öz ofisində səmimi qarşıladı. Universitetlərin rəhbərləri iki universitet arasında bu günə kimi həyata keçirilən proqramların əhəmiyyətindən danışdılar. Bundan sonra da müxtəlif proqramlar, əsasən də Mövlanə proqramı çərçivəsində əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladılar. Görüşün sonunda rektorlar bir - birlərinə hədiyyə təqdim etdilər. Xatirə şəkilləri çəkildi. Görüşdən sonra onlar universitetin Sehiyye kampusundakı Böyük konsert salonunda keçirilən Qala Konserti dinləmək üçün salona gəldilər. Salon Türkiyənin, Azərbaycanın və hər iki universitetin bayraqları ilə bəzədilmişdi.

Konsert Xəzər Universitetinin Kamera orkestrinin ifasında dahi Üzeyir Hacıbəylinin məşhur "Arazbarı" musiqisi ilə başladı. Səhnəyə Azərbaycanın "Karmen"i Fidan Hacıyeva dəvət olunanda, salondakılar onu sürəkli alqışlarla qarşıladılar və ifasını heyranlıqla dinlədilər. Qızlardan və oğlanlardan ibarət rəqs qrupunun ifası da salondakıları heyran etdi. Tələbələrimiz Elvin Əliyev, Ülviyyə Əzizova, Nərmin Abbasova, Musa Abdullayev və başqalarının ifasındakı rəngarəng musiqi nömrələri salondakıları riqqətə gətirdi, alqışların arası kəsilmirdi. ''Yallı'' rəqsi səsləndiriləndə, salonda tamaşıçı kimi iştirak edən azərbaycanlı və türkiiyəli tələbələr əl-ələ verib rəqs edirdilər. Axşam saat 7- də başlayan konsert 2 saatdan artıq davam etdi. Konsertin sonunda M. Tuncer səhnəyə qalxaraq, Xəzər Universitetinin müəllim və tələbələri tərəfindən həyata keçirilən möhtəşəm konsert proqramına görə H. İsaxanlıya və onun rəhbərlik etdiyi nümayəndə heyətinə, müəllimlərə və tələbələrə, xüsusən də Fidan Hacıyeva və Zülfiyyə Sadıqova Yakarişıka təşəkkürünü bildirdi. O, H.İsaxanlı, Ə.Əmirbəyli, F. Hacıyeva, Z. Sadıqova -Yakarişıka Hacəttəpə Universitetinin təşəkkür plaketlərini təqdim etdi. Konsert proqramını çoxlu sayda qonaqlar izlədi. Konsertdən sonra Azərbaycandan gələn qonaqların şərəfinə Hacettepe Universitetinin rektoru adından ziyafət verildi.

Səfərin 4-cü günü Xəzər Universitetinin musiqi kollektivi proqrama uyğun olaraq, Hacettepe Universiteti Ankara Dövlət Konservatoriyasının qonağı oldu. Konservatoriyanın rəhbərliyi H. İsaxanlını və onun rəhbərlik etdiyi nümayəndə heyətini səmimi qarşılayaraq, onları konservatoriya ilə yaxından tanış etdi. Həmin gün konservatoriyada çalışan müəllimlər və tələbələr üçün kiçik konsret verildi. Proqramda Zülfiyyə Sadıqova-Yakarişık, Fidan Hacıyeva, Elvin Əliyev, Elçin Feyzullayev və digərləri iştirak etdilər. Salondakılar Xəzər Universitetinin musiqi kollektivini alqışlarla qarşıladılar. Bakıdan gələn qonaqlarla xatirə şəkilləri çıkildi. Həmin axşam Hacettepe Universitetinin professor-müəllim heyəti

Xəzər Xəbər

It has been publishing
since Januaru 1995

Founder:
Khazar Universitiy

Editor-in-chief:
**Hamlet İsaxanli**

Associate-editor:
**Alirza Balayev**

Editorial member:
**Jamal Mustafayev**
**Jamil Hasanli**
**Nizami Jafarov**
**Knyaz Aslan**
**Afqan Abdullayev**

Design by:
**Mir Rafig Abdulrahimov**

Computer graphics:
**Nigar Aydemirova**

Photo:
**Media Centre**

Address:
11 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
*Tel.: (+99412) 323 93 13*
*(+99412) 421 10 93 (209)*
*GSM: (+99450)321 31 69*
*Fax: (+99412) 493 93 79*
*E-mail:xazarxabar@khazar.org*
*Certificate:376*
*Index: 67178*
*Copies:3000*

Xəzər Universitəsindən gələn qonaqlarla birlikdə axşam yeməyi yedi, Azərbaycan və türk musiqisinin sədaları altında rəqs etdilər.

Səfərin beşinci günü musiqi kollektivinin üzvlərinə günorta saatlarına kimi sərbəst vaxt verildi. Müəllimlər və tələbələr mağazalarda alış-verişlə məşğul odular. Günortadan sonra H.İsaxanlı başda olmaqla bütün kollektiv Ankarada yeni açılmış H.Əliyev parkında fəaliyyətə başlayan Azəri Çay Evinin qonağı oldu. Çay Evinin təsisçisi Hüseyin Ayhan Bakıdan gələn qonaqları səmimi salamlayaraq, onların şərəfinə çay süfrəsi təşkil etmişdi. Çay süfrəsi ətrafında Elvin Əliyevin, Elçin Feyzullayevin ifasında Azərbaycan bəstəkarlarının əsərləri ifa olundu. Xatirə şəkilləri çəkildi.

Axşam saatlarında artıq hər kəs Hacettepe Universiteti tərəfindən təşkil olunmuş axşam yeməyinə tələsirdi. Vida yeməyində Hacettepe Universitetinin Türk Xalq Musiqi Xorunun bütün kollektivi iştirak edirdi. Məclis gecə saatlarına kimi davam etdi. Hər kəs oxudu, oynadı. Kimsə bu gecədən ayrılmaq istəmirdi. Gecənin sonunda H.İsaxanlı özünün üç şeirini oxudu. Onun şeirləri alqışlarla qarşılandı. H.İsaxanlı sonda bu gözəl proqramın həyata keçirilməsində xidmətləri olan hər kəsə, xüsusən də 5 günlük proqram ərzində gecə-gündüz bilmədən "Xəzər"lilərlə birlikdə olan Cemalettin Kalender, Nursel Pekel Bayramgil, Hamdi Ata, Özgür Ayyıdız, Sultan Mercanoğlu, Ertan Güzelcan, Sezai Ağa, Duyğu Hiçdurmaz, Yemen Ulus və Sevilay Karahyana dərin təşkkürünü bildirdi.

Xəzər Universitetinin nümayəndə heyəti bu səfərdən böyük təəssüratla Bakıya döndü.

*Əlövsət Əmirbəyli,*
*Ankara-Bakı*

## TƏLƏBƏLƏRİMİZ ASTANADA NEFT MÜHƏNDİSLƏRİ CƏMİYYƏTİNİN TƏDBİRİNDƏ



Xəzər Universitetinin neft mühəndisliyi ixtisası üzrə təhsil alan 3-cü və 4-cü kurs tələbələri - Neft Mühəndisləri Cəmiyyəti Xəzər Universitetinin Tələbə Bölməsinin prezidenti Davud Hüseynzadə, vitse-prezidenti Fərid İsmayılov və idarə heyətinin üzvü Rafiq Mirzəyev noyabrın 10-15-də Qazaxıstanın Astana şəhərində keçirilən Neft Mühəndisləri Cəmiyyətinin İllik Xəzər Texniki Konfransı və Sərgisi çərçivəsində Tələbə İnkişaf Sammitində iştirak etmiş və komandalar şəklində tələbə layihələrinin hazırlanmasında fəallıq nümayiş etdirmişlər.

## AVRASİYA ƏMƏKDAŞLIQ FONDUNUN TOPLANTISINDA

Noyabrın 15-də Gürcüstanın Tbilisi şəhərində Avrasiya Əməkdaşlıq Fondunun (AƏM) və Qafqaz Tədqiqat Resurs Mərkəzinin (QTRM) qəyyumlar şurasının toplantısı keçirildi. Toplantıda gündəlikdə olan şura qərarlarının təsdiqi, fandreyzinq yenilikləri, Audit və maliyyə komitəsinin Nominasiya və idarəetmə komitəsinin hesabatları və proqram yenilikləri məsələləri müzakirə olundu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da qəyyumlar şurasının üzvü olaraq toplantıda iştirak etdi.

## TƏBRİK MƏKTUBU

***Əziz Qüdrət müəllim!***

Xəzər Universiteti kollektivi adından Sizi 80 illik yubileyiniz münasibətilə səmimi - qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayırıq.

Siz ömrünüzün 55 ilini Azərbaycanın ulu keçmişinin, ibtidai icma cəmiyyətinin tarix və arxeologiyasının ümdə problemlərinin həllinə həsr etmisiniz. Azərbaycanın tunc dövrü mədəniyyətlərinin, qədim qayaüstü təsvirlərinin öyrənilməsinin bir çox nailiyyətləri sizin adınızla bağlıdır.

Siz Azərbaycanın hüdudlarından kənarda da yaxşı tanınan görkəmli arxeoloq, Beynəlxalq Arxeoloqlar Cəmiyyətinin Şərq bölməsi üzrə Azərbaycan bölməsinin sədri, "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru, Bakı Dövlət Universitetinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, əməkdar müəllim, tarix elmləri doktoru, professorsunuz. Siz Azərbaycan elminə və təhsilinə fədakarcasına xidmətin, prinsipallığın və əməksevərliyin nümunəsisiniz.

Siz yüksək ixtisaslı tarixçi və arxeoloq kadrların hazırlanmasında yaxından iştirak edir, yaradıcılıq ənənələrinin ardıcıllığını təmin etmək üçün böyük əmək sərf edirsiniz.

Siz Xəzər Universitetində də pedaqoji fəaliyyət göstərmisiniz, gənc nəslin təlim-tərbiyəsi prosesində fəal iştirakınız xüsusilə təqdirəlayiqdir. Universitetin Sizin təşəbbüsünüzlə nəşr etdyi, ölkə arxeoloqlarının sevimli dərgisi olan "Azərbaycan arxeologiyası" jurnalının ilk nömrəsindən baş redaktorusunuz, jurnalın elm aləmində böyük nüfuz qazanmasına nail olmusunuz.

***Əziz Qüdrət müəllim!***

Qarşıda Sizi yeni-yeni kəşflər, yaradıcılıq uğurları gözləyir. İnanırıq ki, Siz ideya və əməli işlərinizlə elmimizin və təhsilimizin inkişafına bundan sonra da öz töhfənizi verəcəksiniz.

Sizi bir daha yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

*Xəzər Universiteti kollektivi adından,*
*Prof. Hamlet İsaxanlı*
*Təsisçi*
*Direktorlar və Qəyyumlar Şurasının sədri*
*9 dekabr 2014-cü il*

## "DİNİ PLÜRALİZMİN SİYASİ PROBLEMLƏRİ" MÖVZUSUNDA MÜHAZİRƏ

Oktyabrın 22-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə İsveçrənin Fribourg Universitetinin tədqiqatçısı, fəlsəfə doktoru Ansgar Jödicke "Avropa məktəblərinin nümunəsində dini plüralizmin siyasi problemlərinin öyrənilməsi" mövzusunda mühazirə oxudu. O, müxtəlif Avropa ölkələrində həyata keçiriləcək müxtəlif konfiqurasiyaları nümayiş etdirmək məqsədi ilə məktəbdə din sahəsini öz tədqiqat mövzusu seçmişdir.

A. Jödicke bildirmişdir ki, dini təhsil üçün vahid bir model yoxdur, amma dövlət və dini icmalar arasında danışıqlar üçün bu sahənin istifadəsi əlverişlidir.

## TEXNOLOJİ İNKİŞAF SAHƏSİNDƏ İŞBİRLİYİ HAQQINDA MÜZAKİRƏ

Noyabrın 24-də Xəzər Universitetinin nümayəndələri - təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs, Texnopark direktoru Özdən Doyuran və onları Ankaraya dəvət edən Cenk Polat (Hidropol Engineering və həmçinin "MITEK" şirkətlər qrupunun prezidenti) Canada mərkəzi (Calgary, Alberta) Westinghouse Plasma Corporation'un məsul nümayəndəsi, strateji alyanslar və biznesin inkişafı üzrə vitse - prezidenti Kevin Willerton ilə görüşüb, texnoloji inkişaf üzrə maraq kəsb edən işbirliyi haqqında qarşılıqlı müzakirə apardılar.

## QÜDRƏT İSMAYILZADƏ - 80



Tarix elmləri doktoru, professor, Respublikanın əməkdar müəllimi, Bakı Dövlət Universiteti Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri, "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru Qüdrət Seyfulla oğlu İsmayılzadə 1934-cü ildə Bakı şəhərində neftçi ailəsində anadan olmuşdur. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuş və 1957-ci ildə bitirmişdir.Universitet təhsilini başa çatdırdıqdan sonra 1950-1958-ci illərdə respublikanın ucqar dağ rayonunda tarix və rus dili müəllimi işləmişdir. 1959-cu ildə Azərbaycan Elmlər Akademiyasının Arxeologiya şöbəsinə işə dəvət olunmuşdur. 1960-1963-cü illərdə aspiranturada təhsil almış, Azərbaycanın tanınmış alimi İ.M.Cəfərzadənin aspirantı olmuş, sonrakı illərdə görkəmli arxeoloq alim, akademik O.M.Caparidzenin rəhbərliyi altında "Qərbi Azərbaycanın qədim mədəniyyəti" mövzusunda dissertasiya işi üzərində çalışmışdır. 1964-cü ilin fevral ayında Tbilisi şəhərində dissertasiya işini uğurla müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.

Q. İsmayılzadə 1964-1977-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya sektorunda kiçik, sonra baş elmi işçi vəzifəsində işləmiş, Azərbaycan Dövlət Universitetində qədim dünya tarixi üzrə mühazirələr oxumuşdur. Aspiranturada təhsil aldığı və arxeologiya sektorunda işlədiyi müddətdə o, müntəzəm olaraq çöl tədqiqatlarında iştirak etmişdir. Onun ilk tədqiqatları Qazax, Daşkəsən, Mil-Qarabağ, Lənkəran və Astara bölgələri ilə bağlı olmuş, bir sıra tarixi abidələrin üzə çıxarılması və öyrənilməsi ilə nəticələnmişdir.

Q. İsmayılzadə 1959-1960-cı illərdə Azərbaycan və SSRİ elmlər akademiyalarının birgə ekspedisiyası tərkibində Örənqala və Üçtəpə qazıntılarında fəaliyyət göstərmişdir. Azərbaycan ərazisində hal-hazırda bir sıra tarixi abidələrin kəşfi və öyrənilməsi bilavasitə onun adı ilə bağlıdır. 1970-ci illərin əvvəllərində Q. İsmayılzadə tərəfindən Kiçik Qafqazın cənub-şərq ətəklərini əhatə edən Quruçay və Köndələnçay vadisində qədim əkinçilik mədəniyyətləri ilə bağlı olan bir sıra arxeoloji komplekslər aşkar olunmuş, Kəlbəcər bölgəsində qədim qayaüstü təsvirlərin yeni silsiləsi qeydə alınmışdır.

Q. İsmayılzadə 1974-1975-ci illərdə Türkmənistan ərazisindəki Altuntəpə, 1989-1990-cı illərdə Türkiyədəki Troya və Boğaz-Köy beynəlxalq arxeoloji ekspedisiyalarda iştrak etmişdir. O, 200-dən artıq elmi əsərin, o cümlədən dərslik, dərs vəsaiti, proqram və metodik göstərişlərin müəllifidir, onlarca iri həcmli elmi əsərlərin redaktoru olmuşdur. Xəzər Universitetinin nəşr etdiyi "Azərbaycan Arxeologiyası" jurnalının təsis olunduğu gündən baş redaktorudur. Jurnal beynəlxalq aləmdə də tanınır və nüfuz qazanmışdır.

Uzun müddət Azərbaycan Dövlət Universitetinin tarix fakültəsi ilə əməkdaşlıq etmiş Q. İsmayılzadə 1977-ci ildə baş müəllim vəzifəsinə təyin olunmuş, keçən müddətdə baş müəllim və dosent vəzifəsindən professor vəzifəsinə qədər yüksəlmişdir. O, 1983-cü ildə Tbilisi Dövlət Universitetinin Elmi Şurasında "Azərbaycanda erkən tunc dövrü mədəniyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Q. İsmayılzadə dəfələrlə Azərbaycan arxeologiya elmini beynəlxalq konfrans və simpoziumlarda təmsil edərək, onun nüfuzunun yüksəldilməsində səy və bacarığını əsirgəməmiş, ölkə arxeologiyasının problem məsələləri üzrə məruzələrlə çıxış etmişdir. Aşqabad şəhərində keçirilən konfransda o, «Qızıl Sünbül» medalına layiq görülmüşdür.

1990-1991-ci illərdə Almaniya Federativ Respublikası Tübinqen Universitetinin dəvəti ilə orada Azərbaycanın qədim maddi mədəniyyət abidələri haqqında mühazirələr oxumuşdur.

Q. İsmayılzadə müxtəlif illərdə bir sıra yüksək nüfuzlu elmi təşkilatlara üzv seçilmişdir. O, Beynəlxalq Arxeoloqlar Assosiasiyasının, Türkmənistan prezidenti yanında qədim Şərqin mədəni irsini öyrənən Beynəlxalq Elmi Şuranın, Türkmənistan prezidentinin təsis etdiyi «Miras» jurnalının beynəlxalq redaksiya heyətinin, Beynəlxalq Əl xalçaları Assosiasiyasının, Qırğızıstan prezidenti yanında Beynəlxalq Humanitar Elmlər Assosiasiyasının, eləcə də Azərbaycanşünaslar Müstəqil Birliyinin Elmi Şurasının üzvü olmuşdur. Q.İsmayılzadə 2001-ci ildə Sankt-Peterburqda Rusiya Arxeoloji Cəmiyyəti Şərq bölməsinin Azərbaycan bürosuna sədr seçilmişdir.

Q.İsmayılzadə Bakı Dövlət Universiteti Tarix fakültəsinin həyatında - elmi, tədris, təlim və tərbiyə işlərində fəal iştirak edən, çoxsaylı tələbə və müəllim- professor heyəti arasında böyük hörmətə malik əməkdaşlardandır.

## AZƏRBAYCANDA ALİ MƏKTƏBLƏRƏ QƏBULDA BƏZİ DƏYİŞİKLİKLƏR OLACAQ

*Gələn il qəbul imtahanlarında test tapşırıqlarının sayı ilə bağlı dəyişikliklər edilib*



Bu barədə TQDK sədri Məleykə Abbaszadə bu gün keçirilən mətbuat konfransında deyib ki, 2015-ci ilin qəbul imtahanlarında uyğunluğu müəyyən etmək tapşırıqlarının sayının 1 ədəd azaldılması və hər ixtisas qrupunda üçüncü bir fəndən açıq tipli test tapşırıqlarının istifadəsi planlaşdırılır.

Onun sözlərinə görə, qəbul imtahanlarında 2015-ci ildə hər ixtisas qrupunda üç fənn üzrə hər birində 4 ədəd test tapşırığının istifadəsi nəzərdə tutulur. O qeyd edib ki, cədvəldə bu fənlərin qruplar üzrə çeşidi və həmin fənlərin müvafiq qrupdakı çəki əmsalları təqdim olunur.

Belə ki, I ixtisas qrupunda riyaziyyat, kimya, fizika, II ixtisas qrupunda riyaziyyat, coğrafiya, ana dili, III qrupda riyaziyyat, tarix, ana dili, IV ixtisas qrupunda isə riyaziyyat, kimya, biologiya fənləri üzrə açıq tipli test tapşırıqları tətbiq olunacaq.

O həmçinin qeyd edib ki, imtahanın məzmunu ilə bağlı tətbiq edilən bu yenilik test bloklarının mürəkkəblik dərəcəsinə təsir etməyəcək. Sual kitabçaları formalaşdırılarkən son illərdə olduğu kimi, test tapşırıqlarının mürəkkəblik dərəcəsinə görə sayları dəyişməyəcək. bu yeniliklə bağlı "Abituriyent" jurnalının 1-ci sayında model testlər dərc olunacaq.

Qeyd edək ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (TQDK) ali təhsil müəssisələrinə qəbul imtahanlarında 4 ildir ki, açıq tipli test tapşırıqları tətbiq edilir. Qəbul imtahanlarında hesablama, seçim, ardıcıllıq və uyğunluğu müəyyən etmək formalı 5 açıq tipli test tapşırığından istifadə edilir.

## UNİVERSİTETLƏRDƏ YENİ KAFEDRA YARADILACAQ

*Əhali sakinliyi və demoqrafiya sahəsində milli kadr potensialının inkişafı məqsədi ilə müvafiq ali təhsil müəssisələrində demoqrafiya kafedrası yaradılacaq*

Bu məsələ 2014-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı"nda əksini tapıb.

Əhali sakinliyi və demoqrafiya sahəsində kadr potensialının inkişafı məqsədilə aidiyyəti ali təhsil müəssisələrində demoqrafiya fənni üzrə müvafiq tədris proqramlarının hazırlanması və tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub.

Bundan başqa əhali sakinliyi və demoqrafiya sahəsində ölkənin elm və kadr potensialının inkişaf etdirilməsi məqsədilə aidiyyəti üzrə xarici ölkələrlə təcrübə mübadiləsinin aparılması, ölkədə elmi-praktiki seminarların, konfransların, dəyirmi masaların keçirilməsi də planda qeyd olunub. Əhali Sakinliyi və Demoqrafiya üzrə Tədqiqat və Təlim Mərkəzinin fəaliyyətinin inkişaf etdirilməsi üzrə tədbirlər həyata keçiriləcək.

## MÜƏLLİMİMİZİN KİTABI İKİ DİLDƏ ÇAP OLUNMUŞDUR




Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru İlahə Qurbanovanın ana dilimizdə "Azərbaycan dili dialekt və şivələrinin etnolinqvistik təhlili" adlı monoqrafiyası Azərbaycan (Bakı, "Bilik" nəşriyyatı, 2014) və rus ("Этнолингвистический анализ диалектов Азербайджанского языка", Тула, Папирус, 2014) dillərində nəşr olunmuşdur. Hər iki monoqrafiya müasir dilçiliyin ən aktual və problematik məsələlərindən birinə - etnolinqvistik araşdırmalara həsr olunmuşdur.

Əməkdaşımızı təbrik edirik.




## YƏHUDİLİYİN İBADƏT MƏKANLARINDA

Şərq dilləri və din araşdırmaları departmentinin təşkilatçılığı ilə "Fərqliliklərin harmoniyası" dini tolerantlıq tədbirləri silsiləsi çərçivəsində noyabrın 1-də Yəhudiliyin ibadət məkanlarına səfər təşkil edilmişdir. Əvvəlcə tələbələr Aşkenaz yəhudilərin sinaqoqunda Yəhudiliyin həftəlik ibadəti olan "Şabat" ayinini izləmişlər. Ayindən sonra tələbələr Azərbaycandakı Aşkenaz yəhudilərin icmasının sədri ravvin Şneor Seqalın Yəhudiliyin inanc, ibadət və adət-ənənələrinə dair mühazirəsini dinləmiş, onların sualları cavablandırılmışdır.

Daha sonra tələbələr Dağ yəhudilərinin sinaqoquna səfər edib, icmanın sədri Milix Yevdayevlə görüşmüş, Azərbaycanda yəhudi icmalarının tarixi, digər din mənsubları ilə münasibətləri haqqında məlumat almışlar.

Departamentin müdiri, fəlsəfə doktoru Elnurə Əzizova müasir cəmiyyətin tələbi olan multikulturalizm, dini, etnik və mədəni dözümlülüyün gənclər arasında yayılmasında universitetlərin rolunun vacibliyi və Xəzər Universitetinin ənənəvi olaraq bu sahədə həyata keçirdiyi tədbirlər haqqında məlumat vermişdir.

## TƏLƏBƏLƏR XRİSTİAN MƏBƏDLƏRİNDƏ

Şərq dilləri və din araşdırmaları departmentinin təşkilatçılığı ilə "Fərqliliklərin harmoniyası" dini tolerantlıq tədbirləri çərçivəsində tələbələrimiz noyabrın 16-da xristianlığın ibadət məkanlarında olmuşlar. Departamentin müdiri, fəlsəfə doktoru Elnurə Əzizovanın rəhbərliyi ilə universitetin tələbələri ilk olaraq Jen Mironosits Pravoslav kilsəsində həyata keçirilən yevxaristiya (çörək-şərab) mərasimində olmuşlar. Sonra Bakı və Xəzəryanı Yeparxiyanın mətbuat katibi Konstantin Ata tələbələrə Pravoslavlıq cərəyanının xristianlığın digər cərəyanları arasındakı yeri, Jen Mironosits kilsəsinin tarixi və fəaliyyət sahələri haqqında məlumat vermişdir.

Daha sonra Müqəddəs Məryəm Katolik kilsəsində bazar günü dini ayinində iştirak edən tələbələr kilsə keşişinin Katolikliyin ölkəmizdəki tarixi, Katolik və digər xristian məzhəbləri arasındakı münasibətlər, Katolik kilsəsinin fəaliyyəti haqqında söhbətini dinləmişlər.

Müxtəlif din mənsublarının məbəd və ibadətlərinin müşahidə olunması ilə fərqliliklərə qarşı tolerantlıq anlayışının aşılandığı tədbirin sonunda xatirə şəkilləri çəkildi.

## YENİ DƏRS VƏSAİTİ




Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Nəsiman Yaqublunun “Azərbaycan mühacirət mətbuatı” adlı yeni kitabı – dərs vəsaiti çapdan çıxmışdır.

Dərs vəsaitində Azərbaycan mühacirət mətbuatının yaranması və fəaliyyəti geniş işıqlandırılır. 1920-ci ilin 27 Aprel işğalından sonra azərbaycanlı mühacirlər dünyanın müxtəlif ölkələrində yaşamaq məcburiyyətində qalmışdılar. Onlar bu ölkələrdə siyasi fəaliyyət göstərməklə yanaşı, müxtəlif mətbuat nümunələri nəşr edib, Azərbaycan tarixini, ədəbiyyatını və mədəniyyətini də təbliğ edirdilər.. Dərs vəsaitində Türkiyədə çap edilmiş “Yeni Qafqasiya”, “Azəri Türk”, “Odlu Yurd”, “Bildiriş”, “Azərbaycan Yurd Bilgisi”, “Azərbaycan”, “Mücahid”, Almaniyada nəşr edilmiş “İstiqlal”, “Qurtuluş”, “Azərbaycan” və digər jurnal, qəzetlər ciddi araşdırılır.

Bu mətbuat orqanlarında müstəqilliyimizlə bağlı da çox dəyərli məlumatlar vardır. Dərs vəsaitində mövcud elmi araşdırmalardan, tədqiqatlardan istifadə etməklə bu problemlər hərtərəfli təhlil edilir.

Kitabın elmi redaktoru filologiya üzrə elmlər doktoru Ş. Vəliyevdir.

## ƏMƏKDAŞLARIMIZ TEMPUS LAYİHƏSİNİN SEMİNARINDA

Noyabrın 17-18-də Xəzər Universitetinin əməkdaşları – Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova və İnformasiya sistemi üzrə proqramçı və menecer Rəşad Xalıqov Estoniyanın Tallin Universitetində keçirilən "Ömür boyu öyrənmə təsisatları kimi universitetlərin xüsusi rolunun artırılması" adlı Tempus layihəsinin seminarında iştirak etmişlər.

"İnformasiya texnologiyaları heyətinin praktiki təlimi" adlı tədbir təqdimatlar və praktik seminar şəklində təşkil olunmuşdur. E-öyrənmə dəstək xidmətləri və kadr hazırlığı üzrə ən yaxşı təcrübələr, təhsil yenilik mərkəzləri haqqında məlumat və Tallin Universiteti iştirakçılara təqdim edilmişdir.

## ESFIDIP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

Noyabrın 20-də Xəzər Universitetində “Əlilliyi olan şəxslərin Azərbaycan Ali Təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” (ESFIDIP) adlı Tempus layihəsinin koordinatoru Rima Məmmədova yerli partnyorlardan biri – Naxçıvan Dövlət Universitetinin nümayəndəsi, Fəlsəfə və sosial iş kafedrasının müəllimi Kamran Vəlizadə ilə görüşdü.

Görüş zamanı layihənin hal-hazırkı fəaliyyəti və dekabr ayında layihə çərçivəsində Naxçıvanda keçiriləcək konfrans haqqında fikir mübadiləsi aparıldı.

## ZAQREB İQTİSADİYYAT VƏ MENECMENT MƏKTƏBİNİN DEKAN MÜAVİNİ XƏZƏR UNİVERSİTETİNDƏ

Noyabrın 21-də Zaqreb İqtisadiyyat və Menecment Məktəbinin dekan müavini, fəlsəfə doktoru Zlatko Matesa Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin qonağı olub, fakültənin dekanı professor İnqilab Əhmədov və universitetin İqtisadiyyat departamentinin müdiri, fəlsəfə doktoru Ceyhun Məmmədovla görüşdü.

Tərəflər tələbə mübadiləsi, ikili bakalavr və MBA proqramları yaradılması ilə bağlı əməkdaşlıq məsələlərini, həmçinin Zaqreb İqtisadiyyat və Menecment Məktəbinin müəllimlərinin Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün xüsusi mövzular üzrə mühazirələr oxuması imkanlarını müzakirə etdilər.

Sonda tərəflər əməkdaşlıq üçün anlaşma memorandumu hazırlamaq barədə razılığa gəliblər.

## ƏMƏKDAŞIMIZIN "AZƏRBAYCAN MÜƏLLİMİ" QƏZETİNDƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı "Azərbaycan müəllimi" qəzetinin 28 noyabr tarixli nömrəsində qəzetin əməkdaşları Yusif Əliyev və Niyazi Rəhimovun "Ali məktəblərdə elmin vəziyyəti ilə bağlı araşdırmalarımız nə göstərdi?" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə bir neçə universitetin müvafiq sahə ilə məşğul olan əməkdaşından, o cümlədən **Xəzər Universitetinin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevdən kiçik müsahibə alınmışdır.** E. Şahgəldiyev demişdir:

"Azərbaycanda ilk ingilisdilli özəl ali məktəb olan Xəzər Universitetinin 200 nəfərə yaxın müəllim heyətindən təqribən 30 nəfəri elmi-tədqiqat işi ilə məşğul olur. Bu günə qədər universitet üzrə 6 elmi işə patent alınmışdır.

Universitet xarici təşkilatlar tərəfindən maliyyələşdirilən qrant layihələrində də fəal iştirak edir. Son 2 ildə bu layihələrdən 533.000 manat qazanc əldə olunmuşdur.

Elmi-tədqiqat işlərini yüksək səviyyədə aparmaq üçün universitetimizdə lazımi baza şəraiti və elmi mühit mövcuddur. Elmi-tədqiqatlar əsasən 4 elmi-tədqiqat müəssisəsində aparılır. Bunlar Təhsil Siyasəti İnstitutu, Qafqaz Araşdırmaları Tədqiqat Mərkəzi, Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi, Lüğət və Ensiklopediya Mərkəzidir.

Universitetdə tədris laboratoriyaları ilə yanaşı iki tədqiqat laboratoriyası da fəaliyyət göstərir. Həm inşaat materiallarının sıxlığının ölçülməsi laboratoriyası, həm də neft yataqlarında aparılan tədqiqatlar üçün nəzərdə tutulan kompüter simulyasiyası laboratoriyası müasir qurğu və avadanlıqlarla təchiz olunmuşdur.

Son illər universitetimizdə 6 nəfər tədqiqatçı əməkdaş tərəfindən yazılmış məqalələr nüfuzlu beynəlxalq impakt-faktorlu elmi jurnallarda dərc olunub.

Qrantlar əsasında yerinə yetirilən elmi-tədqiqat işləri də universitetin araşdırma fəaliyyəttində xüsusi yer tutur və hazırda qrantlar əsasında 7 tədqiqat layihəsi yerinə yetirilir.

Universitetdə çalışan əməkdaşlar müxtəlif nüfuzlu beynəlxalq institutların tədqiqatçıları ilə birgə araşdırmalar aparırlar. Bu yaxınlarda İtaliyanın Milan şəhərində "Egea" nəşriyyatı tərəfindən "Xəzər dənizi şahmat taxtası: geosiyasi, geostrateji və geoiqtisadi təhlil" adlı kitab nəşr edilmişdir. Kitabın həmmüəllifləri SAM-ın (Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi) əməkdaşı, Xəzər Universitetinin müəllimi və doktorantı Azad Qəribov və İSPİ-nin (İtaliyanın Beynəlxalq Siyasi Araşdırmalar İnstitutu) əməkdaşı Karlo Frappidir."

Məqalənin tam mətni ilə bu linkdə tanış ola bilərsiniz:
*http://www.muallim.edu.az/arxiv/2014/46/23.htm*

## KEYFİYYƏTİN TƏMİNATI MƏRKƏZİNİN DİREKTORU TƏHSİL NAZİRLİYİNİN SEMİNARINDA

Noyabrın 25-də Xəzər Universiteti Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova Avropa Birliyi və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində təşkil olunmuş "Boloniya prosesində keyfiyyətin təminatı" adlı seminarda iştirak etmişdir. Ali təhsildə keyfiyyətin təminatı üzrə ekspert Maykl Karpisek "Boloniya prosesi çərçivəsində keyfiyyətin təminatı" mövzusunda çıxış edərək, əsas diqqəti Boloniya prosesinin prioritetləri, Avropa standartları və təlimatlar, ixtisas və təlim nəticələri, eləcə də Azərbaycanda ali təhsilin vəziyyəti kimi məsələlərə yönəltmişdir.

Təhsil Nazirliyinin ekspertləri – Amin Çərkəzov "Həyat boyu öyrənmədə ixtisas çərçivəsi", Əfqan Abdullayev "Azərbaycanın ali təhsil müəssisəələrində akkreditasiya mexanizmi" mövzularında çıxış etmişlər. Tədbir sual - cavab sessiyası ilə başa çatmışdır.

## XƏZƏR UNİVERSİTETİ YENƏ BRİTİSH COUNCİL GRANT LAYİHƏSİNİN QALİBLƏRİ ARASINDA

Xəzər Universiteti 2014/2015-ci il üçün Azərbaycanın British Council Tədqiqatçı Əlaqələri qrant layihəsinə layiq görülüb. Layihənin koordinatoru İqtisadiyyat və menecment fakültəsinin dekanı professor İnqilab Əhmədovdur. Hal-hazırda layihə qrupu proqram və gündəlikdəki məsələlər üzərində işləyir. Bu layihə çərçivəsində layihənin Böyük Britaniya tərəfdaşı Reading Universiteti Xəzər Universiteti ilə birlikdə 2015-ci il fevralın 16-20-də "Təbii ehtiyatlarla zəngin ölkələrdə davamlı iqtisadi inkişaf" mövzusunda beynəlxalq seminar keçirəcək. Seminara Xəzər Universiteti ev sahibliyi edəcək. Layihə qrupu tezliklə hər iki ölkənin potensial tədqiqatçıları üçün seminara dəvət elan edəcək.

## DEPARTAMENT MÜDİRİMİZ TEMPUS LAYİHƏSİNİN İDARƏETMƏ İCLASINDA

Noyabrın 11-12-də Xəzər Universitetinin Neft mühəndisliyi deparatamentinin müdiri dosernt Qəşəm Zeynalov Belarusun Minsk şəhərində Belarus Dövlət Universitetində və Belarus Dövlət Aqrar-Texniki Universitetində "Enerji səmərəliliyi sahəsində tədrisin inkişaf etdirilməsi üçün təlim şəbəkəsinin yaradılması" adlı Tempus layihəsinin 5-ci idarəetmə iclasında və" Enerjinin səmərəliliyi və enerjiyə qənaət üzrə universitetlərdə təhsil" mövzusunda seminarda iştirak etmişdir.

Layihənin əsas məqsədi enerji səmərəliliyinin artırılması, enerjiyə qənaət olunması və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində tədrisin yaxşılaşdırılması üçün partnyor ölkələr və Avropa İttifaqı üzv dövlətlərinin ali təhsil müəssisələri arasında şəbəkəni genişləndirməkdidr. Layihə Riqa Texniki Universiteti tərəfindən koordinasiya edilib. Layihənin konsorsiumu Latviya, Litva, Estoniya, Belçika, Polşa, Rumıniya, Belarus, Kosovo və Azərbaycanın tərəfdaş universitetlərindən ibarətdir. Azərbaycan bu layihədə Xəzər Universiteti, Qafqaz Universiteti və Milli Aviasiya Akademiyası ilə təmsil olunur.

Tədbirdə qeyri-ənənvi enerji sahələri üzrə yeni kurikulumların hazırlanması, avadanlıqların alınması və onların qeydiyyat hesabatlarının hazırlanmasi kimi müxtəlif məsələlər müzakirə edilmişdir. Bundan başqa, "Effektiv enerji materialları" və "Effektiv işıqlandırma" kursu üzrə hazırlanmış kitabların ingilis dilindəki versiyasının təqdimatı keçirilmişdir.

## TƏLƏBƏLƏRİMİZ "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİ" İNTELLEKTUAL OYUNUNDA

Noyabrın 12-də Heydər Əliyev Mərkəzində Mərkəzin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkillatçılığı ilə ali təhsil müəssisələri arasında "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda bilik yarışı keçirildi.

Xəzər Universitetinin tələbələrindən ibarət komanda da yarışda iştirak etdi. Komandanın kapitanı 3-cü kurs tələbəsi Mirzəağa Səmədov, üzvləri – Təbriz Adilzadə, Murad Balaqadaşov, Eldar Zeynalov və Tural Bayramlı (2-ci kurs), Nicat İsmayıl, Fuad İbrahimov (3-cü kurs), Türkeş Məmmədov (4-cü kurs) idi. Tədbirdə Xəzər Universitetinin Fəlsəfə departamentinin müdiri Mail Yaqub və Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimova komandanın müşahidəçisi olaraq iştirak etdilər.

Müxtəlif ali təhsil müəssisələrini təmsil edən 45 komanda arasında Xəzər Universitetinin komandası 13-cü yeri tutdu. Tələbələrə sertifikat verildi

## GÜRCÜSTAN RESPUBLİKASININ ƏMƏKDAŞLIQ FONDUNDA

Noyabrın 14-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Gürcüstan Respublikasının Əməkdaşlıq Fondunun (CEO) qonağı olub, Fondun başçısı professor Kaklı Kovzanadze, başçının müavini Natia Turnava, baş sərmayə mütəxəssisi (Senior Investment Officer) Giorgi Danelia ilə görüşdü. Gürcüstanda elm, təhsil və texnologiyanın inkişafı problemləri, həmçinin bu sahələrdə Gürcüstan-Azərbaycan əlaqələrinin gücləndirilməsi müzakirə olundu.

## NÜMAYƏNDƏMİZ "DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ"NƏ DAİR BEYNƏLXALQ KONFRANSDA

ATƏT-in Bakı layihə əlaqələndiricisi, Azərbaycan hökuməti, Qafqaz Müsəlmanları İdarəsi və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə təşkilatçılığı ilə noyabrın 17-18-də Bakıda ilk dəfə "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda beynəlxalq konfrans keçirlmişdir.

Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin müəllimi, "Khazar Journal of Humanities and Social Sciences" adlı ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") beynəlxalq elmi jurnalın redaktor köməkçisi Xəyalə Məmmədova beynalxalq konfransa rəsmi dəvət olunaraq, universitetimizi təmsil etmişdir.

## ƏMƏKDAŞIMIZIN MƏQALƏSİ "TEYYUB QURBAN - 80" BİBLİOQRAFİYA KİTABINDA




Azərbaycanın görkəmli şair, nasir və dramaturqu Teyyub Qurbanın anadan olmasının 80 illiyi münasibətilə M. F. Axundov adına Milli Kitabxananın nəşr etdiyi "Teyyub Qurban-80" biblioqrafiya" kitabında "Xəzər Xəbər" yurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevin "Dönməzlik"dən başlanan dönməzlik yolu" adlı məqaləsi də verilmişdir. Məqalədə T. Qurbanın Məhəmməd Əmin Rəsulzadəyə həsr etdiyi əsərlərindən bəhs edilir.

Biblioqrafiyanın tərtibçisi M. F. Axundov adına Milli Kitabxananın əməkdaşı Mədinə Vəliyeva, redaktoru Sevgiyə Əsədovadır.

Kitab 2009-cu ildə şairin anadan olmasının 75 illiyi münasibətilə buraxılmış biblioqrafiyanın tamamlanmış nəşridir və 1950-ci ildən 2014-cü ilə qədər olan bir dövrü əhatə edir.

## MÜƏLLİMİMİZ ANKARADA BEYNƏLXALQ KONFRANSDA

Xəzər Univesitetinin müəllimi Araz Aslanlı noyabrın 21-də Türkiyə Respublikasının Ankara şəhərində təşkil olunan "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sülh və təhlükəsizliyə, qonşuluq münasibətlərinə təhdid kimi" mövzusunda keçirilmiş beynəlxalq konfransda məruzəçi kimi iştirak etmişdir.

Konfrans Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) və Avrasiya İncələmələr Mərkəzinin (AVİM) birgə təşkilatçılığı ilə keçirilmişdir.

Tədbirin açılışında AVİM-in direktoru Alev Kılıç, SAM-ın direktor müavini Gülşən Paşayeva, Azərbaycan Respublikasının Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Faiq Bağırov və "Jamestown Foundation"-nun direktoru Glen Hovard çıxış etmişlər.



AMEA Dünya Siyasəti İnstitutunun direktoru, millət vəkili Musa Qasımlının moderatorluğu ilə keçən "1828-ci ildən münaqişə başlananadək "Qarabağ məsələsi": demoqrafik proseslər və inzibati dəyişikliklər" mövzulu birinci sessiyada o özü "1828-ci ildən günümüzədək Qarabağ ərazisində demoqrafik proseslər", A. Aslanlı "1828-ci ildən sonra Qarabağ ərazisində inzibati dəyişikliklər və bunun Qarabağ probleminin mahiyyətinə təsiri", Atılım Universitetinin müəllimi Hasan Ali Karasar "Ermənistanın daxili siyasətində Qarabağ klanının rolu" və Türkiyə Odalar və Bursalar Birliyi (TOBB) Universitetinin müəllimi, Türkiyə Respublikası baş nazirlik yanında dövlət arxivlərinin keçmiş müdiri Yusuf Sarınay "Osmanlı arxivlərində Qarabağ" mövzularında məruzə etmişlər.

Moderatoru Uluslararası Strateji Araşdırmalar Kurumunun (USAK) direktor müavini Kamer Kasımın olduğu "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi geosiyasi maraqlar kontekstində" mövzulu ikinci sessiyanın məruzəçiləri o özü ("Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair böyük güclərin mövqeyi"), G. Paşayeva ("Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın mövqeyi"), Ankara Universiteti Hüquq fakültəsinin müəllimi Cavid Abdullazadə ("Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquqda") və AVİM-in elmi işçisi Aslan Yavuz Şir ("Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Türkiyənin mövqeyi") olmuşlar.

Məruzələrdən sonra müzakirələr aparılmış, suallar cavablandırılmışdır.

ƏDALƏT
Bu bir xalq qəzetidi

## XƏZƏRİN MEHİ

*Seyfəddin Altaylı*



Ötən günlərdə interneti açdıqda əziz dostum Əlövsət Əmirbəylinin məktubunu gördüm. Yazırdı ki, "Biz Ankaraya gələcəyik və Hacəttəpə Universitetinin Kültür Zalında tədbir keçirəcəyik, sizləri də orda görmək istəyirik".

Məktubu oxuyan kimi 1990-cı illər yadıma düşdü. Bakıdan teatr qrupu gəlmişdi, mərhum yazıçımız İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" adlı tamaşası Ankarada yerləşən Opera və Balet Teatrında tamaşaya qoyulacaqdı.

Əziz və istəkli dostum, görkəmli yazıçımız, siyasət və mədəniyyət xadimimiz Elçin Əfəndiyev o günlər bizə nağıllardakı kimi gözəl anlar yaşatdı, burdan təkrarən ona qardaş təşəkkürlərimi bildirirəm. O axşam nəinki Ankaradan, digər şəhərlərdən də xəbər tutub həmin tamaşaya baxmağa və Azərbaycanın abhavasını həsrətlə dərməyə gələnlər vardı. Sovet imperiyası artıq can üstə idi, nəinki can üstə, hətta canını da tapşırmışdı, ancaq xofu hələ də davam edirdi. Nə o gecəni, nə də o əsəri səhnədə ən gözəl şəkildə ifa edən sənətçilərimizi unuda bilmirəm, bilməyəcəyəm. Əlövsət bəyin məktubunu oxuyan kimi istər-istəməz o günlərdən bu günlərə hansı mərhələləri keçib gəldiyimizi xatırladım... Məktubu oxuyandan sonra da Əlövsət bəyə məktub yazdım və o axşam ən vacib işimiz də olsa onu təxirə salacayıq, həmin tədbirdə sizi yalnız buraxmayacayıq, dedim.

Günlər birbəbir ötdü və həmin gün göz açıb yumana kimi gəlib çatdı. Yoldaşımla birlikdə Hacəttəpə Universitetinin mədəniyyət zalına üz tutduq, ora ilk çatan biz idik. Əlövsət bəy bizi görən kimi o nurlu üzü ilə gülə-gülə bizə sarı yüyürdü, qucaqlaşıb salamlaşdıq. Salonun qapısı vaxt tez olduğuna görə hələlik bağlı idi, bizi səhnənin arxasından içəri buyur etdi. Xəzər Universitetinin rektoru Hamlet bəy İsaxanlı ön cərgədə oturmuşdu və səhnədə çıxış edəcək qrupun tələbələrdən ibarət nümayəndələrinin məşqlərini izləyir, məsləhətlər verirdi.

O da bizi Əlövsət bəy kimi nəzakətlə və gülər üzlə qarşıladı, görüşüb əyləşdik. Hacəttəpə Universitetinin elmi heyəti, müəllimlər, tələbələr və qonaqlar ardıcıl şəkildə gəlib zalı doldurdular. Tədbir deyilən vaxtda başladı, başlayan kimi də Hamlet bəy Hacəttəpə Universitetinin rektorundan icazə alaraq səhnənin sol küncünə qoyulan stolda əyləşib tədbiri idarə etməyə başladı. Hansı mahnı və ya rəqs ifa olunacaqsa, onları kim ifa edəcəksə, qonaqlara onlarla bağlı ətraflı məlumatlar təqdim etdi.

Tədbirin axırında rəqs qrupunun Türkiyə və Azərbaycan bayraqlarıyla səhnəyə daxil olması isə qeyri-adi mənzərə idi. Şükür sənə Tanrı, artıq qardaş bayraqlarımız elm ocaqlarımızın səhnələrində və hər iki vətəni, dövləti sevənlərin ürəklə-

rində yanaşı dalğalanır.

Hacəttəpə Universiteti Türkiyənin say-seçmə elm yuvalarından biridir və dünya miqyasında tanınıb. Xəzər Universitetinin Hacəttəpə Universiteti ilə bu cür bir əlaqə yaratması Xəzərin gücündən və sayğınlığından xəbər verirdi. Hamlet bəy, hələ tədbir başlamamış, Xəzər Universiteti barədə məlumat verdi və dünyanın hansı universitetləri ilə əlaqədə olduqlarını sadaladı.

Bu gün Xəzər Universiteti bütün dünyada tanınır və adı hörmətlə yad edilir, bundan şəxsən xəbərdaram. Bir universitetin İngiltərədə, Fransada ya Amerikada tanınması asan iş deyil. Azərbaycan kimi Qafqaz regionunda yerləşən bu gənc və balaca ölkənin hər hansı elm yuvasının dünya miqyasında tanınmasına adi gözlə baxmaq, məncə, insafsızlıq olardı. Aldığım məlumata görə, Xəzər Universitetinin bu gün dünyada 250-yə yaxın tərəfdaşları var.

Dünyanın say-seçmə elm yuvalarında dərs deyən alimlərin gedib Xəzər Universitetində dərs deməsi, o universitetlərlə tələbə mübadiləsi aparılması onu göstərir ki, Hamlet İsaxanlı və heyəti Xəzərin sahilində o adla Azərbaycana yaraşan sanballı bir elm ocağı yaradıblar. 1990-cı ildə təlim-tədris işinə 20 tələbə ilə başlayasan və yaranan gündən təlim-tədrisi ingilis dilində aparasan, universitetdə keyfiyyətli kadrlar hazırlayasan...

Görülən bu iş böyük yox, böyükdən də böyükdür. Bunu alqışlamaq isə mənə görə hər bir türkün boyun borcudur.

Digər tərəfdən, Hacəttəpə Universitetində həyata keçirilən həmin tədbir, bu elm ocağının sadəcə olaraq təhsillə maraqlanmadığını, Azərbaycanın Fidan Hacıyeva və Zülfiyyə Sadıqova kimi sənətkarlarının orda dərs deyib kadrlar hazırlaması buranın həm də bir mədəniyyət ocağı olduğunu sübut edir. Türk dünyasının görkəmli şəxsiyyəti Atatürk, "Sənəti olmayan millətin həyat damarlarından biri kəsilib deməkdir" sözünü əbəs yerə deməyib. Hamlet bəy və heyətinin Xəzər Universitetini həm elm, həm də sənət ocağına çevirməsi onların vətən və millət yolunda nə böyük fikirlər daşıdığını sübut edir.

Əzizlərimiz Hamlet bəy, Əlövsət bəy, yolunuz uğurlu-nurlu və işiniz avand olsun.

Azərbaycan Türk dünyasının həddən artıq önəmli strateji məkanında yerləşib. Azərbaycanın atdığı hər addım, istər müsbət olsun, istər mənfi, birbaşa Türk dünyasına təsir edir, ona görə də Azərbaycanın qazandığı uğurlar yalnızca özünün deyil, bütövlükdə Türk dünyasınındır, şəxsən mən hadisəni bu cür qiymətləndirirəm.

Yaddan çıxarılmamalıdır ki, Sovetlər Birliyi dövründə krımlı, tatarıstanlı, özbəkistanlı, türkmənistanlı və digər Türk xalqlarına mənsub türkçü alimlərin cəllad Stalinin tuthatut siyasətində gözdən yayınmaq və Türkçülük uğrundakı mübarizələrini yeritmək üçün Azərbaycana üz tutmaları təsadüfi bir hadisə deyildi, çünki bura özək idi, mərkəz idi.

Sözün burasında böyük əziyyətlər çəkərək, arxiv materiallarına müraciət edərək 30 il idarə etdiyim Türkiyənin Səsi Radiosu Azərbaycan Türkcəsi Verilişləri Redaksiyası üçün "Türk Dünyasının Məşhurları" adlı sənədli-silsilə proqramlar yazan əziz qardaşım Əli Şamil bu mövzuda çox gözəl tərcümeyi-hallar hazırladı və radioda onları iki ildən çox zamanda təqdim etdik.

Həmin proqramlarda Sovetlər Birliyi dövründə KQB-nin öz millətini və vətənini sevməkdən özgə heç bir günahı olmayan alimlərə, ziyalılara nə cür divan tutduğu dilə gətirilirdi. İnşallah Əli Şamil bəy onları bir kitab şəklində çap etdirər və gələcək nəsillər bizim ulu şəxsiyyətlərimizə kimlərin nələri rəva gördüyünü başa düşər, gələcəyə sarı addımlarını da ona görə atar.

Xəzər Universiteti kimi bir elm ocağı, o ocağı yaradanlar və davam etdirənlər olduqca, Türk dünyasına neçə-neçə Əli bəy Hüseynzadələr, Hüseyn Cavidlər, Üzeyir Hacıbəylilər, Fikrət Əmirovlar, Qara Qarayevlər və digərləri ardıcıl şəkildə yetişəcək. Azərbaycan adlı müqəddəs vətən günü-gündən işıqlanacaq, nurlanacaqdı.

Yolun açıq olsun, qardaş diyarımız!

***"Ədalət" qəzeti***
***29. 11. 2014***

## XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏLƏRİNİN ANKARA GÖRÜŞLƏRİ

Xəzər Universitetinin nümayəndələri-təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs və Texnopark direktoru Özdən Doyuran noyabrın 24-25-də Ankarada fəaliyyət göstərən "MITEK" şirkətlər qrupunun prezidenti Cenk Polatın dəvəti ilə Ankarada bir sıra görüşlər keçirdilər. Onlar Hidropol mühəndislik (Hidropol Engineering), "Ançağsan Hidrolik Silindir" mühəndislik makina sənaye şirkəti, "ERER" şirkəti, "Billur" makina şirkəti, "Eptim" elektrik inşaat şirkəti, Türkiye Cümhuriyyetinin Enerji ve Təbii Ehtiyatlar Nazirliyinin Türkiye elektromekanik sanayi ("TEMSAN") , "Geo Sondaj" makine imalat şirkəti və digər şirkətlərlə Xəzər Universiteti arasında mümkün ola biləcək işbirliyi ideyalarını müzakirə etdilər.

## MITEK, ATILIM UNİVERSİTETİ VƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA İŞBİRLİYİ

Noyabrın 25-də Xəzər Universitetinin nümayəndələri Ankarada Atılım Universitetinin nümayəndələri ilə görüşdülər. Əməkdaşlıq ideyaları müzakirə edildi. Universitet-sənaye münasibətləri, texnoparkların inkişafı, MITEK şirkətlər qrupu (Ankara), Atılım Universiteti və Xəzər Universiteti üçlüyü arasındakı işbirliyi məsələlərinə xüsusi diqqət yetirildi.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs, Texnopark direktoru Özdən Doyuran, "MITEK" şirkətlər qrupunun prezidenti Cenk Polat, Atılım Universitetinin rektoru professor Abdurrahim Ozgenoğlu, prorektor Dr. İsmail Bircan, Atılım Universiteti ARGEDA-TTO meneceri Dr. Alper Ünler, Dr. Omer Music (Executive Board member) və digər şəxslər iştirak etdilər.

Sonra nümayəndə heyəti Atılım Universitetində "Metal Şekillendirme Mükemmeliyat Merkezini (Metal Forming Center of Excellence) gəzdilər, cari layihələr və fəaliyyətdə olan laboratoriya ilə tanış oldular.

## HƏMKARLAR TƏŞKİLATININ ÜZVLƏRİNƏ MADDİ YARDIM GÖSTƏRİLMİŞDİR

Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Nizami Rayon Təşkilatı tərəfindən, hər il olduğu kimi, bu il də Xəzər Universiteti həmkarlar təşkilatının bir neçə üzvünə maddi yardım göstərilmişdir.

## TƏLƏBƏMİZ ATB İDARƏ HEYƏTİNİN İCLASINDA

Dekabrın 1-5-də Bakıda Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Avropa Tələbələr Birliyi (ATB) İdarə Heyətinin 67-ci iclası və insan hüquqları ilə bağlı seminar keçirilmişdir. ATB-də Azərbaycanı 2011-ci ildən etibarən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) təmsil edir. Tədbirdə ATB-yə üzv olan 30-dan çox ölkədən 120-yə yaxın tələbə iştirak etmişdir.

İclasda Avropa tələbələrini narahat edən mövzular müzakirə edilmiş və ATB-nin gələcək fəaliyyəti ilə bağlı qərarlar qəbul olunmuşdur.

Tələbəmiz – Humanitar və sosial elmlər fakültəsinin üçüncü kurs tələbəsi Pərvin Rəhimli tədbirdə Təşkilat komitəsinin üzvü və əsas məsul şəxslərdən biri kimi fəal iştirak etmişdir. Tələbəmizə ictimai işlərində yeni uğurlar arzulayırıq.

## ANKARADA XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏ HEYƏTİNİN İŞTİRAKI İLƏ KONFRANS KEÇİRİLDİ

Noyabrın 25-də Hoilday İnn Çukurambar Hotelində (Çankaya/Ankara) Xəzər Universitetinin nümayəndə heyəti, MITEK şirkətlər qrupu, Halkbank, Atılım Universiteti və digər akademik, sənaye və iş dünyası insanlarının iştirakı ilə konfrans keçirildı. Konfransda Azərbaycanda Xəzər Universiteti və MITEK şirkətlər qrupunun birgə fəaliyyəti ilə qurulması planlaşdırılan tətbiqi texnopark və sənaye bölgəsi məsələləri müzakirə edildi.

Konfransda MITEK şirkətlər qrupunun prezidenti Cenk Polat, Atılım Universitetinin prorektoru Dr. İsmail Bircan və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış etdilər.

## MÜƏLLİMİMİZ "TÜRK KÜLTÜR KONSEYİ"NİN İLK TOPLANTISINDA

Xəzər Universiteti tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri üzrə fəlsəfə doktoru Dilavər Əzimli noyabrın 27-30-da Türkiyənin Əskişəhər şəhərində keçirilmiş "Türk Kültür Konseyi"nin ilk toplantısında iştirak etmişdir. Konsey bu il iyunun 26-30-da Əskişəhərdə keçirimiş "Dünya uyğarlığı içərisində Türk uyğarlığı" qurultayında təsis olunmuşdu. Konseydə bütün Türk dünyasından nümayəndələr təmsil olunur.

Toplantıda iki qrup təşkil olunub: Dil və ədəbiyyat qrupu; tarix qrupu. Qərara alınmışdır ki, Dil və ədəbiyyat qrupu ilkin olaraq Türk dünyasında işlənən eyni atalar sözlərindən ibarət ensiklopedik bir kitab hazırlasın. Tarix qrupu isə ortaq Türk tarixini yazmaq üçün üç aya öz təklifini hazırlayıb təqdim etsin. Altı ay ərzində Türk Dünyasında ailə, onun tarixi rolu barədə simpozium keçirilməsi haqqında da qərar qəbul edilmişdir. Konseyin növbəti toplantısı üç aydan sonra olacaq.

## PROREKTORUMUZUN "BRİTİSH ROUTLEDGE" NƏŞRİYYATI TƏRƏFİNDƏN ÇAP OLUNMUŞ KİTABDA İŞTİRAKI




Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Fərda Əsədov Fribourg Universitetində Cənubi Qafqazda din və dövlətçilik üzrə keçirilmiş beynəlxalq konfransda iştirak etmişdir. Konfransda, həmçinin, "British Routledge" nəşriyyatı tərəfindən nəşr olunan "Cənubi Qafqazda din, millət və demokratiya" kitabının təqdimatı keçirilmişdir. Kitabda Cənubi Qafqazın (Azərbaycan, Gürcüstan və Ermənistan) üç əsas cəmiyyətindəki inkişafı, xüsusilə dini, tarixi ənənələri, milli şüur, siyasi mədəniyyət və bu amillərin qarşılıqlı təsirini araşdırır. F. Əsədov kitabın "Təhsil və millət" fəslinin akademik redaktoru və həmin fəslin giriş hissəsinin müəllifidir.

## ƏMƏKDAŞIMIZIN "AYDIN YOL" QƏZETİNDƏ MÜSAHİBƏSİ DƏRC OLUNUB

YOL

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin orqanı olan "Aydın yol" qəzetinin 21 noyabr 2014-cü il tarixli nömrəsində Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin Baş proqram koordinatoru Cəmalə Məmmədovanın müsahibəsi dərc olunmuşdur.

C. Məmmədova müsahibəsində departamentdə tərcümə ixtisası üzrə təhsil alan tələbələrin ümümi sayı, dərslərin hansı üsulla keçirildiyi, ingilis dili ilə yanaşı universitetdə ərəb, fars, alman və s. dillərin də ikinci dil kimi tədris olunduğu barədə ətraflı məlumat vermişdir. Müsahibəni qəzetin müxbiri Leyla Əliyeva qələmə almışdır. *(Müsahibə jurnalın 26-cı səhifəsində dərc olunur).*

## XƏZƏR UNİVERSİTETİNDƏ XARİCİ DİLİN TƏDRİSİ



İngilis dili və ədəbiyyatı departamentinin qapısı döyülür, iki tələbə içəri daxil olub həmsöhbətimdən nəsə soruşur. Söhbətin gedişindən, tələbələrin həyəcanından başa düşmək olur ki, imtahan indicə başa çatıb, onlar da cavablarla bağlı narahatlıqlarını bölüşməyə gəliblər. Müəllim ilə tələbələr arasında ünsiyyət ingilis dilində aparılır.

Onları diqqətlə dinlədiyimi görən tələbələrdən biri marağımın səbəbini başa düşür və "İt's Khazar. You are welcome!" ("Bura "Xəzər"dir. Xoş gəlmisiniz!") deyir.

Professor Hamlet İsaxanlının 1991-ci ildə təsis etdiyi Xəzər Universiteti (sənədlərdə adı "Xəzər Universitəsi"dir) Azərbaycanda rəsmi fəaliyyətə başlamış ilk özəl, həm də ilk ingilisdilli ali məktəbdir.

Universitetdə 2000-ə yaxın yerli və xarici tələbə təhsil alır. Professor-müəllim heyətinin təxminən 10 faizi bu ali məktəbin öz məzunlarıdır. Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Buna görə də hansı fakültəni seçməsindən, hansı ixtisasa yiyələnməsindən asılı olmayaraq, bütün tələbələr ilk iki il - dörd semestr icbari qaydada ingilis dili öyrənir, yəni "English foundation" kursları keçirlər. İki illik baza təhsili alandan sonra öz ixtisaslarına uyğun davam edirlər. Növbəti iki ildə onlar yenə də ingilis dilində, amma öz sahələri üzrə ixtisaslaşırlar.

Fakültələrdə də ikinci dil seçimi aparılır. Məsələn, siyasi elmlər fakültəsində ingilis dilində təhsil alan tələbə ikinci dil kimi alman, neft-qaz mühəndisi ixtisasına yiyələnən tələbə isə Koreya dilini öyrənir.

İngilis dili və ədəbiyyatı departamentində ingilis dili ixtisası üzrə 170 tələbə təhsil alır. Kafedrada "İngilis dili-dilçilik", "İngilis dili-tərcümə", "İngilis dili və ədəbiyyatı", "İngilis dili müəllimliyi" ixtisasları üzrə tərcüməçi mütəxəssislər hazırlanır.

"İngilis dili və ədəbiyyatı", "İngilis dili müəllimliyi" ixtisasını bitirənlər daha çox müəllim, dilçilik ixtisası üzrə təhsil alanlar dilçi və müəllim, tərcümə ixtisasına yiyələnənlər isə həm şifahi, həm də yazılı tərcüməçi kimi ixtisaslaşırlar.

Bundan əlavə İngilis dili və Ədəbiyyatı departamenti demək olar ki bütün departamentlərlə çalışır. İxtisasından asılı olmayaraq bütün tələbələr 2 il ingilis dili departamentində ingilis dili üzrə tədris alırlar. Məhz bu səbəbdən ingilis dili departamenti Xəzər Universitetində ən böyük departamentdir.

Kafedrada 54 müəllim çalışır. Onlardan yalnız üçü yaşlı nəslin nümayəndəsidir. Gənc müəllimlərdən Əzizə Zülfüqarova və Pərvin Kərimova isə universitetin məzunlarıdır.

*Əsas ixtisaslar üzrə koordinator Cəmalə Məmmədovanın* sözlərinə görə, başlıca çətinlik az bal toplayan və ingilis dili bazası zəif olan tələbələrlə bağlıdır. Qafqaz Universitetində tələbələr birillik hazırlıq kursu keçir, bir ildən sonra birinci kursa qədəm qoyurlar. Xəzər Universitetində isə hazırlıq prosesi birinci kursdan başlanır.

"Xarici universitetlərdə tələbə məktəbdən hazırlıqlı gəlir və ixtisas üzrə təhsil almağa başlayır. Biz isə ilk iki ildə tələbəni ixtisas fənninə hazırlamalıyıq. Tələbəni əlavə fənlərlə yükləyə bilmirik, çalışırıq ki, ixtisas fənni üzrə kreditləri ödəyə bilsin", - Cəmalə xanım deyir.

İngilis dili və ədəbiyyatı fakültəsində təhsil alan tələbələrə ikinci dil kimi ərəb və fars dilləri keçilir. Həmin dillərin tədrisi ikinci kursdan başlayıb iki semestr davam edir. Tələbələr kifayət qədər Şərq dillərini də başlanğıc səviyyədə öyrənirlər.

Öz nəşriyyatı olan Xəzər Universitetində "Xəzər xəbər", "Xəzər humanitar və sosial elmlər", "Azərbaycan arxeologiyası" kimi jurnallar dərc olunur, dünyanın nüfuzlu universitetlərində çalışan mütəxəssislərin yazıları və elmi araşdırmaları bu jurnallarda çap olunur.

İngilis dili və ədəbiyyatı fakültəsində isə ayda bir dəfə "Xəzər kuryer" tələbə qəzeti nəşr olunur. Qəzetdə bədii tərcümələr üstünlük təşkil edir.

Nəşrin işində iştirak könüllü, mövzu seçimi isə sərbəstdir. Qəzetin baş redaktoru Cəmalə Məmmədova mövzu seçməkdə çətinlik çəkən tələbələrə kömək etdiklərini, məsləhət gördükləri müəllif və əsərlərin adlarını elan lövhəsinə vurduqlarını deyir. Tərcümələr redaktə olunur və ciddi "senzura"dan keçir. Qəzet bədii tərcümə sahəsinə meyl edən tələbələr üçün böyük motivasiyadır.

Tərcümə ixtisasının tələbələrinə elə birinci kursdan departamentin baş müəlimi Firəngiz Nəsirova dərs deyir. Bəzən bir, bəzən isə iki il bədii tərcüməni lazımi səviyyədə öyrənəndən sonra 3-cü tədris ilində ixtisas kurslarına başlayırlar. "Poetik tərcümələr" kitabının müəllifi olan Firəngiz xanım bu sahədə qazandığı təcrübə və bilikləri tələbələrə ötürür.

Xəzər Universitetində tərcüməçilər üçün təcrübə

olduqca vacibdir. Məhz bu məqsədlə hazırda ali məktəb bu istiqamətdə bəzi beynəlxalq təşkilat və qurumlarla danışıqlar aparır. Cəmalə Məmmədova Tərcümə Mərkəzinin də bu işdə onlara dəstək olacağına inandığını vurğulayır.

Özünün beynəlxalq əlaqələri və beynəlxalq təcrübənin öyrənilməsi baxımından problem yaşamayan Xəzər Universiteti beynəlxalq səviyyəli "Erasmus Mundus" proqramına qoşulmuş azsaylı təhsil ocaqlarımızdandır. Hər il universitet proqrama qoşulmaq barədə elan verir, bir semestr ərzində seçilən tələbələr İtaliya, İspaniya, Polşa, Belçika, Türkiyə kimi Avropa ölkələrində təhsil alırlar.

Bir semestr təhsil alıb qayıdan tələbələr də var, müəllimlərin yazdığı tövsiyə məktubu əsasında magistr, doktorant dərəcəsinə çatanlar da. "Erasmus Mundus"dan nəinki tələbələr, hətta müəllimlər də yararlanır, iki ay ərzində Avropa universitetlərində dərs deyir, elmi dərəcələr alırlar.

Cəmalə Məmmədovanın sözlərinə görə, Xəzər Universitetinin digər üstünlüyü ondadır ki, dördüncü kursu bitirmiş tələbə B1, B2 dil səviyyəsinə uyğun gəlir. Əgər tələbənin digər fənlər üzrə qiymət göstəriciləri də istənilən səviyyədədirsə, o, proqramda asanlıqla iştirak edə bilir. Üçüncü kursda oxuyan tələbələr "Erasmus Mundus"a qoşulmaq istəyəndə fakültənin keçirdiyi bir saatlıq imtahanda iştirak edir, lazımi dil tələbnaməsini alandan sonra təhsili başa vurmamış proqramın iştirakçısı olurlar.

Tərcümə fakültəsində oxuyan tələbələrin kənar fənlərlə yüklənməsi məsələsi tez-tez gündəmə gəlir. Bu yaxınlarda Azərbaycan Gənc Tərcüməçilər Assosiasiyasının keçirdiyi II Milli Tərcümə Forumunda da Xəzər Universiteti müzakirələrdə fəal iştirak etmişdi. Koordinator vurğulayır ki, bu ali məktəbdə tədris proqramı Amerika təhsil sisteminə uyğun, amma Təhsil Nazirliyinin verdiyi tələbnamələr əsasında hazırlanır. Məsələn, nazirliyin təqdim etdiyi "Ölkəşünaslıq və mədəniyyətlərarası ünsiyyət" fənni Xəzər Universitetində "British or American studies" (Britaniya və ya Amerika elmləri) kimi tədris olunur. Çünki tərcümə ilə yanaşı, tələbə öyrəndiyi dilin coğrafiyasını, tarixini, adət-ənənəsini də mükəmməl bilməlidir.

Avropa universitetlərində keçilən "Tətbiqi dilçilik" fənni bu ildən Azərbaycanda ilk dəfə Xəzər Universitetində tədris olunur. Magistr pilləsində keçilən fənnin dərslikləri də Avropa və Amerikadan gətirilir.

Təhsil fakültəsində İngilis dili və Ədəbiyyatı tərəfindən son kursda tədris olunan "İkinci dilin öyrənilməsi" fənni də ilklərdən sayıla bilər. Fənnin mahiyyəti ikinci dili ana dilindən, ana dilini xarici dildən fərqləndirən cəhətlərin araşdırılmasıdır.

*Leyla Əliyeva,*
*"Aydın yol" qəzeti*
*21.11.2014*



*Redaksiyaya məktub*

## "XƏZƏR"DƏ "AÇIQ QAPI " GÜNÜ

Noyabrın 29-da Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsində birinci kursda oxuyan tələbələr və onların valideynləri üçün "Açıq qapı" günü keçirildi. Tədbirdə fakültənin dekanı İnqilab Əhmədov, onun müavini Fuad Rəsulov, ingilis dili müəllimi Səadət Fərhadova və Nanə Kələntərli çıxış edib, Xəzər Universitetində nizam-intizam, imtahanların keçirilməsi, kreditlərin sayı və onların necə əldə olunması qaydaları və universitetdən məzun olan tələbələrin perspektivləri haqqında geniş məlumat verdilər.

Biz valideynlər hiss etdik ki, müəllimlər tələbələrin gələcəkdə hər hansı bir sahədə uğur qazanmaları üçün əllərindən gələn hər şeyi edirlər, öz bilik və təcrübələrini onlarla bölüşürlər. Bunun üçün universitetdə hər cür şərait yaradılmışdır. Eləcə də, tələbələrin xeyriyyə işlərinə qatılması və kimsəsiz uşaqlara yardım göstərmələri bizi heyran etdi. Bizcə, tələbələrin xeyriyyə işlərində iştirak etmələri onlarda başqalarına qarşı diqqət və qayğı hissləri oyada bilər.

*İqtisadiyyat və menecment fakültəsinin birinci kurs tələbələri Leyla Mahmudova və Alina Sidnevanın valideynləri - İradə Mahmudova, Qalina Sidneva*

## ƏMƏKDAŞIMIZ BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Kitabxana-informasiya mərkəznin (KİM) direktoru Gülşən Mehdiyeva dekabrın 1-də Bakıdakı "Four Seasons" otelində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin təşkilatçılığı ilə keçirilmiş "Görmə qüsurlu şəxslərin dərc olunmuş əsərlərə əlçatımlığının müəllif-hüquq problemləri" adlı beynəlxalq konfransda iştirak etmişdir. Konfransda Mərakeş Müqaviləsinin təhlili, istinadlar, məhdudiyətlər və milli müəllif-hüquq qanunveriçiliyi məsələləri müzakirə olunmuşdur. Konfrans çərçivəsində dəyirmi masa müzakirələrində G. Mehdiyeva fəal iştirak etmiş, görmə qüsurlu şəxslərin informasiya ilə təmin olunmasının bərabər hüquqlarının və digər tərəfdən müəllif hüquqlarının pozulmaması üçün Müəllif Hüquqları Agentliyi tərəfindən kitabxanalar üçün xüsusi təlimatların hazırlanması təklifini irəli sürmüşdür.

# UNİVERSİTET XƏBƏRLƏRİ

## RUSCA - TÜRKÇƏ RİYAZİYYAT LÜĞƏTİ ÇAP OLUNMUŞDUR




Dekabr ayında Bakıda “OL” MMC tərəfindən “Rusça-türkçe matematik sözlük” kitabı çapdan çıxmışdır. Kitabin müəllifi Gülnarə Cəfərlidir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı kitabın baş redaktoru və elmi məsləhətçisi, həmçinin 3 dildə (Azərbaycan, rus, türk) verilmiş ön sözün müəllifidir.

Lüğətdə riyaziyyat və qonşu elmlərə, ən çox işlənən kompüter və informasiya – kommunikasiya texnologiyalarına aid om minə yaxın söz, həmçinin onların əksəriyyətinə izah, misal, sinonim və antonimlər verilmişdir.

## ANKARA SƏFƏRİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ TƏQDİMAT

Dekabrın 4-də “Mərmər salon”da Xəzər Universiteti nümayəndə heyətinin Ankara səfərinin yekunlarına həsr olunmuş təqdimat mərasimi keçirildi. Mərasimi giriş sözü ilə Ankara səfərinin təşkilatçısı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli açaraq, noyabrın 17-22- də Türkiyə Respublikasına səfər haqqında məlumat verdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyə səfərinin yekunlarından, oradakı konsert proqramlarının rəngarəngliyindən, müəllimlərin, solistlərin və tələbələrin yüksək ustalıqlarından danışdı, kollektivin bütün üzvlərinə, o cümlədən Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovaya, universitetin müəllimləri – əməkdar artist Fidan Hacıyeva, Səbinə İsmayılova və Telman Əliyevə, vokalçılar – Elvin Əliyev, Musa Abdullayev, Ülviyyə Əzizova və Nərmin Əliyevaya, kamera orkestrinin və rəqs qruplarının üzvlərinə dərin təşəkkürünü bildirdi.

Universitetin rəqs müəllimi Səbinə İsmayılova və qızlardan ibarət rəqs qrupunun üzvləri H.İsaxanlıya həsr etdikləri “Atam” musiqi kompozisiyasını, kollektivin təşəkkürü olaraq nümayiş etdirdilər.

Fidan Hacıyeva bir universitetin kollektivi ilə xarici ölkəyə ilk dəfə səfər etdiyini bildirdi və bu qədər möhtəşəm konsert olacağını gözləmədiyini dilə gətirdi.

Zülfiyə Sadıqova, tələbələr çıxış edərək, Ankara səfərinə görə H. İsaxanlıya və Ə. Əmirbəyliyə təşəkkürlərini bildirdilər və onlara hədiyyə təqdim etdilər.

## “TƏHSİLDƏ MƏNƏVİ - ƏXLAQİ DƏYƏRLƏR: HARMONİK ŞƏXSİYYƏTİN İNKİŞAFI” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANSDA

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Problemləri və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının birgə təşkillatçılığı ilə dekabrın 5-də Bakıdakı “Avropa” otelində “Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı” mövzusunda beynəlxalq elmi konfrans keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı konfransın açılış toplantısında çıxış edərək, xarakterin formalaşması məsələsinin tarix boyu təhsil və təlimdə tutduğu yer, “əxlaqın saflaşdırılması” ideyası haqqında danışdı, utanmaq hissi və məsuliyyət, əxlaq və qrup kimliyi, azadlıq və əxlaq mövzularına toxundu.

Xəzər Universiteti nəzdində fəaliyyət göstərən “Dünya” məktəbinin fəlsəfəsi haqqında məlumat verdi. İndiki məktəb və ali məktəblərə qəbul siyasətində “qiymət davası”, şagird və tələbələrdə yarış qabiliyyətinin aşağı olması səbəblərinə toxundu. Müəllimin şagirdə bilmək və kəşf etmək ehtirasını aşılaması, şagird şəxsiyyətinə hörmət, şagirdə həqiqəti anlamaq və bu yolla doğru qərar qəbul etmək kimi məsələlərdən bəhs etdi.

# FİLMLƏRİMİZİN UĞURU

## "NABAT" BƏDİİ FİLMİ BEYNƏLXALQ FİLM FESTİVALINDA ÜÇ MÜKAFATA LAYİQ GÖRÜLÜB

*Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan "Nabat" bədii filmi noyabrın 19-da başa çatmış 63-cü Mannheym-Heydelberq Beynəlxalq film festivalında (International Filmfestival Mannheim-Heidelberg) üç mükafata layiq görülüb*



"Azərbaycanfilm" kinostudiyasından AzərTAc-a bildirilib ki, müsabiqənin müstəqil beynəlxalq münsiflər heyətinin rəyinə əsasən filmimizə insan əzmliliyinin hekayəsini təsirli və ümumdünyəvi şəkildə əks etdirən ən yaxşı ekran əsəri kimi Mannheym-Heydelberq Beynəlxalq film festivalının "Mannheym-Heydelberq mükafatı" (Mannheim-Heidelberg Award) verilib. Bu festivalın üç əsas mükafatından biridir.

"Nabat" bədii filmi həmçinin festivalın nüfuzlu "Beynəlxalq kinotənqidçilər mükafatı"na (International Film Critics' Prize) layiq görülüb. Münsiflər heyətinin rəsmi rəyinə görə bu mükafat rejissorun müharibə zamanı yaşlı qadının sədaqətli, mərhəmətli və təkbaşına müqavimətini xüsusi şəkildə göstərməklə yanaşı, həm də film dilinin təkrarolunmaz üslubundan istifadə etdiyi üçün verilib.

Bu mükafatlarla yanaşı, filmimizə Fransa, Almaniya, İsveç və Avstriyadan olan münsiflər heyətinin rəyinə əsasən "Ecumenical Jury Award"a təqim olunub.

Mükafatların təqdimolunma mərasimində filmin rejissoru və ssenari müəllifi Elçin Musaoğlu iştirak edib.

Qeyd edək ki, 2014-ci ildə istehsal olunan "Nabat" filminin ssenari müəllifləri Elxan Nəbiyev və Elçin Musaoğlu, quruluşçu rejissoru Elçin Musaoğlu, quruluşçu operatoru Əbdülrəhim Bəşərat, quruluşçu rəssamı Şahin Həsənli, prodüseri Müşfiq Hətəmovdur.

Ekran əsərində baş rolları Fatimə Motamed Arya, Vidadi Əliyev, Sabir Məmmədov, Fərhad İsrafilov və digərləri canlandırıblar.

## AZƏRBAYCANIN "SONUNCU" FİLMİ İZMİR BEYNƏLXALQ KİNOFESTİVALININ QALİBİ OLDU

*Türkiyənin İzmir şəhərində keçirilən XV Beynəlxalq qısamerajlı film festivalında "Buta Films" şirkətinin və "Azərbaycanfilm" Kinostudiyasının birgə istehsalı olan "Sonuncu" filmi "Ən yaxşı xarici film" nominasiyasında birinci yerə layiq görülüb*



"Sonuncu" filminə festivalın "Qızıl pişik" mükafatı təqdim olunub. Mükafat Buta İncəsənət Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə direktoru Fuad Hətəmova verilib. O, AzərTAc-a bildirib ki, festivalın münsiflər heyəti Türkiyənin məşhur rejissoru Tunç Başar başda olmaqla tanınmış yerli və xarici kino peşəkarlarından ibarət idi. Builki festivala 63 ölkədən 1100 qısametrajlı filmin qatıldığını söyləyən F.Hətəmov bildirib ki, bu ekran əsərlərindən yalnız 10-u final mərhələsinə keçib.

Qeyd edək ki, İkinci Dünya müharibəsinin dünyada sağ qalmış sonuncu veteranı haqqındakı 15 dəqiqəlik filmin çəkilişləri Bakının 120 kilometrliyində yerləşən Sura kəndində aparılıb. Filmin rejissoru Serqey Pikalov, operatoru Denis Madışevdir. Veteran rolunu aktyor İdris Rüstəmov, gənc qonşu rolunu isə aktyor Corc Qafarov oynayıblar.

## POLAD BÜLBÜLOĞLU YENİDƏN DHAF SƏDRİ SEÇİLDİ



*Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu MDB-nin iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHAF) İdarə heyətinin noyabrın 22-də keçirilmiş iclasında yekdilliklə 2010-cu ildən tutduğu DHAF İdarə heyətinin sədri vəzifəsinə yenidən seçilib*

Bununla əlaqədar, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Polad Bülbüloğluna təbrik məktubu göndərib. S.Lavrov məktubda əmin olduğunu bildirib ki, Polad Bülbüloğlunun rəhbərliyi ilə DHAF MDB çərçivəsində ümumi humanitar məkanın və mədəniyyətlərarası dialoqun inkişafına yönələn mühüm və iri mədəni layihələrin həyata keçirilməsini davam etdirəcək.

## İRAN REJİSSORU AZƏRBAYCANLILAR HAQQINDA FİLM ÇƏKİR

*İran və Türkiyənin müştərək layihəsi əsasında azərbaycanlıların Birinci Dünya müharibəsi dövründə yaşayışını əks etdirən serial çəkiləcək*

Qəhrəmanının adı ilə "Ayatay" adlandırılacaq serialın istehsalına 2015-ci ilin martında başlanacaq. Serialın rejissoru və ssenari müəllifi iranlı kinorejissor Hüseyn Pursəttar, prodüseri Cəlil Əsgəridir.

Türkiyənin "Asli İslamoğlu" film şirkəti ilə birgə istehsal olunacaq serial İranın Şərqi Azərbaycan vilayətinin Təbriz, Vərzəqan, Əhər şəhərlərində və Tehranda çəkiləcək. Türkiyədə isə çəkilişlər İstanbul, Ankara və Ərzurum şəhərlərində aparılacaq.

Filmin bəzi hissələrinin Azərbaycanda çəkilməsi də nəzərdə tutulub.

Serialda Türkiyə və İranın tanınmış aktyorları rol alacaqlar. Ekran əsəri Türkiyənin "SHOWTV" və İranın "Nomayesh" kanalında yayımlanacaq.

## YAZIÇIMIZ İNTERPOLUN FƏXRİ SƏFİRİ OLDU

*Azərbaycanın məşhur detektiv janrda yazan yazıçısı Çingiz Abdullayev İnterpolun fəxri səfiri oldu*

Bu barədə məktub Monakodan Azərbaycan daxili işlər naziri adına gəlib; məktub İnterpolun rəhbəri adından daxil olub.

Qeyd edək ki, Azərbaycanın Xalq yazıçısı Çingiz Abdullayev 1989-cu ildən Azərbaycan SSR Yazıçılar İttifaqının, 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Hüquq elmləri doktoru olan yazıçı 2009-cu il aprel ayının 7-də Azərbaycanın ədəbi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif edilib. Ümumi tirajı 27 milyon nüsxə olan 600-dən çox kitabı dünyada yayılıb. Çingiz Abdullayev 193 adda kitabın müəllifidir.



## KƏLAĞAYİ UNESCO-NUN QEYRİ - MADDİ MƏDƏNİ İRS SİYAHISINDA

*Noyabrın 26-da Azərbaycan Kəlağayısı "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib*

Qeyd edək ki, hazırda Kəlağayıdan başqa Muğam ifaçılıq sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır.

## QARSİYA MARKES ADINA MÜKAFATIN İLK LAUREATI

*Ədəbiyyat üzrə Qarsiya Markes adına mükafatın ilk laureatı Argentina yazıçısı Giermo Martines oldu*



Mükafatın təqdimatı noyabrın 22-də Kolumbiyanın paytaxtındakı "Kolon" teatrında keçirilib. Mərasimdə iştirak edən Kolumbiya prezidenti Xuan Manuel Santos tədbirin əhəmiyyətini qeyd edərək onun öz dövrünün ən böyük yazıçısına layiq olduğunu bildirib.

Giermo Martines bu mükafata "İyrənc xoşbəxtlik" adlı hekayələr toplusuna görə layiq görülüb.

Mükafata 2013-cü ildə ispandilli ölkələrdə dərc olunmuş 120-dən çox əsər təqdim edilib. Finalda Giermo Martineslə yanaşı, argentinalı Karolina Bruk, meksikalı Ektor Manxares, ispaniyalı Oskar Sipan və cilili Alexandro Sambra mübarizə aparıblar.

## MƏŞHUR ƏDİBİN ARXİVİ ABŞ UNİVERSİTETİNƏ SATILIB

*Ədəbiyyat üzrə Nobel mükafatı laureatı, məşhur "Yüz il tənhalıqda" romanının müəllifi Qabriel Qarsiya Markesin arxivi Texas ştatının Ostindəki universitetinə satılıb*

Kolumbiyanın mədəniyyət naziri Mariya Qarses bu sövdələşmə ilə bağlı təəssüfünü bildirərək, onu ölkə üçün böyük itki adlandırıb. Eyni zamanda, arxivi ABŞ universitetinə satılan yazıçının yaxınları Kolumbiya hökumətinin Markesin ədəbi irsi barədə onlara ümumiyyətlə müraciət etmədiyini deyiblər.

Universitetin Harri Renson adına araşdırma mərkəzinin nümayəndəsi arxivin görkəmli yazıçının yarım əsirlik yaradıcılıq fəaliyyətini əks etdirdiyini bildirib.

Bu kolleksiya yazıçının "Yüz il tənhalıqda", "Vəba dövründə məhəbbət" romanları və başqa kitablarının, 2 mindən artıq məktubunun və Nobel mükafatının təqdimetmə mərasimindəki çıxışının əlyazmalarından, həmçinin Markesin yazı makinası və kompüterindən ibarətdir. Arxivə, habelə 40-dan çox fotoalbom da daxildir.

## MESENATDAN LOS-ANCELES İNCƏSƏNƏT MUZEYİNƏ 500 MİLYON DOLLARLIQ HƏDİYYƏ

*Amerikalı mesenat Cerri Perençio Los-Anceles incəsənət muzeyinə (Los Angeles County Museum of Art) impressionistlərin 500 milyon dollar məbləğində qiymətləndirilən 47 sənət əsərini bağışlamaq barədə qərarını açıqlayıb*



Muzey rəhbərliyi bu kolleksiyada Klod Mone, Edqar Deqa, Eduard Mane, Pablo Pikasso və Kamilya Pissarro kimi məşhur sənətkarların əsərlərinin olduğunu bildirib.

AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, 83 yaşlı C.Perençio Los-Ancelesdə 70 il yaşadığını və ailəsinin şəhərə edilən bu hədiyyə görə qürur duyduğunu qeyd edib. Mesenatın vəsiyyətinə əsasən, Los-Ancelesin Bel-Eyr rayonundakı malikanəsində saxlanılan rəsm əsərləri və heykəllərdən ibarət kolleksiya onun ölümündən sonra muzeyə təmənnasız olaraq veriləcək. Bunun üçün C.Perençio rəhbərlik qarşısında muzeyin 2023-cü ilə planlaşdırılan yeni binasının tikintisini başa çatdırmaq tələbini qoyub. Qeyd edək ki, Perençio karyerasına Hollivudda istedadlı aktyorları üzə çıxarmaqla məşğul olan agent kimi başlayıb. Sonradan ABŞ-da ən iri ispan dilli Univision kompaniyasının ortaqlarından biri olub.

Hazırda onun kompaniyadakı 16 faizlik payı 1,3 milyard dollar həcmində qiymətləndirilir.

# SƏHNƏ ÜÇÜN DOĞULDU, SƏNƏT NAMİNƏ YAŞADI...



Sevimli aktyor kimi yaddaşlara əbədi həkk olunmaq hər sənətkara nəsib olası xoşbəxtlik deyil. Elə sənətkarlar var ki, onlar bəlkə də ömürlərində bir və ya bir neçə dəfə yaddaqalan obraz yarada bilirlər.

Lakin haqqında söhbət açmaq istədiyim mərhum sənətkarımız, Azərbaycanın Xalq Artisti Hacıbaba Bağırov isə demək olar ki, yaratdığı bütün obrazlarla yaddaşlara həkk olunmuşdur. Onun teatr tariximizdə danılması heç vaxt mümkün olmayan özünəməxsus zirvəsi vardır. Bu zirvəni o, heç şübhəsiz, öz sənətkar istedadının, ilhamının qüdrəti ilə fəth etmişdir.

Çox maraqlı tərcümeyi-halı ilə seçilən Hacıbaba Bağırovun həyat yolu hamar olmamışdır. Uşaq ikən pionerlər sarayındakı dram dərnəyində çalışmışdır. Görkəmli rejissor Adil İsgəndərov onu "Vaqif"də Vidadi rolunda görəndən sonra teatr studiyasına dəvət etmişdir. Hacıbaba Bağırov görkəmli teatr xadiminin rəhbərliyi altında aktyorluq sənətinin sirlərini öyrənmişdir. Hələ uşaqlıqdan sevib-seçdiyi sənət onun qanına hopmuşdur. Sonra teatr fəaliyyətini Lənkəranda və Gəncədə davam etdirmişdir.

Hacıbaba Bağırov yaradıcılığının Azərbaycan gülüş mədəniyyəti tarixində xüsusi yeri vardır. Sənətkarın repertuarına daxil olan obrazlar komik çalarları sayəsində qısa müddətdə tanınıb sevilməyə başlanmışdır. Onun milli mentalitetə uyğun olaraq yaratdığı və özünəməxsus yumorla oynadığı rollar Azərbaycan Dövlət MusiqiliTeatrının tarixinə həmişəlik daxil olmuşdur.

Doğrudan da Hacıbaba Bağırovun əsl sənətkar kimi formalaşması, tanınması 1962-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrına (indiki Azərbaycan Dövlət Musiqili Teatrı) dəvət aldıqdan sonra başlamışdır. Burada fəaliyyət göstərdiyi 26 il ərzində yaratdığı 50-dən çox surətin onun gülüş ustası kimi püxtələşməsinə və populyarlıq qazanmasına böyük təsiri olmuşdur.

Üzeyir Hacıbəylinin "Arşın mal alan"ında Soltan bəy, "O olmasın, bu olsun"da Məşədi İbad, Zülfüqar Hacıbəyovun "50 yaşında cavan"ında Orduxan, Süleyman Ələsgərovun "Həmişəxanım"ında Cəbi Cüməzadə, "Hardasan, ay subaylıq"da Novruzəli, Əşrəf Abbasovun "Həyatim mənim-həyatım mənim"ində Qulam, Emin Sabitoğlunun "Hicran"ında Mitoş, "Nəğməli Könül"də Fərzəli, Vasif Adıgözəlovun "Nənəmin şahlıq quşu"nda Cəsarət, Soltan Hacıbəyovun "Qızılgül"ündə Nadir, Ağası Məşədibəyovun "Toy kimindir?"ində Uzun, Emin Sabitoğlu, Tamara Vəliyevanın "Bankir adaxlı", "Sizinlə güləgülə", "Bildirçinin bəyliyi", "92 dəqiqə gülüş" trilogiyasında Sonqulu, "Məhəbbət oyunu"nda Nuruş, "On min dollarlıq keyf"də Fərzəli kimi tamaşaçıların



dərin rəğbətini qazanmış rollarla milli mədəniyyətimizin inkişafına xidmət etmişdir.

Hacıbaba Bağırov sənətinin ən xarakterik xüsusiyyətlərindən biri də tamaşaçıda hüsn-rəğbət oyadan incə komik məqamları canlandırdığı obrazlar vasitəsilə açmaq məharəti idi. Dərin milli koloriti ilə səciyyələnən Hacıbaba Bağırov sənəti onu xalqımızın ən sevimli aktyorlarından biri etmişdir. Cəmiyyətin mənəvi saflaşması yolunda çalışan sənətkar çoxşaxəli yaradıcılığı ilə ölkəmizdə komediya janrı ənənələrini layiqincə davam etdirmişdir. Teatr rəhbəri və teleşou təşkilatçısı kimi gördüyü işlər isə onun nadir istedadının yeni mühüm çalarlarını meydana çıxarmışdır.

Aktyor səhnə fəaliyyəti ilə yanaşı, Azərbaycan ki-

nematoqrafiyasının inkişafına da öz sanballı töhfəsini vermişdir. Onun kinofilmlərdə oynadığı müxtəlif



xarakterli rollar Azərbaycan tamaşaçısının yaddaşına həkk olunmuş və kino sənətimizin diqqətəlayiq uğurları kimi qiymətləndirilmişdir.

Hacıbaba Bağırov ilk dəfə 1964-cü ildə rejissor Ağarza Quliyevin "Ulduz" musiqili kinokomediyasında çəkilərək, teatrda olduğu kimi, bu filmdə də Möhsün surətini ustalıqla yaratmışdır. Aktyor müsahibələrinin birində bu rolu barədə belə demişdir: "Möhsün mənim kinoda ilk rolumdur. Səhnədə Möhsünü oynamaq mənim üçün çox asan idi. Ancaq eşidəndə ki, bu operettanı ekranlaşdıracaqlar, çox həyəcanlandım. Əvvəla, mən heç zaman filmə çəkilməmişdim. Olsaydı, ilk rolum olacaqdı. Film ekranlara çıxanda qanadım olsaydı, uçardım. İlk dəfə idi ki, öz oyunuma oturub kənardan baxa biləcəkdim. Doğrudan da, "Ulduz" mənim aktyorluq fəaliyyətimə, aktyor asimanıma əsl ulduz bəxş elədi. Möhsün rolunun uğurunun başlıca səbəbi obrazın mənə yaraşması idi".

Hacıbaba Bağırovun "Ulduz"da Möhsün, "Mehman"da Arif, "Onun bəlalı sevgisi"ndə Qaraxalov, "Alma-almaya bənzər"də Məmmədəli, "Şirbalanın məhəbbəti"ndə Şirbala rolları kino həvəskarları tərəfindən maraqla qarşılanmışdır. Bu obrazlara baxıb sənətkarın "Teatr, kino mənim həyatımdır" deməsinə haqq qazandırmaq olar.

Onun canlandırdığı obrazlar yüksək dərəcədə təbiiliyi, milliliyi və müasirliyi ilə səciyyələnirdi. Milli teatr tariximizin yetirdiyi böyük sənətkarlar nəslinin yaradıcılıq ənənələrinə sadiq qalan aktyor yüksək peşəkarlığı, qəhrəmanlarının mənəvi aləminə dərindən nüfuz etmək və zamanın ruhunu gözəl əks etdirmək bacarığı ilə seçilirdi. Onun böyük istedadla yaratdığı obrazlar özünün danışıq və davranış tərzləri ilə yadda qalmışdır.

Bütün qüvvə və istedadını milli teatr və kino sənətimizin tərəqqisinə sərf etmiş aktyorun xidmətləri yüksək qiymətləndirilmişdir. O, 1974-cü ildə respublikanın Əməkdar Artisti, 1982-ci ildə Xalq Artisti adlarına layiq görülmüşdür. Müxtəlif fəxri adlara və mükafatlara layiq görülmüş Hacıbaba Bağırov müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2001-ci ildə "Bankir adaxlı" tamaşasına görə "Qızıl Dərviş" mükafatını almışdır.

Hacıbaba Bağırovun Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində yeni aktyor nəslinin yetişdirilməsi sahəsindəki pedaqoji fəaliyyəti də təqdirəlayiqdir.

O, 1989-cu ildə yaratdığı "Tənqid-təbliğ" teatrının direktoru və bədii rəhbəri vəzifələrində çalışmışdır. 1996-cı ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru, bədii rəhbəri və aktyoru olmuşdur. Görkəmli səhnə ustası Hacıbaba Bağırov 2006-cı il oktyabrın 5-də dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn edilmişdir.

Azərbaycan mədəniyyətinin zənginləşməsi üçün qüvvə və bacarığını əsirgəməyən sənətkar bütün mənalı həyatını milli teatr fədaisi kimi yaşamışdır. Hamını güldürərək düşündürən Hacıbaba Bağırov müasir tariximizin ən ağır anlarında belə həqiqi vətəndaş mövqeyi nümayiş etdirmişdir.



Elə bir adam tanımaq çətindir ki, H.Bağırovu qəlbində yaşatmasın. Onun adı gələndə hamının üzündə təbəssüm oyanır. Hacıbaba Bağırov qüdrətli sənətkarlar sırasına daxildir. O, böyük məktəb qoyub getmişdir. Nə vaxtsa gözəl, peşəkar aktyorlar da meydana gələcəkdir. Amma onların sənətin ən yüksək zirvəsinə çatması üçün, şübhəsiz, Hacıbaba Bağırov kimi sənətkarların məktəbini keçmək mütləqdir.

İyunun 12-də anadan olmasının 82-ci ildönümünü onsuz qeyd edəcəyimiz Azərbaycan səhnəsinin böyük gülüş ustası Hacıbaba Bağırov bütün zamanların sənətkarı kimi xalqımızın qəlbində daim yaşayacaqdır.

***Abdulla Suvar,***
***AzərTAc-ın müxbiri***

# HAQQI BİR NEÇƏ TARİXÇİ NƏSLİN ÜZƏRİNDƏ QALAN BÖYÜK ALİM VƏ ŞƏXSİYYƏT

*18 dekabr professor, əməkdar elm xadimi, Türk Tarix Qurumunun fəxri üzvü Süleyman Sərdar oğlu Əliyarlının dünyaya gəldiyi gündür. Bir ilə yaxındır ki, biz Süleyman müəllimi qəfildən itirdik. Yaradan ona böyük xoşbəxtlik bəxş etmişdi, çünki ömrünün son gününədək Süləyman müəllim fəaliyyətdə oldu*



1954-cü ildə Moskva Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirdikdən sonra S.Əliyarlı Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunda çalışıb və həmin illərdə aspiranturada təhsil alıb. Aspiranturanın son kursundan Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasına müəllimliyə dəvət edilib və sonadək həmin kafedrada çalışıb. 1978-2001-ci illərdə həmin kafedranın müdiri olub. Onun mühazirələri tələbə auditoriyası tərəfindən hər zaman ayaq üstə alqışlanıb. Bu, mənim təhsil aldığım 70-ci illərdə də belə olub, 2000-ci illərdə də...

Elmi araşdırmalarını hər zaman siyasi konyukturadan uzaq tutan yüksək intellektli S.Əliyarlı tarix elminin fundamental istiqamətlərini müəyyənləşdirib. Hələ sovet dövründə "Kökün kim?" min ilin sualını (XI əsrdə Mahmud Kaşğarlı tərə-findən qoyulmuşdu) araşdırmış və Azərbaycan etnogenezinin ümumtürk tarixi köklərə dayandığını sübut etmişdi. BDU-nun Tarix fakültəsinin təcrübəsində ilk dəfə olaraq klassik irsimizin eposu "Kitabi - Dədə Qorqud"un məhz tarixi qaynaq problemləri haqqında xüsusi kurs aparmışdı. Epos üzrə professor S.Əliyarlının araşdırmalarını dünya şöhrətli alman alimi – qorqudşünas, tariximiz qarşısında böyük xidməti olan bir şəxs – Əhməd Şmide çox yüksək dəyərləndirərək, yazmışdır: "Müəllim! "Kitabi-Dədə Qorqud"un etnoqrafiyası və tarixini Sizin qədər bilən yoxdur." S.Əliyarlı Azərbaycan tarixində qorqudşünaslığın əsasını qoymuşdur.

S.Əliyarlı 200-dək elmi əsərin, o cümlədən 15 monoqrafiyanın və kitabın müəllifidir. "Mənim həyat kitabım" adlandırdığı 870 səhifəlik "Azərbaycan tarixi" (Bakı, 1996) kitabı tarixçiliyimizdə uğurlu bir hadisə oldu. Elmi əsərlərinin biblioqrafiyası göstərir ki, Süleyman müəllim yüksək professional ustalıq göstərərək, tarixin müxtəlif dövrlərini öyrənmişdir. Bu hər bir tarixçiyə qismət olmayan, lakin hər bir tarixçi üçün ən qiymətli keyfiyyət sayılır.

Millətin seçmə ziyalılarından olan S.Əliyarlı





güclüləri tərifləməkdən uzaq duraraq, elmdə əsl vətəndaşlıq mövqeyi ortaya qoymuşdu. 1987-ci ilin noyabrından başlayaraq o, Qarabağ məsələsi ilə bağlı son dərəcə vacib yazıları hazırlayıb çap etdirmişdir. Parisdə Erməni Fransa İnstitutunun və Erməni Veteranları Assosiasiyasının təşkil etdiyi qəbulda A.Aqanbekyanın Qarabağın Ermənistana iqtisadi "bağlılığı" barədə gülünc dəlilləri ("Humanite", 18 noyabr, 1987, s.17), həmçinin tarix elmləri doktoru S.Mikoyanın Azərbaycana torpaq iddialarının "nəzəriyyələşdirilməsi" (Литературная газета, 2 сентября, 1987) xalq şairi Bəxtiyar Vahabzadə və Süleyman Əliyarlı tərəfindən tarixi faktlarla alt - üst olundu. ("Azərbaycan" jurnalı, 1988, № 2).



Bu məqaləyə qarşı özünün antiazərbaycan mövqeyi ilə "məşhurlaşmış" Tessa Hofman "Zeit maqazin" (8 aprel, 1988) jurnalında bir yazı ilə çıxış etdi. Adı çəkilən xanımın qərəzli çıxışlarına S.Əliyarlı dəyərli cavab vermişdir. (Dağlıq Qarabağ: uydurmalar və həqiqətlər. "Azərbaycan" jurnalı 1988, № 9). Qarabağla bağlı "Республика Азербайджан в итоге: заметки о государственных границах в прошлом и настояшем" adlı sonuncu məqaləsi 2014-cü ildə Sankt-Peterburqda məqalələr toplusunda çap olunub ("Карабах. История в контексте конфликта. Санкт-Петербург, 2014"). Amma Süleyman müəllim bu nəşri görə bilmədi...

Böyük Sovet dövlətində fikirlərinə görə təqib olunan S.Əliyarlı müstəqil Azərbaycanda da əsl qiymətini almadı. 55 il çalışdığı BDU-da heç bir Elmi Şuranın üzvü deyildi. Böyük alimin yalnız bir yubileyi – 70 illiyi qədirbilən Xəzər Universitəsi tərəfindən keçirilmişdir. Bu yubiley əsl elmin təntənəsi oldu. Yubiley təntənəsində tanınmışlardan Bəxtiyar Vahabzadə, Nurəddin Rza, Həsən Həsənov, Hamlet İsaxanlı iştirak etmişdilər. Yubileylə bağlı Əliyarlı elmi məktəbinin tarixçiləri ustadın qarşısında öz elmi nəticələri ilə çıxış etdilər. Yekun kimi "Azərbaycan tarixinin çağdaş problemləri" (Red.Hamlet İsaxanlı. Bakı, 2000) adlı kitab çap olundu. Süleyman müəllim Xəzər Universitetində keçirilən "Elm və sənət məclisi"nin daimi və fəal iştirakçılarından biri idi.

2013-cü ilin sentyabr ayında vaxtilə bizə dərs deyən bir neçə müəllimimizin iştirakı ilə buraxılışımızın 40 illiyi keçirildi. Bu görüşdə Süleyman müəllim çox gözəl əhvalda idi. Maraqlı çıxış etdi, şeir dedi, hələ arada zarafatlaşdı ki, «компьютер заело» (hansısa misra yadından çıxmışdı). Süleyman müəllim çıxışında bizlər üçün çox önəmli sözlər dedi: "Sizinlə fəxr edirəm. əgər mənim bir sözüm sizinlə bərabər sizin tələbələrə çatmışsa, məndən xoşbəxti yoxdur." Sonda isə belə kədərli misraları dilinə gətirdi: "Mən öləndə istərəm ki, xalqa bir sözüm qalaydı....."

Xalqa sözünüz qaldı, əziz Süleyman müəllim! Yalnız cəmiyyətimiz Sizin qarşınızda borcludur.

*Elmira Muradəliyeva,*
*professor*
*Bakı Dövlət Universiteti, Azərbaycan tarixi kafedrası*

## AZƏRBAYCANI DANİMARKADA TANIDAN PROFESSOR

*Xaricdə yaşayan soydaşlarımız təkcə yaşadıqları ölkələrdə diaspor təmsilçisi kimi fəaliyyət göstərmir, eləcə də həmin ölkələrin ictimai-siyasi, elmi və mədəni həyatında yüksək fəallıq göstərərək, Azərbaycanı uğurla təmsil edirlər*



AzərTAc-ın Danimarkaya ezam edilmiş əməkdaşları belə azərbaycanlılardan olan, Danimarkanın Qlostrup hospitalının nevrologiya şöbəsinin baş həkimi, Kopenhagen Tibb Universitetinin professoru Məsud Aşina və onun qardaşı, Nyu-York Tədqiqatlar İnstitutunun baş elmi işçisi, Nyu-York Tibb Universitetinin professoru Səid Aşina ilə görüşüblər.

Məsud Aşina 1965-ci ildə Bakıda doğulub, Azərbaycan Tibb Universitetini bitirib, aspiranturada təhsil aldıqdan sonra Danimarkada doktorluq dissertasiyası müdafiə edib. Danimarkada həkim kimi Kopenhagenin Rigs xəstəxanasında fəaliyyətə başlayıb, sonra Qlostrup xəstəxanasında bir çox layihələrə rəhbərlik edib.

AzərTAc-a müsahibəsində Məsud Aşina uzun illər Danimarkada yaşamasına baxmayaraq, Azərbaycan ilə sıx əlaqə saxladığını, Vətənə tez-tez gəldiyini dedi. O, Azərbaycanda son on ildə gördüyü dəyişikliklərə çox sevindiyini bildirdi. Öz sahəsində şöhrət qazanmış həkim Azərbaycanda tibb sahəsində bir sıra layihələr həyata keçirdiyini, o cümlədən nevrologiya üzrə beynəlxalq konfrans təşkil etdiyini diqqətə çatdırdı.

Qlostrup Hospitalının Nevrologiya şöbəsinin baş həkimi M.Aşina tibb sahəsində, xüsusilə miqren xəstəliyinin öyrənilməsi, müalicəsi ilə bağlı ciddi nailiyyətlər əldə edib. Bu sahədə 200-dən artıq məqalənin və 35-dən çox elmi kitabın müəllifi olan professor 2011-ci ildə “Nevrologiya” sahəsi üzrə “Mogens Fog” mükafatına layiq görülüb.

M.Aşina bu gün iştirak etdiyi beynəlxalq tədbirlərdə ünsiyyətdə olduğu tanınmış alimlərlə söhbətində ölkəmiz haqqında eşitdiyi müsbət rəylərin onda xoş təəssürat oyatdığını bildirərək dedi: “İndi Azərbaycanı dünyanın hər yerində tanıyırlar. 10-15 il əvvəl belə deyildi. Ölkəmizdə keçirilən beynəlxalq konfrans və seminarlar Azərbaycanı dünyada tanıtmaq imkanı yaradıb. Mən tez-tez xarici ölkələrdə mühazirələr oxuyuram. Getdiyim hər yerdə azərbaycanlı olduğumu bilən kimi, ilk növbədə Bakıdan, onun gözəlliyindən söz açılır və bu, məni sevindirir”.

Doktor Məsud Aşina son illər tibb sahəsində əldə etdiyi nailiyyətlə Danimarka ictimaiyyəti və dünya tibb mütəxəssislərinin diqqətini özünə cəlb edib. Belə ki, professor miqren üzrə 1998-ci ildən 2013-cü ilədək irəli sürdüyü nəzəriyyələrin tətbiqi ilə bağlı rəhbərlik etdiyi qrupla bir il ərzində araşdırma aparıb.

M.Aşina tanıdığı elm adamlarının bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə çox maraqlandıqlarını vurğulayaraq dedi: “Mənə Dağlıq Qarabağ problemi ilə bağlı verilən suallara cavabım bir olur: Bizim ərazilərimiz işğal edilib, insanlarımız evindən, eşiyindən, doğma torpağından didərgin düşüblər. Azərbaycan dövləti də, xalqı da hələ ki münaqişənin sülh yolu ilə həllinə tərəfdardır”.

Qeyd edək ki, Məsud Aşinanın birillik araşdırma qrupunun fəaliyyətində onun qardaşı Səid Aşina da iştirak edib.

Səid Aşina tibb sahəsində əldə etdiyi nailiyyətlər, baş ağrıları və miqrenin müalicəsi istiqamətində həyata keçirdiyi tədqiqatlardan danışdı. O bildirdi ki, bu gün Azərbaycanda da bu xəstəlikdən əziyyət çəkənlər çoxdur və Vətəndə də bu istiqamətdə həyata keçirilən layihələrdə yaxından iştirak edir.

S.Aşina Bakıda anadan olub. Burada orta məktəbi bitirən Səid sonradan ali təhsilini Danimarkada davam etdirib. Kopenhagen Tibb Universitetinin məzunudur. Hazırda isə o, Nyu-York Tədqiqatlar İnstitutunun baş elmi işçisi, Nyu-York Tibb Universitetinin professorudur. Hazırda Nyu-Yorkun Albert Eynşteyn Tibb Universitetində elmi tədqiqatlarını davam etdirir. O, həmçinin Manhettendə, Beth İsrail Tibb Mərkəzinin nevrologiya və anesteziologiya kafedrasının dosenti və baş ağrıları proqramının direktorudur.

S.Aşina Azərbaycanda tibb sahəsində çox böyük potensialın olduğunu qeyd edərək bildirdi: “Bu gün Azərbaycanda çox savadlı gənc həkimlər yetişir. Bu isə səhiyyəmizin inkişafı deməkdir. Ümumiyyətlə, Bakıda çox böyük dəyişikliklər var. Müasir infrastruktur, yaraşıqlı küçə və meydanlar, yeni tikilən binalar şəhəri daha da gözəlləşdirir. Biz buna çox şadıq və əminik ki, Azərbaycan daha da inkişaf edəcək”.

S.Aşina Londonda keçirilən baş ağrıları üzrə beynəlxalq konqresdə nüfuzlu mükafata layiq görülüb. O, bu mükafata Albert Eynşteyn Tibb Universitetində apardığı elmi tədqiqatların uğurlu nəticəsi və miqren üzrə yeni kəşfinə görə layiq görülüb.

*A.Həsənova, E.Şahbalayev,*
*AzərTAc*
*Kopenhagen*
*06. 12.2014*

## ABŞ-DA "İŞIĞIN HƏRƏKƏTİNİ GÖRMƏK" İMKANI VERƏN KAMERA İXTİRA EDİLİB

*Sent-Luisdə yerləşən Vaşinqton Universitetinin alimləri dünyanın ən yüksəktezlikli çəkilişə malik kamerasını hazırlayıblar. Bu qurğu saniyədə 100 milyard kadr çəkmək imkanına malikdir*



Ən yüksəktezlikli kameranın yaradıcıları iddia edirlər ki, qurğunun köməyi ilə "işığın hərəkətini görmək" olar. Qurğu kimyəvi reaksiyaların tədqiqatı və biomolekulların dinamikası üçün istifadə oluna bilər.

Mütəxəssislər bu effektə xüsusi obyektiv sayəsində nail olublar.

## "ONECUE" QURĞUSU EV ELEKTRONİKASINI JESTLƏR VASİTƏSİLƏ İDARƏ ETMƏYƏ İMKAN VERƏCƏK

*ABŞ-ın "EyeSight" şirkətinin hazırladığı "Onecue" adlı müasir rəqəmsal qurğu ev sahiblərini uzaq məsafədən idarəetmə funksiyasına malik çoxsaylı pultlardan azad edəcək*



Həmin qurğu vasitəsilə ev elektronikasını intuitiv jestlərlə idarə etmək mümkün olacaq. Məsələn, reklam zamanı televizorun səsini azaltmaq üçün barmağı dodaqlara yaxınlaşdırmaq kifayət edəcək. "Onecue" yalnız televizorları deyil, digər qurğuları - akustik sistemləri, DVD və Blu-Ray pleyerləri, həmçinin "ağıllı" evin bəzi sistemlərini də idarə etməyə imkan verir.

Hazırda "Eyesight" şirkəti "Onecue" qurğusu üçün ilkin sifarişləri qəbul edir. Qurğunun qiyməti də münasibdir: cəmi 129 dollar.

## QIZIL ÜZÜKDƏ "NFC" ÇİPİ QURAŞDIRILIB

*Yaponiyanın "TSLJ" zərgərlik məmulatları istehsalçısı brilyant qaşlarla bəzədilmiş və "NFC" çipinin quraşdırıldığı qızıl üzük təqdim edib*



Bu barədə "The Wall Street Journal" (WSJ) nəşri məlumat verib. Məlumatda bildirilir ki, "TSLJ" şirkəti (brend Core Jewels) kontaktsız məlumat mübadiləsi texnologiyası olan "Near Field Communication" (NFC) quraşdırılan ilk daş-qaşlı "One" üzüyü üçün sifarişlərin qəbuluna başlayacaq.

Qurğunun qiyməti 390 min yen (3670 dollar) təşkil edir. Üzük "Bulud" servislərində şifrlənmiş məlumatlara – məsələn, şəkillərə və videolara daxil olmaq üçün parol əvəzinə istifadə edilə bilər. Bundan başqa, üzükdən "Android" əməliyyat sisteminin idarəetməsi ilə işləyən qurğularda mühafizə edilən məlumatlara çıxış üçün də istifadə etmək mümkündür.

Satışa dekabr ayında çıxarılması gözlənilən üzükdən hələlik elektron ödənişlərin həyata keçirilməsi və ya smartfonun blokdan çıxarılması üçün istifadə qeyri-mümkün olsa da, istehsalçı gələcəkdə ona bu imkanların əlavə edilməsi barədə düşünür.

## RUMINİYANIN YENİ PREZİDENTİ

*Noyabrın 17-də Rumıniyada keçirilən prezident seçkilərinin ikinci turunda Sibiu şəhərinin meri, milli liberalların namizədi Klaus Yohannis qalib gəlib*



Onun əsas rəqibi, baş nazir Viktor Ponta öz məğlubiyyətini etiraf edib. V. Ponta rəsmi nəticələri gözləmədən K. Yohannisi təbrik edib.

Qeyd edək ki, seçkilərlə bağlı keçirilən "exit-poll" sorğuları qalibi müəyyən edə bilməyib.

Seçkilərin ilk turu noyabrın 3-də keçirilib. İlk turda V. Ponta 40,3%, K. Yohannis isə 30,4% səs alıb.

Rumıniyada iki müddət prezidentlik edən Trayan Basesku bu seçkidə namizəd olmaq hüququnu itirmişdi.

## PUTİN ÜÇÜN QIZILDAN "İPHONE"

*İtalyan zərgərləri üzərində qızıl və titandan Putinin portreti həkk olunmuş "iPhone 6" hazırlayıblar*

Sənət əsəri Rusiya prezidentinin "Forbes" tərəfindən dünyanın ən qüdrətli siyasətçisi seçilməsinə həsr olunub.

Qızıl "iPhone 6"nın dizaynı barelyef üslubundadır. Titan korpusun üzərində Rusiya prezidentinin siması ilə qerb həkk olunub.




## RUSİYA PREZİDENTİ "ANTİOFŞOR QANUN"UNU İMZALAYIB

*Rusiya Federasiyasının prezidenti Vladimir Putin noyabrın 25-də xarici şirkətlərin Vergi Məcəlləsinə dəyişiklikləri təsdiqləyib*

Sənədə edilən dəyişikliklərə əsasən bundan sonra vergi ödəyiciləri xarici şirkətlərdəki iştirakı ilə bağlı Rusiyanın aidiyyatı orqanlarına məlumat verməlidir. Qanuna edilən dəyişikliklər gələn il yanvarın 1-dən qüvvəyə minir.

## SABİQ BAŞ NAZİR HƏBS EDİLDİ

*Portuqaliyada keçmiş hökumət rəhbəri Joze Sokrates həbs edilib*



İTAR-TASS agentliyinin verdiyi xəbərə görə, Socrates vergidən yayınma, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və korrupsiyada təqsirli bilinir.

Portuqaliyanın keçmiş baş naziri Parisdən gələrkən Lissabon hava limanında saxlanılıb. Cinayət işi çərçivəsində daha 3 nəfər istintaqa cəlb olunduğu bildirilir.

## Aİ DİPLOMATİYASININ RƏHBƏRİ FƏLƏSTİNİ DÖVLƏT KİMİ TANIMAĞA ÇAĞIRDI

*Avropa İttifaqı diplomatiyasının rəhbəri Federika Moqerini Fələstini müstəqil dövlət kimi tanımağa çağırıb*



Bu barədə Deutsche Welle nəşri məlumat yayıb.

"Bizə Fələstin dövləti lazımdır. Bu bütün Avropa İttifaqının ən əsas məqsədi və mövqeyidir", deyə, Moqerini noyabrın 9-da Qəzza zolağına səfəri zamanı bəyan edib.

Qeyd edək ki, bir neçə gün əvvəl İsveç Fələstini suveren dövlət kimi tanıyıb. Bundan sonra İsrail İsveçdəki səfirini geri çağırıb.

## BEŞ İLDƏN SONRA DÜNYADA YAŞLI İNSANLARIN SAYI ARTACAQ

*Dünya Səhiyyə Təşkilatının (DST) hesablamalarına görə, 5 ildən sonra dünyada yaşlı insanların (yaşı 60-dan yuxarı) sayı uşaqların (5 yaşına çatmamış) sayından çox olacaq*

DST-nin məlumatına görə, belə demoqrafik dəyişiklik ilk dəfə baş verəcək. DST-nın mütəxəssisləri hesab edirlər ki, hadisələrin bu cür gedişatı ciddi resurs gərginliyi yaradır və qlobal böhrana səbəb ola bilər.

Hazırda dünyada yaşlı insanların sayı 841 milyondur. DST-nın proqnozlarına əsasən, 2025-ci ilə onların sayı dünyada 2 milyarda çatacaq.

Qocaların sayının artmasının bir neçə səbəbi var. Bura insan ömrünün uzanması (xüsusilə inkişaf etmiş sənaye ölkələrində), qan-damar kimi xəstəliklərdən ölənlərin sayının azalması və həyat səviyyəsinin yüksəlməsi aid edilir.

## UKRAYNADA LƏYAQƏT VƏ AZADLIQ BAYRAMI ELAN OLUNDU



*Ukrayna prezidenti Pyotr Poroşenko Avromaydan hadisələrinin ildönümü münasibətilə 21 noyabrı Ləyaqət və Azadlıq Bayramı elan edib*

Fərmanı Poroşenko noyabrın 13-də imzalayıb.

Poroşenko Ukraynanın ləyaqət və azadlıq ərazisi olduğunu deyib: "Bizi belə eləyən iki inqilab var – Azadlıq bayramı kimi qeyd etdiyimiz 2004-cü il Maydanı (*Qərb meylli Viktor Yuşşenkonu hakimiyyətə gətirən hərəkat* – **red.**) və 2013-cü ildə baş verən Ləyaqət inqilabı".

## QIZ BÜRCÜNDƏN OLANLAR İŞƏ GÖTÜRÜLMÜR

*Çində bəzi iş sahibləri Qız bürcünə mənsub olanların kompulsiv, dəcəl olduqlarını əsas gətirərək, onları işə götürməkdən imtina edirlər*

Çində iş sahibləri qapılarında "Qız bürcündən-sənsə iş üçün yaxınlaşma" elanını yapışdırıblar. Əgər doğum gününüz 23 Avqust – 22 sentyabr arasındadırsa, Çində iş tapmaqda çətinlik çəkəcəksiniz. Çünkü, bu ölkədə bəzi şirkətlər təzə işçi götürmək istədikləri zaman namizədlərin ulduz fallarına baxırlar. Dünyanın ikinci ən böyük iqtisadiyyatına malik ölkəsində iş verənlər bəzi bürclərin uğur gətirmədiyini bəhanə edərək, iş üçün müraciət edənləri geri qaytarırlar.

Qeyd edək ki, Çində uğursuz bürc təkcə Qız hesab olunmur. Burada Balıq və Əqrəb bürclərinin nümayəndələri də əziyyət çəkirlər.

## CƏMİL ÇİÇƏK: "ANKARA ARXİVLƏRİ AÇMAĞA HAZIRDIR"

*"Ermənistan 1915-ci il hadisələrinin "erməni soyqırımı" kimi tanıdılmasına yönəlik fəaliyyəti ilə dünyanı aldada bilməz"*



"Anadolu" agentliyinin verdiyi məlumata görə, bunu noyabrın 27-də Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçək bəyan edib.

O qeyd edib ki, son zamanlar ermənilər və erməni lobbisi dünya ölkələrinin parlamentləri tərəfindən 1915-ci il hadisələrinin "erməni soyqırımı" kimi tanınması üçün səylərini gücləndiriblər.

C. Çiçək həmçinin bildirib ki, Ankara arxivləri açmağa və 1915-ci il hadisələrini yenidən araşdırmağa hazırdır.

## ALMANİYADA OSMANLI DÖVRÜNƏ AİD MUSİQİ ƏSƏRİ TAPILIB

*Almaniyanın Dövlət Kitabxanasında 1916-cı ildə bəstələnmiş "Yaşasın osmanlılar" türk marşının sözləri və musiqi notlarından ibarət kitabın əsas nüsxəsi tapılıb*

Türkiyənin "Sabah" qəzeti yazır ki, Osmanlı dövlətinin Vyanadakı sonuncu səfiri Hüseyn Helmi Paşaya həsr olunmuş əsər bəstəkar M.Bütner - Valdmüller tərəfindən notlaşdırılıb. Bəstələnəndən az sonra sözləri türk və alman dillərində yazılmış əsərin Vyana, Leypsiq və Budapeşt şəhərlərində təqdimatı keçirilib.

Kitabın üz qabığında, bu kitabın satışından, bəstədən və musiqinin ifasından əldə olunan gəlirlərin Qızıl Aypara Cəmiyyətinin fonduna köçürüldüyü barədə qeyd var.

## ORTAQ TÜRK TELEKANALI YARADILIR

*"Bu barədə artıq qərar verilib, televiziyanın struktur layihəsi hazırlanıb"*
*Bunu dekabrın 2-də TürkPA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının Bakıda keçirilən iclasında Türk Şurasının layihə direktoru Zamin Əliyev deyib*

O qeyd edib ki, bu təşəbbüs bu ilin iyun ayında türkdilli ölkə başçılarının Bodrumda keçirilən zirvə görüşündə Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən irəli sürüldükdən sonra koordinasiya qrupu yaradılıb: "Bu il oktyabr ayının sonunda koordinasiya qrupunun iclasında kanalın yaradılması barədə qərar qəbul olundu. Kanalın strukturu İdarə Heyətindən, Direktorlar Şurasından və redaksiya heyətindən ibarət olacaq. Telekanal həm ingilis, həm də türkdilli ölkələrin rəsmi dövlət dillərində fəaliyyət göstərəcək. Telekanal "Al Jazira", "Euronews" kimi beynəlxalq status daşıyacaq. Hazırda sınaq yayımları gedir və tezliklə telekanal fəaliyyətə başlayacaq".



O qeyd edib ki, kanalın adı "Eurasia Life" kimi qəbul olunsa da, adın dəyişdirilməsi də mümkündür.

## “BU İLDƏN ETİBARƏN AXISXA TÜRKLƏRİNİN REPARTASİYASI MƏSƏLƏSİNƏ BAXILACAQ”

*Gürcüstan prezidenti Georgi Marqvelaşvili Axısxa türkləri ilə görüşüb və onların problemləri ilə tanış olub*



APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə prezidentin milli azlıq məsələləri üzrə müşaviri Sofiya Şamanidi bildirib. O, bu ildən başlayaraq, Axısxa türklərinin repartasiyası məsələsinə baxılacağını deyib: "Axısxa türkləri prezidentlə görüşdə onları narahat edən problemlər barədə ətraflı danışıblar. Qeyd olunub ki, 2011-ci ildə yaradılan "Repartasiya məsələləri üzrə idarələrarası Şura" onlarla sıx əməkdaşlıq etməlidir”.

S. Şamanidinin sözlərinə görə, görüşdə həmçinin qeyd edilib ki, Gürcüstan vətəndaşlığına qəbul müddəti 2 ildən 5 ilədək uzadılsın: “Bizdə olan məlumata görə, hələlik 267 Axısxa türkü Gürcüstan vətəndaşlığını alıb. Bu il Axısxa türklərinin Gürcüstandan köçməsinin 70 ili tamam olub və bu münasibətlə Axısxa türkləri konfrans keçiriblər. Prezidentlə keçirilən görüşdə isə Axısxa türkləri onlara göstərdiyi diqqətə görə təşəkkür ediblər".

Xatırladaq ki, Axısxa türkləri 1944-cü ildə Gürcüstandan Orta Asiya respublikalarına sürgün ediliblər.

## TÜRKDİLLİ ÖLKƏLƏR ARASINDA ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin Bakıda keçirilən üçüncü görüşündə mühüm qərarlar qəbul edilib*



Bu barədə Türkiyənin təhsil naziri Nabi Avcı keçirdiyi mətbuat konfransında məlumat verib. O bildirib ki, ortaq tarix, coğrafiya və ədəbiyyat dərslikləri hazırlanacaq. Qərara əsasən, bu layihə Türk Akademiyası tərəfindən həyata keçiriləcək. Kitabların proqramlarının hazırlanmasına başlanıldığını deyən N.Avcı qeyd edib ki, ilk olaraq tarix kitabının hazırlığı tamamlanıb: “İlk qərara əsasən, 1500-cü illərə qədər gələn ortaq tariximiz əvvəl könüllü, sonra məcburi şəkildə tədris olunacaq. Eyni əməliyyat gələn ilin aprel ayına qədər coğrafiya və ədəbiyyat kitabları üçün də reallaşdırılacaq. Beləcə, uşaqlarımız ortaq tarix, coğrafiya və ədəbiyyatımızı birinci əldən tanıma fürsəti əldə edəcəklər”.

Nazir türkdilli ölkələr arasında tələbə və müəllim mübadiləsi ilə bağlı mühüm qərarların qəbul edildiyini də bildirib. Yaxın gələcəkdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan arasında tələbə və müəllim mübadilələri proqramları qüvvəyə minəcək.

Bundan əlavə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Tələbə Məclisinin yaradılmasının təsdiq olunduğunu deyən N. Avcı təhsil nazirlərindən ibarət Elm İcra Heyətinin də yaradılmasına qərar verildiyini açıqlayıb: “Bu heyət Türk Akademiyasına elmi fəaliyyətlərində məntiqi dəstək verəcək, universitetlər arasında əməkdaşlığı inkişaf etdirəcək. İclasda həmçinin çox müsbət nəticələr doğuracağına inandığımız qərarlar qəbul edilib”.

## RUSİYA MÜSƏLMANLARININ RUHANİ İDARƏSİ RƏSMİ QEYDİYYATDAN KEÇİB

*Son illər Ural, Uzaq Şərq və Sibirdə fəaliyyətini genişləndirən Rusiyanın Avropa hissəsinin Müsəlmanlarının Ruhani İdarəsinin (RAMRİ) adı "Rusiya Müsəlmanlarının Ruhani İdarəsi" (RMRİ) ilə dəyişdirilib*



Rusiya Ədliyyə Nazirliyi mərkəzləşdirilmiş dini təşkilatın qeydiyyatı barədə şəhadətnaməni təqdim edib.

RMRİ-nin Mətbuat xidmətindən verilən məlumata əsasən, Təşkilatın adının dəyişdirilməsi barədə qərar "təşkilatın fəaliyyətinin, faktiki olaraq, Rusiyanın Avropa hissəsi sərhədlərindən kənara çıxması ilə əlaqədar" sentyabrda qəbul edilib.

RMRİ-nin sədri Rusiya Müftilər Şurasının başçısı Ravil Qaynutdin olub.

"RMRİ Rusiya Federasiyası müsəlmanlarının ruhani idarəsidir. Biz yalnız ölkənin Avropa hissəsində işləmirik, eyni zamanda Uralda, Uzaq Şərqdə, Sibirdə, ərəb-müsəlman ölkələrinin nazirlikləri, eləcə də dünyanın digər dövlətlərinin beynəlxalq islam təşkilatları ilə də əməkdaşlıq edirik." R.Qaynutdin belə deyib.

## ANTARKTİDADA İLK DƏFƏ AZAN SƏSİ EŞİDİLƏCƏK

*Tatarıstanın Kul Şərif məscidində cənub qütbünə gedəcək "Antraktida-100" ekspedisiyasına Quran verilib*

Quran buzlaqlarla örtülmüş materikdə yerləşən Rusiyanın "Bellinshauzen" stansiyasının əməkdaşlarına hədiyyə ediləcək.

Ekspedisiyanın üzvü Rüstəm Gilmütdinov Quran oxuyaraq, azana çağıracaq. Dünyada sülhün bərqərar olması üçün dua ediləcək.

Antarktidaya cəmi üç Quran göndəriləcək. Onlardan biri stansiyada qalacaq. İki Quran isə geri qaytarılaraq Rusiya Coğrafiya Cəmiyyətinə və İslam Mədəniyyəti muzeyinə hədiyyə ediləcək.

## YALNIZ KOSMETİKASIZ QADINLAR MAŞIN SÜRƏ BİLƏCƏK

*Səudiyyə Ərəbistanı hökuməti ölkənin məşvərət orqanından qadınların avtomobil idarə etməsi qadağasının qismən ləğvi ilə bağlı təklif alıb*

Hökumət təklifləri qəbul etsə, qadınların avtomobil idarə etməsinə bir sıra məhdudiyyətlər tətbiq olunacaq. Belə ki, yalnız yaşı 30-dan çox olan qadınlar sükan arxasına keçə biləcəklər. Həm də gündüz saatlarında və kosmetikasız.

Qeyd edək ki, Səudiyyə Ərəbistanında qadınların maşın sürməsinə qoyulan qadağanın dünyada analoqu yoxdur. Ultramühafizəkarlar hesab edirlər ki, əgər qadınlar avtomobil idarə etsələr, bu, əxlaqsızlığın yayılmasına səbəb ola bilər.



## TÜRKİYƏDƏ TİKİLƏCƏK YENİ MƏSCİD QADINLAR ÜÇÜN NƏZƏRDƏ TUTULUB

*Müsəlman qadınlarının ehtiyaclarının artması ilə əlaqədar olaraq, dünyada müsəlman qadınlar üçün daha geniş məscidlərin sayı artır*

İbadət üçün yerə ehtiyac duyan müsəlman qadınlar üçün İstanbulda tikilən "Kamkila" məscidi iki memar qadın - Bahar Mizrak və Hayri Gül Totu tərəfindən hazırlanır. Məscidin 30 min kvadratmetr sahəyə malik olacağı bildirilir.

## TÜRKİYƏNİN HƏR BİR UNİVERSİTETİNDƏ MƏSCİD OLACAQ

*Türkiyənin baş dini orqanı yüz minlərlə tələbənin ehtiyacını təmin etmək məqsədilə ölkənin bütün dövlət universitetlərində məscid tikintisi üzrə planlarını elan edib*



Türkiyə Müsəlmanlarının Dini İdarəsinin rəhbəri Mehmet Görmez məlumat verib: "Bu, müsəlman tələbələrin həyatını rahatlaşdıracaq. 80-dən çox universitetdə məscid tikiləcək. Onlardan 15-i namaz üçün artıq açıqdır, 2015-ci ildə ən azı daha 50 belə məscid açacağıq.

Bizim ölkədə 20 milyon gənc yaşayır. Yeni məscidlərin tikilməsi barədə qərar milyonlarla gənc türkiyəli tələbənin ehtiyacını ödəmək üçün bir cəhddir."

Onun sözlərinə əsasən, yeni məscidlərin hər birində əmək haqqı dövlət tərəfindən ödəniləcək imam olacaq.

## RUSİYA MÜFTİLƏR ŞURASI ÖLKƏDƏKİ MƏSCİDLƏRİN SAYINI AÇIQLAYIB

*Rusiyada 20 milyon müsəlman, 7 mindən çox məscid mövcuddur*

Rusiya mətbuatı xəbər verir ki, son 30 ildə Federasiyada məscidlərin sayı 70 dəfə artıb.

Müftilər Şurasının yaydığı hesabatda qeyd edilir ki, Sovet dövründə Rusiyada cəmi 100 məscid olub və hazırda Rusiyada 7 mindən çox məscid mövcuddur.

Müftilər Şurasının rəsmi hesabatında göstərilir ki, paytaxt Moskvada 2,5 milyon, Sankt Peterburq şəhərində isə 750 mindən çox müsəlman yaşayır.

Ümumilikdə Rusiyada 20 milyon müsəlmanın olduğu qeyd olunan hesabatda son illərdə yerli əhali arasında İslam dinini qəbul edənlərin sayının artması xüsusi olaraq vurğulanıb.

## YAPONİYADA İSLAM DİNİ GENİŞLƏNİR

*Məscidlərin və halal yeməklərin verildiyi restoranların sayı artmaqda davam edir*



“Mehr" agentliyinin verdiyi xəbərə görə, Yaponiya cəmiyyəti İslam dinini daha yaxşı tanıyır. Məscidlərin və halal yeməklərin verildiyi restoranların sayı artmaqda davam edir.

Əvvəllər ev kimi istifadə edilən, lakin sonradan məscidlərə çevrilən 60 məscid vardır.

Kobe bölgəsində yerləşən məscidlərdən birinin imamı olan Mohsen Beyumi belə deyib: "Yaponiyada İslam adət və ənənələrinə maraq günü-gündən artır."

II Dünya Müharibəsindən sonra Yaponiyada məscidlərin sayı olduqca az idi. İlk məscid 1930-cu ildə Kobedə inşa edilən məscid idi. 1980-ci illərdən sonra inkişaf edən Yapon iqtisadiyyatı pakistanlı və indoneziyalı işçiləri buraya gətirdi və ehtiyac səbəbiylə burada məscidlərin sayı artmağa başladı.

Mohsen Beyumi deyib ki, o, indiyədək 600-dən çox yaponun İslamı qəbul etdiyinə şahid olub.

## VATİKANDA AZƏRBAYCANA AİD XƏRİTƏLƏR TAPILDI

*Apostol və İtaliyanın Milli kitabxanalarında 18 xəritə tapılıb*



Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva İtaliyada səfərdə olub

O, səfər çərçivəsində İtaliyanın aparıcı şərqşünaslıq mərkəzində - Neapol Şərqşünaslıq Universitetində olub. Səfər çərçivəsində G.Baxşəliyeva Vatikan Apostol kitabxanasında və İtaliyanın Milli kitabxanasında axtarışlar aparıb. Vatikan kitabxanasında bir çox xəritələrə baxış keçirərək, Azərbaycan və regionun tarixi coğrafiyasına aidiyyəti olan 18 xəritənin surətləri sifariş edilib. Surətlər bir ay ərzində sifarişçiyə göndəriləcək. Eyni zamanda alim tərəfindən Vatikanda saxlanılan, ərəb, fars və türk əlyazmalarının (bütövlükdə 4 cild) kataloqları alınaraq, ölkəmizə gətirilib. Hazırda onların üzərində ətraflı araşdırma aparılır.

Milli kitabxanada axtarış aparan alimimiz burada bir sıra azərbaycanlı müəlliflərin əsərlərinin saxlanıldığını müəyyən edilib. Əslən Təbrizdən, Şirvandan, Bakıdan, Bərdədən və digər tarixi Azərbaycan ərazilərindən olan müəlliflərin əsərləri bizim üçün böyük maraq doğurur. Milli kitabxanada saxlanılan şərq əlyazmalarının kataloqları, təəssüf ki, bugünədək çap olunmayıb və onlarla yalnız kitabxananın özündə tanış olmaq mümkündür. 35 qalın cilddən ibarət şərq kataloqlarından zaman məhdudluğundan yalnız 9-u ilə tanış olmaq mümkün olub.

## ALİMİMİZ QARABAĞDA QƏDİM YAŞAYIŞ YERİ AŞKAR EDİB

*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Xaqani Alıməmmədov rəhbəri olduğu Qarabağ neolit-eneolit ekspedisiyasının əsas tədqiqat obyekti olan İsmayılbəytəpə neolit dövrü yaşayış yerində arxeoloji qazıntı işləri ilə yanaşı, Qarabağ düzənliyində arxeoloji kəşfiyyat işlərini aparıb*



Lent.az-a verilən məlumata görə, İsmayılbəytəpə neolit dövrü yaşayış yerində 2013-cü ildə qazıntılarına başlanılmış 15 saylı tikili qalığı bütünlüklə qazılaraq təmizlənib.

Qazıntılar zamanı C14 və paleonoloji analizlərin aparılması üçün hər bir təbəqədən nümunələr götürülüb. Bu artefaktlar nəinki Azərbaycan, bütün Qafqaz neoliti üçün bir yenilikdir. Abidənin əlverişli yerləşmə vəziyyəti və tarixi-arxeoloji baxımdan unikallığı onun müzeyləşdirilməsi məsələsini aktual edir. Arxeoloji kəşfiyyat işləri əsasən Ağdam, Ağcabədi və Bərdə rayonları ərazisində aparılıb. İlk dəfə olaraq Sultanbud meşəsi bütünlüklə arxeoloji kəşfiyyata cəlb olunub, nəticədə 30-dək müxtəlif dövrlərə aid arxeoloji abidə elektron şəkildə qeydiyyata alınaraq xəritələşdirilib. Meşə ərazisində aparılmış kəşfiyyat işlərinin əsas maraqlı cəhəti ondan ibarətdir ki, bu abidələrin böyük əksəriyyəti neolit və eneolit dövrünə aiddirlər və onlar ilk dəfə olaraq qeydiyyata alınıb. Bərdə rayonu ərazisində Xaçınçayın sol sahili və onun Əmirli və Xanərəb kəndləri arasında yerləşən qədim yatağı boyunca arxeoloji kəşfiyyat işləri aparılıb, 10 neolit və Leylatəpə mədəniyyətinə aid yaşayış yeri aşkar edilərək qeydiyyata alınıb.

AMEA Rəyasət Heyətinin qərarına əsasən çapa hazırlanan "Qarabağın arxeoloji abidələr toplusu"nun I cildinin tərtibi artıq başa çatmaq üzrədir. Bu kitabda "Qarabağ neolit-eneolit ekspedisiyası"nın 2010 - 2013-cü ildə apardığı arxeoloji kəşfiyyat işləri zamanı qeydiyyata alınaraq xəritələşdirilmiş 100 neolit və eneolit dövrü abidəsi haqqında məlumat verilib. Belə ki, topluda hər bir abidənin 3 dildə - Azərbaycan, rus və ingilis dillərində təsnifatı, onların fotoları, topoqrafiq planları, relyef görüntülərinin 3D formatı və onlardan aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin foto və qrafiq illustrasiyaları veriləcək. Bunlardan əlavə olaraq topluya 1:50 000 miqyasında tərtib edilmiş "Qarabağın arxeoloji abidələri xəritəsi" də əlavə olunacaq.

## AZƏRBAYCAN ALİMLƏRİNİN YENİ KƏŞFİ

*Azərbaycan alimləri işıqlandırmada istifadə olunan göy işıq diodları üçün yeni effektiv şüalanan lüminessent materiallar əldə ediblər*



Bu materiallar mövcud işıq diodları ilə kombinasiya edildikdə müxtəlif rəngdə işıq mənbələri yaratmaq olur.

Bunu Trend-ə Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun baş elmi işçisi, akademik Bahadır Tağıyev deyib.

Onun sözlərinə görə, göy işıq diodlarının üzəri əldə olunan yeni materialla örtüldükdə göy rəng materialların rəngindən asılı olaraq həmin materialın rəngində işıqlanır: "Qırmızı maddə çəkdikdə diod qırmızı rəngdə işıqlanır, ağ rəng çəkdikdə isə ağ rəngdə işıqlanır".

Göy işıq diodlarının işıqlandırma üçün istifadə olunan digər lampalardan daha üstün olduğunu deyən B.Tağıyev bildirib ki, közərmə lampalarında elektrik enerjisinin 90 faizi istiliyə sərf edilir, yalnız 10 faizi işığa çevrilir. Göy işıq diodları isə az enerji sərf edir və onlar ekoloji cəhətdən təmiz və bərpa olunandır: "Adi közərmə, lüminessent, ion lampası xarab olur, yanırsa, onu atırsan. Amma bu lampalarda kontaktı yenidən bərpa etmək mümkün olur. Digər tərəfdən, onların həcmi kiçikdir, tətbiq olunan gərginlik 3-5 volta qədərdir. Küçələrdə bunlardan istifadə etməklə nə qədər enerjiyə qənaət etmək olar".

Fizika İnstitutunun elmi işlər üzrə direktor müavini Cavad Abdinov isə Trend-ə bildirib ki, ilk dəfə olaraq, mürəkkəb yarımkeçirici birləşmələr əsasında ağ işıq mənbələri yaradılıb. Artıq bu kəşf patentləşdirilib və bu barədə xarici ölkələrin jurnallarında məqalələr dərc edilib: "Yaxşı olardı ki, respublikada bu işıq mənbələrini istehsal edən zavod olsun".

Direktor müavini qeyd edib ki, adi közərmə lampalarında ağ işığı almaq üçün insan orqanizmi, canlılar üçün lazım olan Günəş şüalarının 7 rəng elementindən istifadə edilib. Amma lüminessent işıqlarda ağ işığı almaq üçün Günəş elementinin 3 rəng elementindən istifadə edilir. Qalan 4 rəng elementinin olmaması isə canlılar üçün müəyyən ziyanlı nəticələrə gətirib çıxarır.

## ƏN BÖYÜK TELESKOPUN TİKİNTİSİNƏ İCAZƏ VERİLDİ

*Avropa Cənub Rəsədxanası (ESO) Çilinin Atakama səhrasında dünyanın ən böyük teleskopunun tikintisinə icazə aldığını açıqlayıb*



Rabitə və Yüksək Texnolgiyaların Nazirliyinin Lent.az-a verilən məlumata görə, teleskopun layihəsi 2012-ci ildə təsdiq edilsə də, tikintiyə başlamaq üçün büdcənin ümumi məbləğinin 90 faizinin olması tələb olunub. Bu məbləğ isə rəsədxananın sərəncamında olmayıb, lakin Polşanın teleskopun yaradılması prosesinə qoşulması vəziyyəti yoluna qoyub.

Tikintiyə icazə aldıqdan sonra mütəxəssislər teleskopun birinci mərhələsinə start verəcəklər. Birinci mərhələyə günbəz və qurğunun əsas strukturunun yaradılması daxildir. Plana görə, bu işə 10 il vaxt sərf olunacaq.

Birinci mərhələ əsas mərhələ hesab edilir, çünki o başa çatdıqdan sonra rəsədxana mühəndisləri konstruksiyaya çatışmayan bir sıra komponentləri, o cümlədən başlıca güzgünü və əsas optik sistemi əlavə edəcəklər.

Gələcəkdə teleskop alimlərə uzaq ulduzları, ekzoplanetləri və digər kosmik obyektləri ətraflı öyrənməyə imkan verəcək. Teleskop Atakama səhrasında dəniz səviyyəsindən 3060 metr hündürlükdə qurulacaq.

Layihə sənədlərinə əsasən nəhəng qurğunun əsas güzgüsünün diametri 42 metr olacaq. Teleskopun çəkisinin isə 5 000 ton təşkil edəcəyi bildirilir. Burada berillium əsasında hazırlanmış 984 müstəqil rejimli güzgü quraşdırılacaq.

## ROMA PAPASI: "AVROPA BU GÜN DAHA ÇOX YORĞUN VƏ BƏDBİN GÖRÜNÜR"

*Roma Papası Fransisk noyabrın 25-də Strasburqda Avropa Parlamentində və Avropa Şurasında çıxış edib*



Avropa Parlamentində çıxış edən Papa Fransisk əsasən dünyada baş verən qlobal siyasi məsələlərə toxunub. Avropa quruculuğunun mərkəzləşmiş iqtisadiyyat üzərində deyil, insan şəxsiyyətinin müqəddəsliyi ətrafında qurulmalı olduğunu vurğulayan Papa dünyada davam edən iqtisadi böhrandan, insanların aclıq və səfalət içində yaşamasından, dünyada və Avropada baş verən münaqişələrdən danışıb, habelə ekstremizm və ifratçılıq kimi məsələlərə diqqət yetirib.

Avropa Şurasındakı çıxışında isə Papa Fransisk Avropa məkanında sülh və sabitliyin vacibliyini önə çəkərək, sülhün insan həyatına dərin nifrət bəsləyən və çoxsaylı gunahsız qurbanlara səbəb olan dini və beynəlxalq terrorizmin sınağına çevrildiyini bildirib: "Bu gün bizim gözümüz qarşısına yaralı Avropa şəkili gəlir. Buna səbəb isə keçmişin çoxsaylı sınaqları ilə yanaşı, hazırda baş verən böhranları əlavə etməliyik. Avropa isə bütün bunlara sanki əvvəlki kimi canlı və enerjili şəkildə diqqət ayıra bilmir. Avropa bu gün daha çox yorulmuş və bədbin görünür".

Qeyd edək ki, Vatikan Avropa Şurasının tamhüquqlu üzvü olmasa da, 1970-ci ildən etibarən təşkilat yanında müşahidəçi statusuna malikdir.

Axırıncı dəfə Roma Papası II Con Paul Avropa İttifaqı parlamentində 1988-ci ildə çıxış edib.

## ABŞ PREZİDENTİ GÖRKƏMLİ AMERİKALILARI AZADLIQ MEDALI İLƏ TƏLTİF EDİB

*ABŞ administrasiyasının rəhbəri Barak Obama noyabrın 25-də Ağ evdə keçirilən təntənəli mərasimdə aktrisa Meril Strip, müğənni və bəstəkar Stivi Uander, Çili yazıçısı İsabel Alyende və bir çox başqa görkəmli şəxslərə ölkənin ali vətəndaş mükafatı olan Prezidentin Azadlıq Medalını təqdim edib*



Bu il aralarında tanınmış ictimai xadimlər, elm, incəsənət və idman aləminin nümayəndələrinin olduğu 19 nəfər Prezident medalı ilə təltif olunub.

Qeyd edək ki, Azadlıq medalı prezident Harri Trumenin qərarı ilə 1945-ci ildə hərbi əməliyyatlarda fərqlənən şəxsləri mükafatlandırmaq məqsədi ilə təsis edilib. 1963-cü ildə Prezident Con Kennedi mükafatın təyinatını dəyişdirib və o, dinc dövrdə "ABŞ-ın təhlükəsizliyi və milli maraqlarının təmin olunmasına, ümumi sülhə, incəsənət və digər vacib ictimai və ya şəxsi işlərə töhfəyə görə" təqdim olunmağa başlayıb.

## DİKTATOR BACISINA VƏZİFƏ VERDİ



*Şimali Koreya lideri Kim Çen İn kiçik bacısı Kim Yo Çjona iqtidar partiyası hesab edilən "Əmək" partiyasında rəhbər vəzifələrdən birini verib*

Kim Yo Çjonun partiyada direktor müavini vəzifəsində çalışacağı bildirilir.

Qeyd edək ki, Kim Çen İn xalası ərini dövlətə xəyanətdə ittiham edərək öldürdükdən sonra bu təyinat onun ailəsinin dövlətdə ilk təyinatı hesab edilir.

## URUQVAYIN YENİ PREZİDENTİ

*Seçkinin noyabrın 30-da keçirilmiş ikinci turunda iixtisasca həkim-onkoloq olan 74 yaşlı Tabare Vaskes beş illik fasilədən sonra yenidən Uruqvayın prezidenti seçilib*



O bu postda Xose Muxikanı əvəzləyəcək. Məhz Tabare Vaskes 2004-cü ildə ölkənin ənənəvi sağçı siyasi qüvvələri olan "Kolorado" və Milli "Blanco" partiyalarını sıxışdırmağa nail olaraq, hakim "Geniş cəbhə" solçu koalisiyasının tarixi qələbəsini təmin etmişdi.

Yeni seçilmiş prezident maraqlı ömür yolu keçib. Tabare Vaskes 1940-cı il yanvarın 17-də Uruqvayın paytaxtı Montevideonun işçi kvartallarından biri olan La-Texada kasıb ailədə doğulub. Gənc yaşlarından ailəsinə kömək etmək üçün dülgər şagirdi, mağazada satıcı və hətta qəzet satıcısı işləməyə məcbur olan T.Vaskes eyni zamanda 1972-ci ildə Tibb Universitetini bitirib.

Bir vaxtlar "Progreso" futbol klubunun prezidenti olan Vaskes klubu üçüncü diviziondan birinci liqaya çıxarmış və 1989-cu ildə ona ölkə çempionluğunu qazandırmışdı.

Bu uğur ona əla idarəçi kimi məşhurluq gətirmiş və Uruqvay paytaxtının meri seçilməyə kömək etmişdi. 1994 və 1999-cu illərdə prezident postuna iki dəfə namizədliyini irəli sürsə də, uğur əldə edə bilməmişdi. Yalnız 2004-cü ildə üçüncü cəhddə solçu "Geniş cəbhə" koalisiyasının namizədi kimi ənənəvi sağçı siyasi qüvvələrin hegemonluğuna son qoyan tarixi qələbə qazanaraq ölkə başçısı seçilmişdi.

## YATSENYUK YENİDƏN UKRAYNANIN BAŞ NAZİRİ OLDU

*Ukrayna Ali Radası noyabrın 27-də hazırkı baş nazir Arseni Yatsenyuku yenidən bu vəzifəyə təsdiqləyib*



A. Yatsenyukun namizədliyini prezident Petro Poroşenko təqdim edib.

Qərarın lehinə 341 deputat səs verib.

1974-cü il təvəllüdlü Arseni Petroviç Yatsenyuk 2005-2006-cı illərdə iqtisadiyyat naziri, 2007-ci ildə xarici işlər naziri, 2007-2008-ci illərdə Ali Radanın sədri vəzifələrində çalışıb. 2014-cü il fevralın 27-dən bəri baş nazir vəzifəsini tutur. Son parlament seçkilərində proporsional sistem üzrə ən çox səs toplayan Xalq Cəbhəsi Partiyasının lideridir.

## QROYSMAN UKRAYNA ALİ RADASININ SƏDRİ SEÇİLİB

*Yeni parlamentdə yaranan koalisiya bu posta Petro Poroşenko blokunun liderlərindən olan Vladimir Qroysmanın namizədliyini irəli sürmüşdü*



Oktyabrın 27-də keçirilən səsvermədə V. Qroysman 359 səs toplayaraq parlamentin sədri seçilib.

Yeni sədr çıxışında bildirib ki, Ukrayna Krımı özünə qaytarmalı və Donbası bərpa etməlidir: "Biz prezidenti dəstəkləyərək məsuliyyətli qərarlar qəbul etməliyik".

Qeyd edək ki, yəhudi əsilli ukraynalı, 1978-ci il təvəllüdlü V. Qroysman bundan əvvəl baş nazirin müavini idi.

## GÜLÜMSƏYİN, İNDİ QUŞ ÇIXACAQ

*(Hekayə)*

**Kurt Vonnequt**



*Kurt Vonnequt məşhur Amerika yazıçısıdır. "Pişik beşiyi", "Titanın Sirenası", "Sallaqxana nömrə 5 və ya uşaqların səlib yürüşü", "Çempionlar üçün səhər yeməyi", "Qalapaqoslar", "Göy saqqal" və.s romanların müəllifidir. Tragikomik, satirik janrda yazdığı əsərləri ilə şöhrət qazanıb. Ölümündən iki il sonra, 2009-cu ildə "Gülümsəyin, indi quş çıxacaq" hekayələr toplusu çap olunub.*

Gecələrin birində barda oturub, zəhləm getmiş adam haqqında boşboğazlıq edirdim. Saqqallı bir kişi gəlib yanımda oturdu.

- Bəlkə onu öldürüb, bu işə biryolluq son qoyasınız? – o, dostcasına soruşdu.

- Bu haqda düşünmüşəm, - mən cavab verdim. – Niyə də öldürməyim?!

- Gəlin sizə sağlam mühakimə yürütməkdə yardımçı olum, - o, təklif etdi. Sinədən çıxan səsi, yekə burnu vardı. Qara yun kostyum geyinmişdi. Boğazına qara incə qalstuk bağlamışdı. Ağızdan pərtöv adam idi. – Siz hadisəyə nifrət nöqteyi-nəzərindən baxırsınız, - o, davam edirdi. – Sizin, işinizi planlaşdıra biləcək, elektrik stuluna gözlənilməz səyahətdən qurtara biləcək müdrik mütəxəssisin soyuqqanlılığına və xidmətinə ehtiyacınız var.

- İndi belə adamı hardan tapım?

- Siz o adamı artıq tapmısınız.

- Siz dəlisiniz.

- Tamamilə doğrudur. Bütün həyatım dəlixanalarda keçib. Bu fakt mənim xidmətlərimə xüsusi cazibədarlıq qatır. Əgər birdən sizə qarşı ifadə verməyə başlasam, onda vəkiliniz mənim məşhur dəli və cinayətkar olmağımı sübut etməkdə çətinlik çəkməz.

- Bəs cinayətiniz nədən ibarət olub?

- Heç nədən. Lisenziyasız həkimlik fəaliyyəti ilə məşğul olurdum.

- Qətlsiz?

- Qətlsiz. Amma bu heç də "qatil olmamışam" anlamına gəlmir. Əslində, məni lisenziyasız həkimlik fəaliyyəti ilə məşğul olmaqda ittiham edən az qala bütün adamları öldürmüşəm, - o, nəyisə hesablayırmış kimi tavana baxdı. – Bəlkə iyirmi iki, bəlkə iyirmi üç, bəlkə də çox. Onları illər ərzində öldürmüşəm. Hər gün qəzet oxumurdum.

- Onları öldürdükdən sonra adlarını silirdiniz və səhər duranda yenə də siyahıya baxırdınız?

- Yox, yox, nə danışırsınız, yox, yox, - o, etiraz etdi. Onların çoxusunu türmədə sərbəst olduğum zamanlarda öldürmüşəm. Mən “divarın-üstündən-pişik” texnikasından istifadə edirdim. Bunu sizə də məsləhət görürəm.

- Bu yeni üsuldur?

- Əgər bu üsulda yenilik olsaydı, çox şad olardım, - o, başını yellədi. – Amma o qədər bəsit üsuldur ki, anlaya bilmirəm niyə indiyə kimi heç kimin ağlına gəlməyib. Bundan başqa, adam öldürmək köhnə ənənədir

- Bu üsulun tətbiqində pişikdən istifadə edirsiniz?

- Pişikdən müqayisə üçün istifadə edirəm. Bax, sizə məntiqli bir sual verim. Əgər bir nəfər hər hansısa bir səbəbdən pişiyi götürüb divarın üstündən atarsa və pişik adamın üstünə düşüb, üz-gözünü cırmaqlayarsa, pişiyi atanın günahı varmı?

- Əlbəttə.

- Yaxşı, indi sualı başqa cür qoyaq: əgər pişik adamın üstünə yox, yerə düşərsə və on dəqiqə keçməmiş həmən pişik hansısa adamın üz-gözünü cırmaqlayarsa, pişiyi atanın günahı varmı?

- Yox.

- Bax, təhlükəsiz qətl törətmək üçün istifadə etdiyim “divarın-üstündən-pişik” texnikasının gözəlliyi də elə bundadır.

- Gec işə düşən bomba kimi?

- Yox, yox, yox, - solğun təxəyyülümə yazığı gəlirmiş kimi etiraz etdi.

- Tədricən öldürən zəhər kimi? İnfeksiya kimi?, - sual verməyə davam edirdim.

- Yox bu da deyil. İndi yəqin düşünürsünüz, bəlkə dediyim texnikanın açması cinayət törətmək üçün başqa şəhərdə qatil tutmaqdır, - o, özündən razı halda arxası üstə stula söykəndi – Bəlkə bu ixtiranın müəllifi elə özüməm?

- Tapa bilmədim. Təslim oluram.

- Sizə hər şeyi izah etməzdən əvvəl, arvadımın sizin şəklinizi çəkməsinə icazə verməlisiniz, - o, barmağıyla məni arvadına göstərdi. İncə dodaqları, rəngli saçları, axmaq dişləri olan arıq arvadı vardı. Barın bir küncündə oturmuşdu. Qarşısındakı pivəni içməmişdi. Arvadı dəliyə oxşayırdı, şizofreniyaya yoluxmuş adamın əzablı baxışları oxunurdu üzündən. İşıq verən “Rolleiflex” fotoaparatı vardı. Ərinin işarəsiylə bizə yaxınlaşıb, şəklimi çəkməyə hazırlaşdı.

- Bax, indi quş çıxacaq! - o, dedi.

- İstəmirəm mənim şəklimi çəksinlər, - etiraz etdim.

- Denən çiiiiiz, - o, gülümsəməyimi istəyib, fotoaparatı çıqqıldatdı, qığılcım çıxdı.

Gözüm barın qaranlıq guşəsinə sataşdı. Gördüm qadın qaçır.

- Bu nə deməkdir?! – hiddətlənib ayağa qalxdım.

- Sakitləşin. Əyləşin. Sadəcə sizin şəklinizi çəkdilər.

- Mənim şəklimnən nə etmək fikrindədir?

- Çıxartmaq fikrindədir.

- Bəs sonra?

- Bizim qızıl xatirələrimizin yer aldığı fotoalboma yerləşdirmək...

- Bu şantajdır?

- Bəlkə şəklinizi nəsə qəbahətli bir iş gördüyünüz anda çəkdi?

- Şəkil mənə lazımdır.
- Siz mövhümatçısınız?
- Mövhümatçı?
- Bəzi adamlar belə hesab edirlər ki, onların şəklini çəkdikdən sonra, fotokamerada ürəklərindən bir tikə qalır.
- Nə baş verdiyini anlamaq istəyirəm.
- Əyləşin, nə baş verdiyini deyəcəm.
- Daha tez və təfərrüatla danışın mümkünsə.
- Tez və ətraflı danışacam, dostum. Mənim adım Feliks Koradubayndır. Bu ad sizə nəyisə xatırladırmı?
- Yox.
- Mən bu şəhərdə düz yeddi il psixiatr işləmişəm. Qrup terapiyası ilə məşğul olmuşam. Güzgülü dairəvi zalda, həykəltaraşlıq nümunələri ilə zəngin sarayda, maşın dayanacağında və rənglənmiş dəfn zalında işləmişəm.
- İndi yadıma düşdü.
- Əla. İstəmirəm məni yalançı sayasınız.
- Siz fırıldaqçılıq üstündə tutulmuşdunuz.
- Elədir.
- Hətta siz orta məktəbi də bitirməmisiniz.
- Unutmayın, Ziqmund Freyd məktəbə getmədən bilik qazanmışdı. Freyd demişdi ki, güclü intuisiyanın olması, tibbi məktəbdə təhsil almaq qədər vacibdir.

O, güldü və fikrinə davam etdi.

- Mən həbs edilərkən, orta məktəbi zorən və ya istəyərəkdən bitirmiş bir cavan müxbir – bəlkə də o, kolleci qurtarmışdı – məndən paranoya haqqında danışmağımı istədi. Təsəvvür edirsiniz? Düz yeddi il şəhərin ruhi xəstələriylə işləmişəm. Bəlkə də geridəqalmış bir universitetin yalnız birinci kursunu bitirmiş bu balaca həyasız isə düşündü ki, verdiyi sualla məni tələyə salacaq.
- Paranoya nə deməkdir?
- Ümid edirəm ki, bu sualı həqiqəti tapmaq naminə verirsiniz.
- Elədir.

Əslində sualı verməkdə başqa məqsəd güdürdüm.

- Yaxşı, paranoyaya olan marağınızı elə indicə təmin etmək lazımdır.
- Elədir.

Hər şey əksinə oldu.

- Dostum, paranoik ən ağıllı üsulla dəli olmuş adama deyirlər. Bu cürə dəlilik isə dünyanın nə demək olmasını daha çox anlamaq yolundan keçir. Paranoik özünə qarşı böyük sui-qəsdin hazırlanmasına inanır.
- Bəs siz özünüz necə, belə bir sui-qəsdə inanırsınızmı?
- Dostum, məni artıq məhv ediblər! Təsəvvür edin, ildə altı min dollar pul qazanırdım. Varlı idim, qürurlu idim, xoşbəxt idim. Bayaq sizin şəklinizi çəkən bu bədbəxt qadın isə qəşəng, ağıllı və həlim təbiətliydi.

- Pis vəziyyətə düşmüsünüz.

- Doğrudan pis vəziyyətdəyəm, dostum. Özü də belə vəziyyətdə olan tək biz deyilik. Bu şəhərin minlərlə psixi xəstəsinin sağalmasına heç bir kömək göstərilmir. Bu bədbəxt kasıbların əksəriyyəti həkimlərdən qorxurlar. Mən onlara kömək edirdim. İndiysə heç kim etmir. Bəli, mən insan ürəkləri dənizində qanunsuz balıq tuturdum. Yenə bulanıq suda balıq tutmalıyam.

- Siz tutduğunuz siyahını kiməsə verirdiniz?

- Yox, yandırdım. Yalnız tanıdığım təhlükəli paranoiklərin siyahısını saxladım. Amansız dəlilər şəhərdə gizləniblər. Məsələn, paltaryuyan qadın, telefon ustası, nəbatatçı köməkçisi, liftçi və digərləri.

Koradubayn gözlərini qapadı.

- Mənim sehrli siyahımda 123 adamın adı var. Kimin qulağına nəsə bir səs gəlirsə, elə bilir kimsə gəlib ona nəsə edəcək. İstənilən qorxudulmuş adam, öldürməyə qadirdir.

Feliks Koradubayn arxası üstə söykənib gülümsədi.

- Belə görürəm, yavaş-yavaş anlayırsınız. Məni həbs edib, sonra da girov müqabilində azadlığa buraxdıqdan sonra, bayaq arvadımın sizi çəkdiyi kameranı aldım. Arvadımnan birlikdə dairə prokurorunun, tibbi assosiasiyanın prezidentinin, mənim həbsimi tələb edən jurnalistin şəklini çəkdik. Sonra arvadım hakimin, məhkəmə iclasçılarının, prokurorun və şahidlərin şəklini çəkdi. Mən paranoik xəstələrimi çağırıb, onların qarşısında üzrxahlıq elədim. Dedim səhv eləmişəm. Dedim sizə qarşı sui-qəsdin hazırlanması doğrudur. Dəhşətli bir sui-qəsdin üstünü açmağım və bu sui-qəsdin iştirakçılarının şəkillərinin məndə olmasına onları əmin etdim. Şəkildəki adamların simasını yadda saxlamağı, ehtiyatlı olmağı və həmişə silah gəzdirmələrini onlardan xahiş etdim. Vaxtaşırı şəkillər göndərəcəyimə söz verdim.

Simasına günahsızlıq qonmuş, istənilən anda adam öldürüb qaçmağa qadir dəlilərnən qaynayıb-qarışan şəhər canlandı təsəvvürümdə. Dəhşətə gəldim.

- Demək sizdə olan şəklim... – mən yazıq-yazıq dedim.

- Əgər bu söhbətimizi sirr saxlasanız və mənə pul versəniz, biz onları gözdən qoymayacağıq.

- Nə qədər verim?

- Üstünüzdə nə qədər pul varsa verin.

On iki dollar pulum vardı. Hamısını verdim.

- İndi şəklimi geri ala bilərəm?

- Yox. Üzrlü hesab edin, qorxuram qeyri-müəyyən vaxta təxirə düşsün. Necəsə yaşamaq lazımdır.

Feliks ah çəkib, pulu portmanetində gizlətdi.

- Dəhşətli zəmanə gəlib, dəhşətli... - o, donquldandı. – Kimin ağlına gələr ki, bir zamanlar hörmətli bir mütəxəssis idim.

*Orijinaldan tərcümə:*
***Ramil Rahiboğlu***

## *Teyyub Qurban - 80*

*Dekabrın 18-də Azərbaycanın görkəmli şairi, nasiri və dramaturqu Teyyub Qurbanın 80 yaşı tamam oldu. Qələm dostumuzu bu münasibətlə səmimi-qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

*T. Qurbanın yubileyi münasibətilə çapdan çıxmış "İmtahana gəlmişik" adlı iri həcmli şeirlər və poemalar kitabına ön sözü və şairin yeni şeirlərini oxucularımıza təqdim edirik.*

### İCTİMAİ FİKİR POEZİYASI



Poeziyanı, ümumiyyətlə hər hansı bir yaradıcılıq növünü ictimai fikirsiz təsəvvür etmək qeyri-mümkündür. Zaman və məkan daxilində baş verdiyinə görə hər bir yaradıcılıq prosesinin bütün hallarda bu və ya digər dərəcədə dövrün ictimai mənzərəsini əks etdirməsi labüddür. Məsələ - bu ictimailiyin nə dərəcədə təzahür etməsindədir. Əgər yaradıcılıq qismən deyil, əsas etibarilə ictimai motivdən ibarətdirsə, bu halda onun ictimai fikir, ictimai məna daşıyıcısı olmasından bəhs etmək mümkündür. Teyyub Qurbanın şeir yaradıcılığı məhz belə poeziyadır. Fikrimizi genişləndirsək, bunu onun bütün yaradıcılığına - nəsr və dram əsərlərinə, tarix mövzusunda yazdığı oçerklərə və təbii ki, publisistikasına aid etmək olar.

Yaradıcılığın nə dərəcədə ictimai olması yaradıcının fitrətən malik olduğu imkanlarla yanaşı, şəxsiyyətinin formalaşdığı konkret mühitdən çox asılıdır. T. Qurbanın mənsub olduğu ailədə nazir və digər yüksək dövlət işlərində çalışan insanlar yetişmişdir. Özü isə hələ tələbə ikən Azərbaycan Dövlət Universitetinin gənclər təşkilatına rəhbərlikdən başlayaraq respublika nəzarət orqanlarında çalışmaqla rayon icra hakimiyyətinin birinci müavini vəzifəsinədək dövlət qulluğunda şərəfli bir yol keçmişdir.

T. Qurbanın poeziyası üçün cəmiyyəti düşündürən, insanları narahat edən məsələlərə çevik və kəskin münasibət səciyyəvidir. İctimailik onun poetik düşüncə tərzinə elə sirayət etmişdir ki, adətən lirik janr hesab edilən qoşmalarının da əksəriyyəti ictimai-siyasi mövzudadır. Hətta, mənim intuitiv olaraq duyduğuma görə, lirik mövzuda yazmağa başladığı şeirdə belə, özü hiss etmədən, ictimai motivə keçir. Misal üçün, təbiətdə yaranmış mənzərənin təsvirindən ibarən olan "Başsız atlı" şeirinə diqqət yetirək:

*İldırım palıdı boynundan vurub,*
*Yaşayır meşədə başsız atlı tək.*
*Yanıq qollarıyla gör necə durub -*
*Cavan ağaclara keşik çəkərək.*

*Palıd bu torpağın suyundan içib,*
*Deyib əyə bilməz zaman qəddimi.*
*Doğma yerlər üçün başından keçib,*
*Dayanıb yaralı sərkərdə kimi.*

Adi təbiət mənzərəsinə həsr olunmuş şeirin sonunda qəfildən Sərkərdə obrazının meydana çıxması dediklərimizi təsdiq edir və oxucular kitabda digər belə şeirlərlə də rastlaşacaqlar.

Kitabın "Gözlə görünməyən körpü qurmuşam" adlı ilk bölməsində Azərbaycanımıza və ana dilimizə, Arazla ikiyə bölünmüş vətənimizə, vətən uğrunda mübarizlərə, vətən və xalq qədrini bilən insanlara həsr olunmuş şeirlərdə T. Qurbanın daha bir yaradıcılıq xüsusiyyəti diqqəti cəlb edir: adətən, belə şeirlərdə ictimai motivin şeriyyəti üstələməsi halına rast gəlmirik; şeriyyət ictimai motivi, ictimai motiv şeriyyəti yüksəldir.

"Ömrün fəsilləri" bölməsində şairin öz doğmalarına və yaxınlarına həsr etdiyi şeirlərlə yanaşı, təmasda olduğu və dostluq etdiyi görkəmli sənətkarlar, nadir insanlar, doğma məktəb, doğma kənd və digər mövzularda yazdığı poetik nümunələr toplanmışdır və onlar da yalnız müəyyən əhval-ruhiyyənin poetik təcəs-

sümü olmayıb, eyni zamanda dövrün ictimai mənzərəsini əks etdirirlər. Oxucu bu bölmədəki ən intim şeirlərdə də ictimai motivlərlə üzləşəcək.

"Qoşmalar" bölməsində, yuxarıda qeyd etdiyim kimi, həm ictimai-siyasi məzmunlu, həm də lirik-aşiqanə mövzuda olan qoşmalar verilmişdir. Bu bölmədəki lirik qoşmalar və "Sən mənimlə olanda..." adlanan sonrakı bölmədə toplanmış sevgi şeirləri T. Qurbanın məhəbbət dünyasını əks etdirən poetik nümunələrdir. Bu şeirlərin səciyyəvi cəhəti ondan ibarətdir ki, şairin lirik qəhrəmanı sevgilisi önündə diz çökən aşiq yox, məğrur və öz haqqını bilən, sevgisi müqabilində saf və səmimi münasibət gözləyən insandır.

"Mənzumələr" bölməsində T. Qurbanın sayca az, lakin məzmunca dərin süjetli şeirləri verilmişdir.

Kitabın "Meyxanalar, satiralar" bölməsi haqqında bir qədər geniş söz açmağa zərurət duyuram. Məsələ bundadır ki, qəzəl janrının sonuncu böyük ustadı olan Əliağa Vahidin həm də bizə miras qoyduğu mükəmməl meyxanalardan və bir neçə Bakı şairinin bu yolu layiqincə davam etdirməsindən sonra bu janr tənəzzülə uğramış, son illərdə televiziya kanallarının onu dirçəltmək təşəbbüsü isə əsində janrın məsxərə obyektinə çevrilməsi ilə nəticələnmişdir. Belə bir vaxtda T. Qurbanın bu kitabda verilmiş meyxanaları həm forma etibarilə, həm də məzmunca mükəmməlliyi ilə meyxana söyləmək iddiasında olanlara, eyni zamanda oxucu və tamaşacılara bir örnək, bir nümunə olmalıdıt. Bu bölmədə verilmiş satirik şeirlər də meyxanalarda olduğu kimi, dərin ictimai məzmunu ilə diqqəti cəlb edir.

Kitabda "Yaşayan ömür" mənzum romanı, "Sara" və "Bülbülə" poemaları verilmişdir. Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş "Yaşayan ömür" mövzu əhatəsinin genişliyi ilə mənzum roman janrının tələblərinə çavab verən siqlətli bir əsərdir. Hacının nakam qızı Saranın həyatından bəhs edən "Sara" poeması haqqında da eyni sözləri söyləmək olar. "Bülbülə" poeması isə koloritin zənginliyinə görə misli olmayan bir əsərdir. Hər üç əsər dərin ictimai-siyasi məzmunu və şeriyyəti etibarilə T. Qurban yaradıcılığının ən dəyərli nümunələridir.

"İmtahana gəlmişik" T. Qurbanın öz 80 illiyi münasibətilə oxuculara təqdim etdiyi, poetik yaradıcılığının bütün zənginliyi ilə əks olunduğu möhtəşəm bir kitabdır və əminik ki, böyük maraqla qarşılanacaqdır.

*Qorxmaz Quliyev,*
*filologiya elmləri doktoru,*
*professor*









# *Teyyub Qurban*

## *Şeirlər*

### ATA

Sən mənim nənəmin yadigarısan,
Sən mənim babamın şah vüqarısan.
Anama sevgili, mənə atasan,
Ən böyük aşiqsən, ən güclü insan.

Neçə qış görmüsən, neçə də bahar,
Qayğımı çəkərək ağarmış saçlar.
O saçlar ağarmış – qara görməyim,
Qəlbimdə sızlayan yara görməyim.
O saçlar ağarmış, günüm ağ olsun,
O saçlar ağarmış, canın sağ olsun.

Alnın qırışmış ki, çox düyünləri
Oğul əllərilə tənha açmayım.
Yalnız xatırlayıb şıltaq günləri,
Hünər meydanından geri qaçmayım.

Günəş işıqlıdır gözlərin sənin,
Atalar sözüdür sözlərin sənin.
İgidlər içində bir pəhləvansan,
Heç vaxt bükülməsin dizlərin sənin.

Qafilin sözünə baxmamısan sən,
Qurub-yaratmısan, yıxmamısan sən.
Bir də ona görə istərəm səni,
Anamı göz üstə saxlamısan sən.

### ANAM HARA GETDİ, KƏND ORA GƏLDİ

Kəlağayı üstdən şalını salıb
Köhnə darvazadan yola düzəldi.
Bir neçə aylığa kənddən ayrılıb
Anam bacımgilə - şəhərə gəldi.

O düşüb qatardan "taksi" əylədi,
Yaxşı tanıyırdı qədim şəhəri.
"Ura! Nənə gəldi!" Tüğyan eylədi
Çıxıb pişvazına gül nəvələri.

Qatıb sözlərinə duzu, şəkəri,
Can-ciyərlərini basdı bağrına.
Atıb xalça üstə döşəkçələri
Yerdə bardaş qurdu ehmalca ana.

Un verin, bal verin, bir azca da yağ...
Ana əllərinə heyran olduq biz.
Razılıq eylədi hey oğul-uşaq,
Min bərəkət tapdı sadə süfrəmiz.

Layla çalmağı da öyrəndi ondan
Gör neçə mənzildə neçə gənc ana.
Uşaqlar gözünü çəkib ekrandan
Daldılar nənənin nağıllarına.

Bizim evimizdə yaradıb kəndi,
Qohum-qonşuya da baş çəkdi bir-bir.
Anam hara getdi, kənd ora gəldi,
Bu necə möcüzə, bu necə sirdir?!

### SƏNDƏN OLDU KƏNDİMİN SÖHBƏTİ SƏNDƏN SONRA

Səndən oldu kəndimin söhbəti səndən sonra,
Qırmadı ismin ilə ülfəti səndən sonra.

Bir ağsaqqal idin, biz yığışardıq başına,
Yaşasın el-obanın adəti səndən sonra.

Elə bir dərya idin, boldu suyun inciylə,
Düşdü dərya suyunun qiyməti səndən sonra.

Aləmin fırçan ilə hüsnü başqa aləmdi,
Dəyişdi təbiətin surəti səndən sonra.

Göz yaşı boğdu məni, çay soyudu süfrəmdə,
Acı bildim içilən şərbəti səndən sonra.

Ayrılıq daşı atıb varlığımı parçaladın,
Ayinəm əks eləyir həsrəti səndən sonra.

Əmircan Səttar ilə Teyyubun vüqarı idi,
Əyildi can evinin qaməti səndən sonra.

*1974*

## DAHA MƏHƏBBƏTDƏN YAZA BİLMİRƏM

Daha məhəbbətdən yaza bilmirəm,
Qələm götürməyə heç halım yoxdur.
Neyləsin, neyləsin can həkimləri,
Hanı dərmanım ki, mən alım, yoxdur.

Sanki yuxudayam... şirin, şipşirin,
Vallah, bu yuxudan ayılmaq çətin.
Məni dindirməyin, məndən yan ötün,
Mənim də sizlərə sualım yoxdur.

İnanın, sevənlər, inanın bu dəm
Teyyubun gözünə görünmür aləm.
Daha məhəbbətdən yaza bilmirəm,
Vüsala çatmışam, macalım yoxdur.

## ON SƏKKİZ YAŞIN VAR...

On səkkiz yaşın var...
Sevdiyim nəğmə
Səsləndi dodaqda on səkkiz dəfə.
Bu söz bəstəsindən on səkkiz kəlmə
İncini əlimlə düzdüm sədəfə.

On səkkiz yaşında on səkkiz sətir
Bir şeir kimisən, adı - məhəbbət.
On səkkiz kitablıq nağıl, əsatir
On səkkiz yaşında adi məhəbbət.

On səkkiz yaşın var...
On səkkiz yelkən
Açdı qanadını mavi dənizdə.
On səkkiz yaşında on səkkiz yerdən
Qaranquş göründü pəncərənizdə.

Fəqət dəstədə gül tək olsun gərək,
Elin dediyinə sənin nə sözün?
On səkkiz yaşında on yeddi çiçək
Gətirdim mən sənə... bir çiçək özün.

## BU AYRILIQ NƏDƏN OLDU – UZAQDASAN

Bu ayrılıq nədən oldu – uzaqdasan,
Gözləməkdən göz yoruldu – uzaqdasan.

Əllərinə illər boyu əlim çatmaz,
Hicran yolu uzun oldu – uzaqdasan.

Gülə-gülə könül açıb gəldim dilə,
Bir söylədim, iki qaldı – uzaqdasan.

Atəşlərə yana-yana pərvanələr,
Səni məndən xəbər aldı – uzaqdasan.

Görünərdin hər fəsildə günəş kimi,
Fəsillərim birdən soldu –uzaqdasan.

İlk məhəbbət vüsalının sorağında
Nəğmə susdu, ürək doldu – uzaqdasan.

Teyyub, səndən üz döndərib getdi o yar,
Yanındaydın, elə bildi – uzaqdasan.

## GÖZLƏ GÖRÜNMƏYƏN KÖRPÜ QURMUŞAM

Gözlə görünməyən körpü qurmuşam
İnsanla, torpaqla, güllə, çiçəklə,
Bir saf arzu ilə, bir pak diləklə.
Körpüm körpüsüdür səmimiyyətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Vətən düzlərinin üfüqlərindən,
Vətən göylərinin şəfəqlərindən.
Körpüm körpüsüdür bu ülviyyətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Nəsimi babamın əqidəsiylə,
Xaqani babamın qəsidəsiylə.
Körpüm körpüsüdür şerin, sənətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Arazın danışan dalğalarından,
Savalan dağının təzə qarından.
Körpüm körpüsüdür bu təbiətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Hörmüşəm canımın rişələrindən.
Yaşaram dünyada öz dünyamla mən,
Körpüm körpüsüdür əbədiyyətin,
Məni bu aləmdən qoparmaq çətin.

*1983*

## SOSİAL ŞƏBƏKƏLƏR: AİLƏ DAĞIDIR, YA ÜNSİYYƏT YARADIR?

*"Global Stats" statistik mərkəzinin hesablamalarına görə, son bir ildə Azərbaycanda "Facebook" sosial şəbəkəsinin istifadəçilərinin sayı kəskin artsa da, "Youtube" və "Twitter" sosial şəbəkələri ilə bağlı vəziyyət fərqli olub.*

*Ölkəmizdə "Facebook" sosial şəbəkəsinin payı 23,3 faiz artaraq sosial media bazarının 89,73 faizini təşkil edib. İstifadəçi marağına görə, ikinci yeri (2,9 faiz) "Youtube" sosial şəbəkəsi tutub. Üçüncü yerdə 2,24 faiz bazar payı ilə "Twitter" sosial şəbəkəsi yerləşib.*

*Eyni zamanda, "Odnoklassniki" şəbəkəsinin Azərbaycanda bazar payı 1 faizdən aşağı düşüb, halbuki, ötən ilin müvafiq dövründə bu rəqəm 5,11 faiz təşkil edirdi.*

*"Azərbaycanda sosial şəbəkələrə qoşulanların sayı 2 milyona çatıb". Bu barədə isə Lent.az-a rabitə və texnologiyalar nazirliyinin mətbuat xidmətinin rəhbəri Musfiq Əmirov məlumat verib. Onun sozlərinə görə, "Facebook" abunəçilərinin sayı isə milyon yarıma yaxınlaşıb. Bu da o deməkdir ki, Azərbaycanda hər 4-5 nəfərdən biri internet istifadəcisidir.*

### SOSİAL ŞƏBƏKƏLƏRİN AİLƏ MODELİNƏ MÜSBƏT VƏ MƏNFİ TƏSİRİ

İnformasiya Texnologiyalar İnstitutunun "İnternetşünaslıq problemləri" sektorunun müdiri Rasim Mahmudovun fikrincə, adətən sosial şəbəkələrin faydalarından danışılmır: "Daha çox fəsadlarından danışılır. Məsələn, internet ailə dağıdır: "Yoldaşım "Facebook"da başqa adamla tanış olub, ailəmizi dağıtdı". Lakin demirlər ki, biz "Facebook"da tanış olub evlənmişik. Sosial şəbəkələr vasitəsi ilə tanış olub ailə qururlar. Bu sosial şəbəkələrin ailə modelinə müsbət təsiri. Cəmiyyətdə buna rəy yaxşı olmadığından, qeyri-ciddi yanaşıldığından ailələr bunu ictimailəşdirmirlər. Gizli saxlayırlar. Son zamanlar internet vasitəsi ilə tanış olub ailə quranların sayı həddindən çoxdur. İnternetdə tanış olub ailə qurmağın heç bir qəbahəti yoxdur. İnternet sadəcə vasitəçi kimi qonşunu, xalanı, bibini əvəz edir".

R. Mahmudov onu da deyir ki, eyni zamanda internet ailələrin dağılmasında katalizator rolunu oynayır: "İnternet vasitəsi ilə ər, ya arvad kiminləsə tanış olur. Başlayır yazışmağa, görüşməyə. Bəzən elə olur ki, ailələr boşanma həddinə çatır. Yaxud boşanmadan ər, ya arvad özünə sevgili tapır, onunla ünsiyyətdə olur. Bu da internetin ailə modelinə mənfi təsiridir. Amma bunu sadəcə internetə bağlamaq düzgün deyil. İnternet o insan üçün əlverişli mühit yaradır. Ona qalsa, insanlar iş yerində də, küçədə də yeni adamlarla tanış ola bilər. Əvvəllər insanlar telefon vasitəsi ilə tanış olurdular. Qızlar, oğlanlar tanımadıqları nömrələrə zəng edir, ünsiyyət qururdular. Bunlar hamısı əslində insanın öz tərbiyəsi, mənəviyyatı ilə bağlı məsələlərdir.

Kommunikasiya imkanları genişdir. Bundan mənfi, yaxud müsbət dərəcədən istifadə etmək insanın öz dünya görünüşündən, əxlaqından asılıdır. Həyatda necədirsə, internetdə də özünü elə aparacaq".

### SOSİAL ŞƏBƏKƏDƏ TANIŞLIQ



"Təmiz dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova mövzuyla əlaqədar təcrübəsində baş vermiş ailədaxili münaqişələrdən danışır. Hadisə rayonların birində baş verib.

- Qadının əri evliliklərinin elə ilk həftəsində qızı evdə qoyub Rusiyaya gedir. Evdə tək qaldığından qayınanasıgil gəlin əriylə internet üzərindən danışsın deyə evə kompüter alır. "Facebook"da qeydiyyatdan keçən qız bir oğlanla tanış olur. Bİr müddət danışıb dərdləşirlər. Qız ərinin onu qoyub getdiyini və tək

darıxdığını deyir. Həmin oğlan da başlayır bu qıza sevgidən, eşqdən danışmağa. Beləcə, qızı ələ alır. Və bir gün qız bu oğlana görə, evdən qaçır. Təsadüfən polis onların olduqları məkanda reyd keçirir və qız aşkarlanır. Hüquq mühafizə orqanları qızı göndərdilər bizim sığınacağa. Burda psixoloji və digər yardımları göstərmək istəsək də, qohumlarının basqısıyla qız evinə qayıtdı. Sonra eşitdik ki, əri təcili Rusiyadan qayıdıb. Qızın ailəsi baş vermiş hadisəni oğlanın ailəsindən gizlətsə də, oğlan məsələni öyrənir və qızı öldürməklə hədələyir. Atasının evində bir müddət qalandan sonra o qız yenə evdən qaçdı. Hazırda qızın harda və kiminlə olduğu haqda heç bir məlumat yoxdu.

M. Zeynalova oxşar hadisənin yaxın vaxtlarda başqa rayonda da baş verdiyini deyir. O bildirir ki, sosial şəbəkələrdən birində başqasıyla tanış olan qadın evdən qaçıb. İndi əri onu öldürmək üçün axtarır. Və bütün kənd camaatı qadının öldürülməsini dəstəkləyir.

Təcrübəsində bu kimi hadisələrə çox rast gəlib. İnternet ondan düzgün istifadə etməyənlər üçün bir tələdir. Nəinki evli qadınlar, hətta subay qızlar da internetin qurbanına çevrilir. Yeni tanışlar bir yolla qızın şəklini əldə edir və bundan sonra onun şəklini internetdə yayacağı ilə şantaj edib, pul tələb edənlər də var.

**SOSİAL ŞƏBƏKƏLƏR AİLƏDAXİLİ MÜNAQİŞƏLƏRƏ RƏVAC VERİR?**



Psixologiya Konsultasiya Mərkəzinin (PCC) rəhbəri, psixoloq Elnur Rüstəmov deyir ki, sosial şəbəkələr ailə daxili münasibətlərin pozulmasına şərait yaradır: "Ailə mövcuddursa, orda problem ola bilər, narahatçılıq da. Bu ailədən də qaynaqlana bilər, qaynaqlanmaya da. Ola bilsin ki, kişinin atası, yaxud bacısı rəhmətə getsin, içində boşluq olsun. Bunlar olan faktorlardır Məsələ ondadır ki, bu boşluqlar necə doldurulur?! Bu zaman sosial şəbəkələr başlayır dırnaqarası psixoloq rolunu oynamağa. Orda kiminləsə yazışır, söhbət edir. Biri var işgüzar söhbət, biri var mənəvi. Nəticədə emosional bağlılıq yaranır. İnsan özünü qarşı tərəfə borclu hesab edir, onun üçün yaxşı olmağa, onunla ünsiyyətdə olmağa çalışır, onsuz darıxır. Və bütün bunlar zaman keçdikcə ailə daxili münaqişələr, konfliktlər yaratmağa başlayır. Sosial şəbəkələr bu işdə insanları təhrik edir, ailə daxili münasibətlərin pozulmasına rəvac verən funksiyanı yerinə yetirir.

İnsanlar, xüsusən də ailələr diqqətli olmalı, qabaqlayıcı tədbir görməlidirlər. Söhbət ailədən gedirsə, mövcud problemin həlli yollarından biri sosial şəbəkələrin, mobil telefonların şifrəsi olur. Bu şifrəni həyat yoldaşlarının bilməsi vacibdir. Ən azından bu tərəflər arasında məsuliyyət, güvən yaradacaq. Yox, əgər kiminsə xislətində xəyanət etmək varsa, o başqa adla sosial şəbəkədə qeydiyyatdan keçəcək və məqsədinə çatacaq. Elə ailələr var ki, qadının ehtiyatdan 1-2 dənə də telefonu var. Kişi evə qalxanda gizlədir. Bu ayrı bir problemdir. Ümumi problemdən danışırıqsa, ailə daxili münasibətlər şəffaf olmalıdır və tərəflərin bir-birinin qarşısında öhdəliyi olmalıdır".

**NƏ ETMƏLİ?**

E. Rüstəmov sosial şəbəkələrin ailə modelinə müsbət təsiri olduğunu da deyir: "Ailəvi tədbirlərin işıqlandırılması ailə daxilində münasibətlərin yaxşı olmasına şərait yarada bilər. Burda da yenə ehtiyatlı olmaq lazımdır. Yaxud qohumlar arasında ünsiyyət saxlamaq üçün internet yaxşı vasitədir.

Sosial şəbəkələrdə hədindən artıq vaxt keçirilməməli, daha çox ailə, uşaqla ünsiyyətdə olunmalıdır. Bəzən buna görə ailələrdə yuxu rejimi də pozulur. Ana uşağıyla maraqlanmalı, uşaq yatandan sonra sosial şəbəkələrdə vaxt keçirməlidir.

Amma internetdən istifadə asılılıq vəziyyətinə gəldikdə vəziyyət çox pis nəticələnir".

*Ləman Mustafaqızı,*
*Lent.az*

*21.11.2014*

# KƏLAĞAYI BÖYÜK BİR ALƏMDİR

*Minilliklər boyu tarixin sınaqlarından alnıaçıq çıxan xalqımız bu yaxınlarda daha bir uğura imza atdı. Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildi. Beləliklə, bu sənət Azərbaycan xalqının milli mənəvi dəyərlər sisteminin ən mühüm mədəniyyət nümunələrindən biri kimi beynəlxalq səviyyədə təsdiq olundu.*



**Kəlağayı sənətinin tədqiqi ideyası necə yarandı**

Bolqarıstanda Azərbaycan səfirliyinin və bu ölkənin Xarici İşlər Nazirliyi yanında fəaliyyət göstərən Dövlət Mədəniyyət İnstitutunun birgə təşkilatçılığı, Sofiya İcra Hakimiyyətinin dəstəyi ilə Azərbaycan kəlağayı sənətinin təqdimatı oldu. Təqdimat mərasimində Bolqarıstanın dövlət və hökumət rəsmiləri, bu ölkədə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, mədəniyyət və ictimaiyyət xadimləri, həmvətənlilərimiz iştirak ediblər.

Sofiya Şəhəri İcra Hakimiyyəti başçısının müavini Mariya Boyadjiyska, Dövlət Mədəniyyət İnstitutunun direktoru Lyudmila Dimitrova tədbiri bolqar ictimaiyyətinin Azərbaycan kəlağayı sənəti ilə daha yaxından tanış olması baxımından yüksək dəyərləndiriblər.

Beləliklə, qədim sənətimiz Bolqarıstan ictimaiyyətini də valeh etdi. Azərbaycanda istehsal olunan milli qadın baş örtüyü kəlağayı insanların qəlbini rahatlandırır, ən dərin duyğularını oyadır, onlara istidə dağların sərinliyini, soyuqda günəşin hərarətini bəxş edir.

Bir-birini əvəzləyən bu sevindirici xəbərlərin bütün dünyanı dolaşdığı bir məqamda Bakı Dövlət Universitetinin kafedra müdiri, "İnkişaf" Elmi Mərkəzinin üzvü Rəna İbrahimbəyova ilə görüşən AzərTAc-ın əməkdaşları onun kəlağayı sənəti ilə bağlı fikirlərini geniş oxucu auditoriyasına çatdırır.

Bolqarıstanda Azərbaycan kəlağayısının təqdimatında iştirak etmiş həmsöhbətimiz bildirdi ki, bu tarixi hadisə ilk növbədə Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın milli mənəvi dəyərlərimizin qorunmasına, mədəniyyətimizin inkişafına böyük dəstəyinin parlaq nəticəsidir.

Kəlağayı sənətinin tədqiqi ideyası Rəna İbrahimbəyovanın BMT-nin "Gender inkişafı" layihəsində iştirakından sonra yaranıb. O xatırlayır: "Gender layihəsi çərçivəsində xaricə gedib-gəlir və əcnəbilərə kəlağayı bağışlayanda onların buna böyük maraqla yanaşdığını görürdüm. Hətta BMT-nin 37-ci sessiyasında moderator çəhrayı rəngdə kəlağayını çiyinə atıb iclası aparırdı.

Bütün bunları görərək, bu zərif ipək məmulatını daha dərindən tədqiq etmək qərarına gəldik. Araşdırmalarımız seçimimizin düzgün olduğunu təsdiqlədi".

**Kəlağayı sülh və əmin-amanlıq rəmzidir**



Kəlağayıya aid ilk sərgi ölkəmizdə 2005-ci ildə keçirilib. Sonralar Azərbaycan kəlağayısı Türkiyə, Gürcüstan, Macarıstan, Avstriya, İtaliya, ABŞ, Belçika, Malayziya və digər ölkələrdə müxtəlif sərgilərdə nümayiş olunub. Kəlağayının vətəni Azərbaycanın şimal-qərbində yerləşən qədim Basqaldır.

Bu baş örtüyü mütləq ipəkdən, kvadrat formasında olmalı, hazırlandıqdan sonra rənglənməli və naxışlanmalıdır. Kəlağayı məxsusi ipəkdən hazırlanır. Bu ipəyin sapları çox incə, eyni zamanda çox davamlı, yüngül və uzunömürlüdür.

Kəlağayının kənarları (yeləni) və ya mərkəzi (xonça), adətən nabati, geometrik ornamentlərlə bə-

zədilir və hər biri təkrarolunmazdır.

Tarixən sosial, ictimai həyatımızın, münasibətlərimizin bir hissəsinin kəlağayı ilə tənzimləndiyini qeyd edən R.İbrahimbəyova deyir: "Ənənəyə görə uşaq dünyaya gələndə onu anasının gəlin gedərkən başına örtdüyü qırmızı kəlağayıya bükərdilər. Sonradan isə həmin kəlağayını zahı qadın 40 gün belinə bağlardı ki, təzədən öz formasına qayıtsın. İnsan dünyanı tərk edəndə isə mafənin üstünə kəlağayı atırlar.

Kəlağayı qadınlarımızın isməti, sülhün, əmin-amanlığın rəmzidir. Müharibənin, qan tökülməsinin qabağını almaq istəyən analarımız, nənələrimiz döyüşən tərəflərin arasına kəlağayı atanda onlar dayanırdı. Qızlar sevdikləri oğlanın elçi göndərməsinə razılıqlarını ona kəlağayısını verməklə bildirərdilər.

Vaxtilə qadınlar bölmə kəlağayı (kəlağayının dörddə bir hissəsi) ilə başlarına "dingə" bağlayır, sonra iri kəlağayını örtərdilər".

**Kəlağayını kişilər hazırlayır**



Heç kəs təəccüblənməsin. Xanımlar bilməlidirlər ki, kəlağayını kişilər hazırlayır. Hər kəlağayıda rənglərin, naxışların dili ilə kişilərin qadınlara münasibəti, hissləri, duyğuları əks olunur.

Bu ipək baş örtüyü basmanaxış üsulu ilə bəzədilir və həyatda baş verən hadisələrin ruhuna uyğun şəkildə rənglənir. Məmulatın rənglənmə ardıcıllığı var. Boyaqçının işi isə xüsusidir, belə ki, küpxananın açarı ancaq onun özündə olur və sirrin açılmaması üçün iş vaxtı heç kəsi içəri buraxmır. Beləliklə də, kəlağayı göz oxşayan, solmayan, müxtəlif rənglərlə boyanılır. "Boyaqçıya nəzir düşür" atalar sözü bəlkə də burdan qaynaqlanır.

Azərbaycan əhalisi bir yerdən digər yerə köçəndə də kişilər yeni məkanda birinci olaraq kəlağayı hazırlayıblar.

Çəkisi cəmi 130 qram olan kəlağayı üzükdən rahatlıqla keçir.

Naxışlarına, rənglərinə görə fərqlənən kəlağayıla-



rın zirvəsi isə "Yeddirəng kəlağayı"dır. Onu doqquz dəfə qaynadır, rəngləyir, qurudurlar.

**Harada ipək var, orada zənginlik var**

İpəkçilik Azərbaycanda tarixən nüfuzlu, gəlirli sahə hesab olunur. Nahaq yerə demirlər ki, harada ipək var, orada zənginlik var.

Bu gün Basqal İpək Mərkəzində interaktiv muzey fəaliyyət göstərir ki, ziyarətçi orada həm kəlağayının hazırlanması prosesi ilə tanış olur, həm də onun tarixinə dair biliklər alır. Ən maraqlısı isə odur ki, bu muzeydə ziyarətçiyə kəlağayının hazırlamasında şəxsən iştirak etmək imkanı yaradılır.

Artıq kəlağayının konsepsiyası yaradıldığını qeyd edən R.İbrahimbəyova deyir: "Biz tarixi kəlağayını bərpa etmişik. Çox istərdim ki, bu baş örtüyündən gənc qızlar da istifadə etsinlər. Bu məqsədlə bölmə kəlağayılar, şərflər da hazırlanır. Çalışırıq ki, kəlağayını müasir şəraitə uyğunlaşdıraq".

Bütün bu çətin və maraqlı işlərdə Rəna xanıma ömür-gün yoldaşı, inşaatçı, Azərbaycan Rəssamlar İttifaqının üzvü Cəlil Tarıverdiyev hər zaman dəstək olur.

Rəna İbrahimbəyovanı dinlədikcə, onun kəlağayıya və bu sənətə sonsuz sevgisini görürük. İnsanda belə bir əminlik yaranır: nə qədər ki, belə insanlar var, xalqımıza məxsus bənzərsiz sənət inciləri daim yaşayacaq. Ölkələr dolaşaraq Azərbaycanı bütün dünyada tanıdacaq.

*Gözəl Ağayeva, Tərgül Ağayeva,*
*AzərTAc*
06. 12. 2014

## İVONNO KEZBERE: MƏN AZƏRBAYCANIN VURĞUNUYAM



Mən Azərbaycanın vurğunuyam və hədsiz qonaqpərvərliyinə, adamı heyran edən dağ mənzərələrinə, Azərbaycan mətbəxinin unudulmaz ləzzətinə, ənənələrinə görə hələ də bu ölkəni çox sevirəm. Bu sözləri Latviyanın "Spare"Turizm Agentliyinin təsisçisi İvonno Kezbere AzərTAc-ın müxbiri ilə söhbətində deyib.

İ.Kezbere ilk dəfə Bakıya 2004-cü ildə Latviya Prezidenti Vayra Vike-Freyberqanın Azərbaycana səfəri zamanı gəlib. O, nümayəndə heyətinə daxil idi və turizm sahəsini təmsil edirdi. İ.Kezbere təəssüratlarını bölüşərək deyir: "Azərbaycana ilk səfərim zamanı başa düşdüm ki, bu ölkə Latviya turistində mütləq maraq doğuracaq. Oktyabrda Latviya Prezidentinin səfəri çərçivəsində Bakıda keçirilmiş biznes forumunda turizm firmaları ilə tanış oldum. Yanvar ayında artıq mən Azərbaycana konkret məqsədlə - ölkənin regionlarını turist kimi gəzmək məqsədilə gəldim. Beləliklə, mən Şəkini, Lənkəranı, Qubanı gördüm".

Turizm agentliyinin direktoru deyir ki, Latviyaya qayıtdıqdan sonra o, bu şərq ölkəsinə olan məhəbbətini bizneslə məşğul olan dostlarına və tanışlarına da aşıladı. Onlar "Spare" agentliyinin Azərbaycana göndərdiyi ilk turistlər oldular. İ.Kezberenin dostlarının ilk getdikləri rayon Şəki oldu. Oraya təqribən 6 saata gedib çıxdılar. Bu, 10 il əvvəl olub və o zaman ölkənin regionları belə abad deyildi, bugünkü kimi modernləşdirilməmişdi.

İvonno Kezbere deyir: "Agentliyimizin saytında biz Latviya turistlərini Şərq ilə Qərbin qovşağında, İpək yolunda yerləşən Azərbaycandan zövq almağa dəvət edirik. Biz Azərbaycanın Latviyadakı səfirliyi ilə sıx əməkdaşlıq edirik". İ.Kezbere qeyd edir ki, şübhəsiz, Latviya ilə Azərbaycan arasında turist mübadiləsi artır. "Spare" Turizm Agentliyinin təsisçisi deyir: "Lakin Latviyaya, eləcə də Azərbaycana turist axını yolunda əsas əngəl daimi birbaşa aviareysin olmamasıdır". O əmindir ki, turizm sahəsi mədəni potensialın qorunub saxlanmasına və inkişafına təsir göstərir, müxtəlif ölkələr və xalqlar arasında münasibətlərin harmoniyasına səbəb olur.

İ.Kezbere deyir: "Turizm agentliyimiz həm də idman turizmi ilə, tibbi turizmlə məşğul olur. Artıq beş ilə yaxındır ki, turizm firmamız AFFA ilə sıx əməkdaşlıq edir, Latviyada, həmçinin 15-dən artıq ölkədə Azərbaycan yığmaları üçün təlim-məşq toplantıları keçirir. Tibbi turizm sahəsində də təcrübəmiz var, biz azərbaycanlı müştərilərimizə tibb müəssisəsi və müalicə edən həkim seçməkdə kömək göstərmişik".

Oktyabrın axırlarında "Spare" Turizm Agentliyi Azərbaycan rəssamı Məryəm Ələkbərlinin rəsm sərgisinin təşkilinə kömək göstərib.

- İ.Kezbere qeyd edir ki, bu sərgi agentliyin ən gözəl və maraqlı mədəni layihələrindən biri olub. O deyir: "Layihə hazırlanarkən biz bu Azərbaycan rəssamına və onun işlərinə vurulduq. Bizə indi də zəng edib onun rəsmlərini soruşurlar. Riqalılarda belə bir fakt maraq doğurub ki, Daun sindromu olan bu istedadlı qız valideynlərinin səyi və məhəbbəti sayəsində öz nadir qabiliyyətini təkmilləşdirib. Bu, latviyalı uşaqlar üçün də nümunə olub".

İvonno Kezbere hesab edir ki, "Məryəm Ələkbərlinin rəsmlərindən ibarət sərgi, Azərbaycan incəsənətinə maraq bizi Azərbaycan Mədəniyyəti Günləri təşkil etməyə ruhlandırdı. Bizə Azərbaycan xalçalarının sərgisini keçirmək ideyası ilə müraciət edirlər. Azərbaycan mədəniyyəti, Şərq özü avropalılar üçün yeni, öyrənilməmiş dəyərlər, ənənələrdir".

Azərbaycan paytaxtı haqqında təəssüratlarını bölüşən İ.Kezbere qeyd edir ki, 10 ildə Bakı çiçəklənən Avropa şəhərinə çevrilib. İvonno Kezbere deyir: "Yola düşməzdən əvvəl mütləq gəzib bazarlıq etdiyimiz Azərbaycan bazarlarının təkrarsız koloriti, həm milli mətbəx, həm məşhur ənənəvi Azərbaycan qonaqpərvərliyi və səmimiyyət turizmin inkişafı üçün, Latviya turistinin Azərbaycana cəlb edilməsi üçün əlverişli amillərdir".

*Nigar Cəfərli,*
*AzərTAc-ın xüsusi müxbiri*
*Riqa*
*20.11.2014*

## NOBEL MÜKAFATI NİŞANI TARİXDƏ İLK DƏFƏ HƏRRACDA SATILDI

*DNT strukturunu ilk icad edən amerikalı alim Ceyms Uotsonun sahibi olduğu Nobel mükafatı nişanı Nyu - Yorkda Christie's hərrac evi tərəfindən 4,1 mln dollara satılıb*



Beləliklə, elm sahəsində ən yüksək mükafata layiq görülmüş 86 yaşlı Ceyms Uotson mükafatının nişanını satmağa qərar vermiş ilk Nobel laureatçısı olub.

Bundan başqa, Ceyms Uotsonun 1962-ci ilin dekabrın 10-da Stokholmda Nobel Komitəsinin təntənəli mərasimində çıxışı üçün hazırladığı əlyazma tezislər 300 min dollara satılıb. Həmçinin, Ceyms Uotsonun mühazirəsinin hərraca çıxarılan əlyazma və qaralaması isə 200 min dollara satılıb.

Alim əldə ediləcək vəsaitlərin xeyriyyə tədbirlərinə xərcləyəcəyini bildirib.

## İŞ YERİNDƏ YATMAQ ƏMR OLUNDU

*Çindəki zavodlardan birində çalışan işçilərə nahar fasiləsindən sonra iş yerində yarım saat yatmaq tapşırılıb*

Quandun vilayətindəki zavodlardan birində fəhlələr və əməkdaşlar hər gün nahar fasiləsindən sonra 30 dəqiqə rahatlanmalı, dincəlməli, istirahət etməlidirlər. Onlar elə iş yerlərində yuxuya gedirlər. Rəhbərliyin fikrincə, belə qısamüddətli istirahət əmək məhsuldarlığını təqribən 30 faiz artırır.

## MİLYONÇU DOĞULDUĞU KƏNDDƏKİ HƏR BİR AİLƏYƏ EV HƏDİYYƏ EDİB

*Metallurgiya sahəsində milyonlar qazanmış çinli biznesmen Syun Şuixua doğulduğu kənddəki hər bir ailə üçün dəbdəbəli ev tikdirib*



Milyonçu bu yolla kasıblıq içində yaşadığı kiçik yaşlarında onunla mehriban davranmış sakinlərə minnətdarlığını bildirib.

AzərTAc Realty.vesti.ru saytına istinadla xəbər verir ki, buldozerlər kənddəki bütün taxta evləri və köhnə yolları uçurub. Onların yerində isə səliqəli evlər ucaldılıb, asfalt yollar çəkilib. İndi kənddəki 72 ailə yeni evlərdə yaşayır.

Bundan başqa, biznesmen qocaların və aztəminatlı ailələrin gündə üç dəfə pulsuz yeməklə təmin olunmasına da göstəriş verib.

Yeni kənd Syun Şuixuaya 6 milyon dollardan baha başa gəlib. Amma o, bu xərcləri bir o qədər əhəmiyyətli saymır və sakinlərə gələcəkdə də əlindən gələn köməyi göstərəcəyini bildirir.

## YAPONİYALI HƏKİMLƏR ALTSGEYMER XƏSTƏLİYİNİ QABAQCADAN DİAQNOZLAŞDIRIRLAR

*Əksər hallarda yaşlı insanların mübtəla olduğu Altsgeymer xəstəliyi hərəkətlərin pozulmasında və zehni fəallığın zəifləməsində ifadə olunur*



Yaponiyalı həkimlər bir xəstədə bu xəstəliyin ilk əlamətləri üzə çıxana qədər onun məhz Altsgeymer xəstəliyinə tutulduğunu bildiriblər. Mütəxəssislərin fikrincə, bu fakt xəstəliyin patologiyasının inkişafını anlamaq üçün irəliyə doğru böyük addım hesab edilə bilər. AzərTAc xəbər verir ki, kimya sahəsində Nobel mükafatı laureatı Koiti Tanaki başda olmaqla bir qrup alim Altsgeymer xəstəliyinin təzahürlərinin tədqiqatı üzrə layihə üzərində işləyir.

Xəstəliyin patologiyasının hərtərəfli təhlili ilk simptomlar yaranana qədər diaqnoz qoymağa imkan verən yeni meyarlar aşkar etməyə şərait yaradır. Alimlərin fikrincə, yaşlı insanların müntəzəm müayinə olunmalıdır. Bu sahədə yeni texnologiyalar onların əksəriyyətinin zehni qabiliyyətini qoruyub saxlamağa kömək edə bilər. Hazırda əsas problem ondan ibarətdir ki, bu cür təhlil aparmaq üçün zəruri kimyəvi reagentlər az tapılır və baha başa gəlir. Lakin mütəxəssislər əmindirlər ki, bunlar müvəqqəti çətinliklərdir.

## ALİMLƏR TƏNHALIQ GENİNİ AŞKAR EDİBLƏR

*Çin alimləri insan psixologiyası məsələlərinə aydınlıq gətirməyə və müəyyən qrup insanlar arasında tənhalığın səbəbini müəyyənləşdirməyə çalışıblar*

Sən demə, problemlərin bir hissəsini "tənhalıq geni" ilə izah etmək olar. Onun sahibləri başqalarına nisbətən 20 faiz daha çox həyatda tək qalırlar. Bu məlumatlar tələbələr arasından 600 könüllünün genetik materialının öyrənilməsi zamanı müəyyən edilib.

Alimlər 5-HTA1 geninin iki variasiyasını aşkar ediblər: "G" və "C" variantları. Tələbələrin anketinin tərtibi və psixoloji analizi göstərib ki, 5-HTA1 geninin "G" versiyasının sahibləri "C" versiyasının sahibləri ilə müqayisədə tənhalıqla daha çox üzləşiblər.

"G" versiyalı insanda xoşbəxtlik hormonu olan serotonin daha az əmələ gəlir. Onun azlığı bədbinliyə və ruh düşkünlüyünə, əsəbiliyə gətirib çıxarır. Sadəcə, belə insanlara sosial münasibətlər qurmaq çətin olur.

Söhbət hələlik insanın genetik aparatına müdaxilədən getmir. Alimlər öz həyatına daha müsbət yanaşmağı, yaxın və doğma insanlarla daha çox ünsiyyətdə olmağı məsləhət görürlər.

## SİQARET ÇƏKƏN ATALARIN UŞAQLARI ASTMAYA DAHA ÇOX TUTULURLAR

*Alimlər müəyyən etmişlər ki, ataları siqaret çəkən və daim tüstü ilə nəfəs alan uşaqlarda astmaya tutulmaq riski daha yüksəkdir*

Məlumdur ki, hamilə qadınlara siqaret və alkoqoldan istifadə etmək məsləhət görülmür. Ancaq ataların bu pis vərdişlərdən imtina etmək məcburiyyətində olmadığı güman edilir.

Norveç alimləri ataların zərərli vərdişlərinin onların gələcək uşaqların sağlamlığına ciddi təsir göstərdiyini sübut etmişlər. Bunun üçün tədqiqatlara 13 min kişi və qadın cəlb olunub.

Mütəxəssislər valideynlərin vərdişlərini qiymətləndirmək üçün sorğu keçiriblər. Nəticədə siqaret çəkən ataların uşaqları arasında qeyri-allergik astma riskinin artdığı aşkar edilib.



## RUHU MÜALİCƏ ETMƏDƏN CİSMİN MÜALİCƏSİ FAYDASIZDIR

*"Bütün xəstəliklər əsəbdəndir" sözləri gündən-günə reallığa çevrilir*



Orta əsrlərdə "sinir" xəstəlikləri deyəndə mədə xorasını, bronxial astmanı və şəkərli diabeti nəzərdə tuturdularsa, müasir dövrdə həkimlər getdikcə daha çox əmin olurlar ki, xəstəliklərin əksəriyyəti acı təəssüratların bəhrəsidir. Bu gün biz özümüz haqqında çox az şey bilirik, halbuki bütün fəlakətlərimizin, qələbə və məğlubiyyətlərimizin səbəbi qəlbimizin dərinliklərində gizlənib.

Azərbaycan Səhiyyə Nazirliyinin baş psixiatrı Gəray Gəraybəyli AzərTAc-a eksklüziv müsahibəsində bildirib ki, xəstəliklərin böyük əksəriyyəti psixosomatik əsaslıdır, yaxud psixosomatik fonda və ya onun dəstəyi ilə baş verir. O deyib: "Cismimizi ruhumuzun münaqişələri məhv edir və çox vaxt düşmənlərimizin ən təhlükəlisi elə özümüz oluruq. Böyük yunan filosofu Sokrat əbəs yerə deməyib ki, baş haqqında düşünmədən gözün müalicəsinə başlamaq, yaxud bütün orqanizm barədə düşünmədən başı müalicə etmək mümkün olmadığı kimi, ruhu müalicə etmədən cismin müalicəsi mümkünsüzdür.

Psixologiyanın nisbətən yeni bölməsi olan psixosomatika psixi və somatik ("soma" tərcümədə "bədən" deməkdir) vəziyyətlər arasında əlaqəni öyrənir. Anadangəlmə xəstəliklər istisna olmaqla, bütün xəstəliklərin 50-90 faizini psixosomatik adlandırmaq olar. Fikirlər xəstəliklərin yaranmasına, gedişatına və remissiyasına təsir göstərir. Sağalmanın sürətini və keyfiyyətini də fikirlər müəyyən edir. Vahimə, yaxud qorxu effekti əmələ gətirən psixi travmalar təkcə ürək-damar xəstəliklərinə deyil, həm də daxili orqanlarda başqa funksional pozulmalara səbəb olur. Hər hansı neqativ əməl, o cümlədən fikir insan üçün izsiz ötüşmür. Beyində neqativ ocaq əmələ gəlir. Bundan əlavə, psixosomatiklər travmatik xarakterli hadisələr, münaqişələr, şəxsiyyətin strukturu ilə funksional və ya üzvi pozulmalar (bronxial astma, hipertoniya, xora, hemorragik rektolit və s.) arasında əlaqə olduğunu təsdiq ediblər. Canlı orqanizmdə psixi və fiziki əsaslar arasında birbaşa və əks əlaqə var. Məsələn, əzələlərin boşalması və istilik mənəvi rahatlıq və dinclik hissi yaradır, emosional gərginliyi azaldır, gərginlik və soyuq isə əksinə, ruh düşkünlüyü və cansıxıcı vəziyyət yaradır. Qəzəb, qorxu, təəssüf, inad və inciklik hissi fiziki gərginliyə səbəb olur. Əks əlaqə mexanizmləri ilə birləşən həm fiziki, həm də mental proseslər bu yolla insanın biokimyasına təsir göstərir. Ruh düşkünlüyü, məyusluq, daimi narahatlıq, dilxorluq, hiddət, kin və günah hissi mütləq xəstəliklərə yol açır. Qəzəbinizi, aqressivliyinizi cilovlaya bilməsəniz, biokimyəvi müvazinətiniz gec-tez pozulur. Onun fonunda isə hipertoniya, mədə xorası və ya şəkərli diabet inkişaf edə bilər. Daim qəzəb, qorxu, təəssüf, inad və inciklik hissi ilə yaşayıb, orqanizminizin biokimyəvi durumunun qaydada olacağına ümid bəsləmək olmaz. Orqanizminizin normal fəaliyyət göstərməsini, əhval-ruhiyyənizin yüksək olmasını, mənəvi rahatlıq, nikbinlik hissinin sizi tərk etməməsini istəyirsinizsə, mentallığınıza dəyişikliklər edib, ağlınızda harmoniya yaratmalısınız".

*Əziz Məmmədov,*
*AzərTAc*

## İNƏK SÜDÜ D VİTAMİNİ QITLIĞINI AZALDIR

*Alimlərin sonuncu tədqiqatları zamanı müəyyən olunub ki, süd içmək əzələ və sümük toxumalarının böyüməsi və formalaşması üçün zəruri maddələrdən biri olan D vitamini qıtlığının inkişafı riskini azaldır*

AzərTAc xəbər verir ki, bu barədə məlumat "Science World Report" nəşrində dərc olunub.

Mütəxəssislər 1-6 yaşında olan 3821 sağlam uşağın müayinə məlumatlarını təhlil ediblər. Onların 87 faizi müntəzəm şəkildə inək südü içib, qalan 13 faizinə ümumiyyətlə süd verilməyib. Tədqiqatın nəticələrinə görə, süd içməyən uşaqlar D vitamini qıtlığı ilə iki dəfə çox üzləşib. Alimlərin fikrincə, süd içə bilməyənlər üçün südü onun kimi faydalı olan başqa məhsul ilə əvəz etmək lazımdır.

## YAĞLI QİDA SEVƏNLƏRƏ XOŞ XƏBƏR

*Yağlı qidaları sevənlər üçün xoş xəbərimiz var: bu cür qidalar qocalmaq prosesini zəiflədir*



Əsas odur ki, yağlar düzgün seçilsin. Kopenhagen Universitetinin alimlərinin son araşdırmaları göstərib ki, yağlı qidalar beynin qocalmasının qarşısını alır. Bu, əsasən Alsheymer və Parkinson xəstəliklərində özünü daha çox büruzə verir.

Tədqiqat zamanı məlum olub ki, beyin gəncliyinin dəstəyi üçün şəkərlə yanaşı, ketonlar da lazımdır. Ketonlar isə orqanizmdə yağın emalı nəticəsində yaranır.

Aparılmış tədqiqat təsdiq edib ki, yağlar beyni cavan saxlayır. Yağ eşitmənin itməsi, çəkinin azalması kimi qocalma ilə bağlı prosesləri ləngidib.

Bununla belə, mütəxəssislər qeyd edirlər ki, yağlar da düzgün seçilməlidir. Misal üçün, marqarin hesaba alınmır. Bitki yağları isə düzgün seçimdir. Beynin formada qalması üçün gündə iki qaşıq miqdarında bitki yağı qəbul etmək lazımdır.

Bütün dediyimiz məsələlər F vitamini ilə bağlıdır. Bu vitamin damarlarda xolesterin qalıqları ilə mübarizədə orqanizmə yardımçı olur.

## PROBİOTİKLƏR DƏRİNİN CAVAN QALMASINA KÖMƏK EDƏCƏK

*Yaponiya alimləri müəyyən ediblər ki, dərinin cavan və gözəl qalması üçün bahalı krem və maskalara ehtiyac yoxdur*

Faydalı bakteriyalarla zəngin adi probiotiklər - maya bakteriyalar, lakto və bifidobakteriyalar daha faydalıdır.

Mütəxəssislər könüllüləri iki qrupa ayırıblar. Birinci qrupun rasionuna tərkibində probiotiklər olan xüsusi süd daxil ediblər. İkinci qrupa isə sadə yoqurtlar veriblər. Probiotikli süd içənlərin dərisinin vəziyyəti yaxşılaşıb. Məlum olub ki, Lactococcus lactis H61 bakteriyasının ştammı dərinin regenerasiyası prosesinə yaxşı təsir göstərir.

Qeyd edək ki, Gündoğar ölkənin alimlərinin bu kəşfi İlya Meçnikovun nəzəriyyəsinin unudulmuş əsaslarıdır. Probiotiklərin faydalı xüsusiyyətlərini və onların dərini cavanlaşdıran gücünü məhz o kəşf edib. Epidermisin regenerasiyasının probiotiklərin təsiri altında sürətlənməsi artıq o vaxtlar məlum idi.

## YUXU İLƏ BAĞLI PROBLEMLƏR ALTSGEYMER XƏSTƏLİYİNİN İNKİŞAF RİSKİNİ 1,5 DƏFƏ ARTIRIR

*Baş beyinin neyronları sağlam gecə yuxusu zamanı istirahət edir və möhkəmlənir*

Qocalma insanın təkcə fiziki deyil, həm də əqli gücünün zəifləməsi ilə bağlıdır. Daim stress vəziyyətində olan, doyunca yatmayan beyin insan yaşa dolduqca daha bu yükü qaldıra bilmir. Nəticədə səciyyəvi nasazlıqlar yaranır, Altsgeymer xəstəliyinin əlamətləri görünməyə başlayır.

AzərTAc “Zee News” nəşrinə istinadla xəbər verir ki, yuxu ilə bağlı problemlər Altsgeymer xəstəliyinin inkişaf riskini 1,5 dəfə artırır.

ZEE NEWS

Belə qənaətə Uppsala Universitetitnin (İsveç) alimləri gəliblər. Onlar 50 yaşında min kişinin iştirakı ilə tədqiqat aparıblar. Mütəxəssislər könüllülərə qırx il nəzarət ediblər. Onları ilk növbədə həmin adamlarda yuxunun keyfiyyəti və Altsgeymer xəstəliyinin əlamətlərinin inkişafı maraqlandırıb.

Alimlər müəyyən ediblər ki, sağlam həyat tərzi, düzgün qidalanma və vaxtdan səmərəli istifadə baş beyin xəstəlikləri riskini azaltmağa imkan verir. Həmin fakt Altsgeymer xəstəliyinin inkişafına çoxsaylı amillərin təsir etdiyini göstərir. Bu xəstəlik genlərdən daha çox insanı əhatə edən xarici amillərdən asılıdır.

# MOZAİKA

## HİTLERİN RƏSM ƏSƏRİ 161 MİN DOLLARA SATILDI

*Almaniyanın Nyünberq Hərrac Evi 1914-cü ildə Adolf Hitler tərəfindən çəkilən Münhen ratuşa binasının rəsmini hərraca çıxarıb*




Hərracın təşkilatçıları rəsm əsərinin Yaxın Şərqdən olan və adının açıqlanmasını istəməyən şəxsə satıldığını bildiriblər.

Qeyd edək ki, rəsm əsəri satışa Almaniyadan olan iki ahıl bacı tərəfindən çıxarılıb. Əldə olunan məbləğin 10 faizinin xeyriyyə tədbirlərinə yönəldiləcəyi bildirilir.

## ÇİN ÜZƏN ŞƏHƏR SALMAĞI PLANLAŞDIRIR

*Get-gedə artan əhalini yerləşdirməkdə çətinlik çəkən Çin üzən şəhər salmağı planlaşdırır*

Artıq üzən şəhərin layihəsi də hazırdır. Pilot layihənin gələn il icra edilməsi planlaşdırılır. Üzən şəhərin Honk Konq ilə Macau şəhərləri arasında inşa edilməsi planlaşdırılır. 10 kvadrat km sahəsi olacaq ada şəhərdə yaşayanların bütün ehtiyacı adada qarşılanacaq.

Layihə rəhbərinin sözlərinə görə, insanların işə getmək üçün belə bu adadan çıxmasına gərək olmayacaqdır. Çünki hər şey adanın üzərində olacaqdır. Burada hətta toplanan zibillərin belə elektrik enerjisinə çevrilməsi planlaşdırılır. Bəzi məhsulları istehsal etmək üçün fabriklər belə qurulacaqdır.

Ada hətta qlobal iqlim dəyişikliyinə də uyğundur. Belə ki, suyun səviyyəsi yüksəldikcə ada da yüksəlir.

## SAN - MARİNONUN YEGANƏ MƏHBUSU AVROPANIN ƏN “BAHALI” MƏHKUMUDUR

*San-Marinoda bir məhkumun saxlanılması gündə 750 avroya başa gəlir*



Bu məbləğ Qərbi və Şərqi Avropanın penitensiar sistemi üçün ən böyük vəsaitdir. San-Marinonun yeganə məhbusunun ixtiyarında trenajor zalı, kitabxana və televizorun olduğu zal var. O, 6 kameranın birində yerləşib, lakin yeməyini restoranda yeyir, çünki təkcə onun üçün həbsxana stolu açmaq sərfəli deyil.

Məhbusların saxlanılmasına bir gündə çəkilən xərclər üzrə ikinci yeri İsveç (621 avro) tutur. Ən az pul isə Ukraynada (3,06) ayrılır.

Digər ölkələrdə həbsxanalar dolub-daşır. Bu baxımdan ən acınacaqlı vəziyyət Serbiyadadır.

Burada 106 nəfərə 100 yer düşür.

Belçikanın Niderlandla imzaladığı sazişə əsasən, belçikalılar bu ölkədəki həbsxanalardan istifadə edirlər və icarə haqqı verirlər.

## OBAMA VƏ XANIMINA VERİLƏN HƏDİYYƏLƏRİN QİYMƏTİ

*ABŞ Dövlət Departamenti noyabrın 13-də 2013-cü ildə prezident Barak Obama və həyat yoldaşı Mişel Obamaya rəsmi səfərlərdə verilmiş hədiyyələrin qiymətini açıqlayıb*



Ən bahalı hədiyyə Mişel Obamaya verilib. Bruney kraliçasının birinci xanıma bağışladığı qızıl sırğa və üzük, almaz və sarı sapfir daşlarla bəzədilmiş boyunbağının qiyməti 71 min 468 dollardır.

Prezident Barak Obamaya ən bahalı hədiyyəni isə Qatarın Vaşinqtondakı səfiri verib. Sarı rəngli şüşədən hazırlanmış şahin heykəlinin qiyməti 10 min 400 dollara yaxındır.

Ölkəmizin ABŞ-dakı səfirinin Barak Obamaya bağışladığı qırmızı, ağ və göy rənglərdən ibarət kilimin qiyməti 6 min 560 dollar civarındadır.

Qatar əmirinin ABŞ prezidentinə təqdim etdiyi üəzrində dünyanın böyük şəhərlərinin coğrafi koordinatlarının qeyd olunduğu gümüş boşqabın dəyəri 6 min 500 dollardır.

Tanzaniya prezidenti Barak Obamaya 4 min dollar dəyərində olan zebr dərisindən ayaqaltı, rəsm əsəri və heykəl bağışlayıb.

Sinqapurun baş naziri də qiyməti 4 min dollar olan qəhvəyi örtüklü kreslonu Ağ ev rəhbərinə təqdim edib.

1978-ci ildə qəbul olunan qanuna görə ABŞ prezidentləri dəyəri 350 dollardan çox olan hədiyyələrin qiymətini hər il və səlahiyyətləri başa çatan zaman elan etmək məcburiyyətindədirlər.

## NAPOLEONUN PAPAĞI- 1 MİLYON 884 MİN AVROYA

*Napoleon Bonaparta məxsus geyim əşyaları noyabrın 17-də Paris yaxınlığındakı Fontenbloda təşkil edilən auksionda satışa çıxarılıb*



Koreyadan olan kolleksiya həvəskarı sərkərdənin geydiyi papaqlardan birini 1 milyon 884 min avroya alıb. Monako şahzadəsi sarayında saxlanılan bu papaq sərkərdənin dünyada mövcud olan 19 geyim əşyalarından biridir.

N.Bonapart bu baş geyimini ilk konsul kimi 1800-ci ildə Marenqo döyüşündə geyinib.

Sərkərdəyə məxsus əşyalardan ibarət kolleksiya Monako şahzadəsi Albertin ulu babası ll Lüdovikin göstərişi ilə muzeydə, Napoleona məxsus guşədə saxlanılırdı.

Papaqla yanaşı N. Bonapartın Müqəddəs Yelena adasında sürgündə olarkən istifadə etdiyi corablar, köynək yaxalıqları, qırmızı rəngli şərf satışa qoyulmuşdu.

## OKEANDA ÜZƏN SUALTI OTEL

*Tanzaniyanın Pemba adasının sahillərində, Hind okeanı sularında üzən "Manta Resort" oteli turistlərin istirahəti üçün əvəzsiz məkanlardan biridir*

Oteldəki sualtı nömrələrdə qalan müştərilər okeanın əsrarəngiz mənzərəsindən böyük zövq alırlar. Layihənin rəhbəri isveçli dizayner Mikael Qenberqdir.

Təqribən dörd metr dərinlikdə üzən otelin otaqlarından sualtı məmləkətin bütün gözəlliklərini seyr etmək mümkündür.

## BELARUS QIZI DÜNYA GÖZƏLİ SEÇİLDİ

*Belarus qızı Marina Alekseyçik ABŞ-da keçirilən "Dünya gözəli – 2014" gözəllik müsabiqəsinin qalibi olub*



Cənubi Afrika Respublikasının təmsilçisi II, perulu gözəl isə III yerə layiq görülüb.

Qeyd edək ki, noyabrın 19-da Merilenddə keçirilən "Dünya gözəli – 2014" gözəllik müsabiqəsində ancaq gənc, evli qadınlar iştirak edib. Müsabiqəyə 35 gözəl qatılmışdı.

## DÜNYANIN ƏN BAHALI CİB SAATI 21 MİLYON DOLLARA SATILIB

*İyirmi dörd karatlıq qızıldan hazırlanmış 500 qram ağırlığındakı Henry Graves Supercomplication adlı saat Cenevrədəki Sotheby's hərracında 21 milyon dollara satılıb*



Saatı 1930-cu illərin əvvəllərində Nyu-Yorklu bankir Henri Qreyvsin sifarişi ilə İsveçrənin Patek Philippe firması hazırlayıb. AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, Henry Graves Supercomplication 56 il ərzində dünyanın ən qəliz mexanizmə malik saat statusunu saxlaya bilib. Bu saat standart əqrəblərdən başqa təqvimi, Ayın fazalarını, saniyənin yüzdə birini ölçən və digər funksiyaları olan 24 müxtəlif mexanizmə də sahibdir.

Ümumilikdə 920 detaldan ibarət saatın hazırlanmasına səkkiz il vaxt sərf olunub. Henry Graves Supercomplication saatı sahibi – Qətərli incəsənət kolleksiyaçısı Səud bin Muhəmməd əl-Taninin vəfatından iki gün sonra satılıb. Saatın satışından əldə olunan vəsaitin onun Sotheby's kompaniyasına olan külli miqdarda borcunun ödənilməsinə sərf ediləcəyi bildirilir.

## DÜNYANIN ƏN UZUN TUNELİ



2016-cı ildə istifadəyə verilməsi planlaşdırılan İsveçrədəki Qotard tuneli dünyanın ən uzun tunelidir. Uzunluğu 57 kilometr olan bu tuneldə sərnişin qatarları saatda 250 kilometr sürətlə hərəkət edə biləcək.

## 300 METRLİK ŞƏFFAF KÖRPÜ



Çinin Hunan vilaətindəki Pinyan vadisində iki dağ arasında 180 metr yüksəklikdə 300 metr uzunluğunda şəffaf körpü tikilib

## "BAKI-2015" AVROPA OYUNLARI AZƏRBAYCANIN İLK İDMAN ELÇİLƏRİNİ ELAN EDİB

*"Bakı-2015" Avropa Oyunları noyabrın 19-da ilk Avropa Oyunlarının idman elçiləri olacaq 11 Azərbaycan idmançısının adlarını açıqlayıb*

"Bakı-2015"- dən AzərTAc-a bildiriblər ki, idmançılar öz idman növlərini və ölkələrini təmsil etmək üçün seçiliblər və qarşıdan gələn Oyunlarla bağlı marketinq kampaniyalarında iştirak edəcəklər. Onlar növbəti yay keçiriləcək tədbirin bütün Azərbaycanda təbliğ edilməsində iştirak edirlər.

Açılış mərasimi yaxınlaşdığından onlar, həmçinin, "Bakı-2015"-in geniş şəkildə qeyd olunacaq möhtəşəm tədbirlərində də iştirak edəcəklər.

Seçilmiş idmançılar bunlardır: Suğra Müqabilzadə (oxatma), Nazim Babayev (yüngül atletika), Amil Həmzəyev (basketbol), Elgün Əlizadə və Murad Sultanov (velosiped idmanı), Səbinə Mikina (qılıncoynatma), Marina Durunda (gimnastika), Elmar Qasımov (cüdo), Ceyran Əliyeva (voleybol), Rövşən Bayramov və Mariya Stadnik (güləş).

Azərbaycanın gənclər və idman naziri və "Bakı-2015"-in baş icraçı direktoru Azad Rəhimov deyib: "Bu idmançılar ölkənin ən yaxşılarından bir neçəsidir. Onlar Avropa Oyunlarının ən yaxşı idman elçiləri olduqlarını sübut edəcəklər. Biz onlardan "Bakı-2015"-in yaşadacağı həyəcanı ölkənin digər bölgələri ilə də paylaşmalarını istəyirik və əminəm ki, onların nailiyyətləri bütün Azərbaycan gənclərini həvəsləndirəcək".

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə deyib: "Biz idman elçiləri proqramı üzrə "Bakı-2015"-lə birgə çalışmaqdan məmnunluq duyuruq. "Bakı-2015" idmançılarımız üçün beynəlxalq arenada bacarıqlarını, öz idman növləri və ölkələrini təmsil etmələri üçün son dərəcə mühüm imkandır. İdman elçiləri proqramı onlara öz karyeralarını inkişaf etdirməkdə yardımçı olacaq".

"Bakı-2015" idman elçiləri proqramı beynəlxalq kampaniyalar vasitəsilə Avropa Oyunları haqda dünya miqyasında məlumatlılığın artırılmasına kömək edəcək tanınmış elçiləri də cəlb edəcək.

"Bakı-2015"-in əməliyyatlar üzrə baş direktoru Saymon Kleq deyib: "İdman elçiləri proqramı birinci Avropa Oyunlarına yardım etmək üçün Avropadan qalib olacağına ümid edən məşhur idmançıların dəstəyindən yararlanacaq və bunun uğurlu olacağına əminik. Göstərdikləri köməyə görə bütün Azərbaycan idmançılarına təşəkkür edirik. Gələcək aylarda "Bakı-2015"-in təbliğ edilməsində onlarla birgə çalışmağı səbirsizliklə gözləyirik".

## BÜTÜN KƏNDLƏRDƏ İDMAN QURĞULARI OLACAQ

*Azərbaycanda əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün geniş imkanlar yaradılacaq*

Bu barədə 2014-2025-ci illəri əhatə edən "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı"nda qeyd olunub. Bunun üçün yeni yaşayış evlərinin salındığı məhəllələr və həyətlərdə, eləcə də kənd yerlərində müvafiq idman qurğuları istifadəyə veriləcək

İşlərin icrası isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (DŞAK), Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti orqanlarına həvalə olunub.

Hazırlanan ümumi və baş planlarda rekreasiya ərazilərinin və sosial-mədəni-məişət infrastrukturunun nəzərdə tutulması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub. Bununla bağlı DŞAK-ya tapşırıq verilib.

## "BAKI-2015" İLK AVROPA OYUNLARININ RƏSMİ RƏMZLƏRİ: CEYRAN VƏ NAR

*Noyabrın 25-də "Bakı-2015" ilk Avropa Oyunları ceyran və narı ilk dəfə keçiriləcək idman tədbirinin rəsmi rəmzləri kimi təqdim edib*



"Bakı-2015"- dən AzərTAc-a bildiriblər ki, ceyran və nar Azərbaycanın qürurlu tarixini və ümidverici gələcəyini təcəssüm etdirir. Ceyran və nar "Bakı-2015"-in təbliğində brend kimi çıxış edərək bütün dünyada birinci Avropa Oyunlarının rəmzinə çevriləcək.

Azərbaycanın gənclər və idman naziri, "Bakı-2015"-in baş icraçı direktoru Azad Rəhimov deyib: "Bütün dünyaya ceyranı və narı təqdim etməyə olduqca şadıq. Ümidvarıq ki, onlar birinci Avropa Oyunlarının həyəcanını əks etdirə biləcəklər. Onlar qarşıdan gələn aylar ərzində şəhərimizdə və ölkə ərazisində son dərəcə aydın şəkildə görünəcəklər".

Azərbaycan folklorunda birliyi tərənnüm edən nar rəngarəng "Bakı-2015" brendində əks olunaraq artıq şəhərimizdə geniş nümayiş etdirilib.

"Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq deyib: "Bizim rəmzlər ilk Avropa Oyunları üçün çox əhəmiyyətlidir. Ceyran Oyunların və Azərbaycanın zəngin irsinin zərif mədəniyyət elçisi olacaq. Nar Oyunların enerjisini, həyəcanını və əyləncəsini təmsil edir və keçirilən yarışlarda iştirak edəcək".

Əməliyyat Komitəsinin kommersiya şöbəsinin direktoru Çarli Viceratna isə rəmzlər barədə fikrini bölüşərək bildirib: "Biz Avropa Oyunlarının əyləncəli və rəngarəng olmasını istəyirik. Ümid edirik ki, ceyran və nar bütün Azərbaycanda məşhurlaşacaq. Biz "Bakı-2015"də Avropanın məşhur idmançılarına ev sahibliyi etməyə hazırlaşırıq. Rəmzlər illüstrasiya kimi yaradılıb, amma tezliklə animasiyalı və real görünüş qazanaraq Avropa Oyunlarının təbliğinin bir hissəsi olacaqlar".

## RİO - DE - JANEYRO OLİMPİADASININ TALİSMANLARI

*Noyabrın 24-də Braziliyanın Rio-de-Janeyro şəhərində 2016-cı ildə keçiriləcək Yay Olimpiya və Paralimpiya oyunlarının talismanlarının təqdimatı olub*



Bu talismanlar Braziliyanın heyvanat və bitki aləminin rəmzidir.

Pişiyə bənzəyən sarı rəngli heyvan Braziliya faunasının obrazı şəklində təqdim olunub. Braziliya florasının ümumiləşdirilmiş obrazını göy və yaşıl rəngli bitki təcəssüm etdirir. Bu obrazda istər çiçək, istərsə də ağac cizgiləri əksini tapıb.

İndi braziliyalılar internetdə səsvermə yolu ilə 2016-cı il oyunlarının simvoluna ad seçməlidirlər. Şort-listdə Oba və Eba, Tiba Tuke və Eskidim, Vinisius və Tom adları yer alıb

Siyahıdakı son iki ad Braziliyanın tanınmış musiqiçi və bəstəkarları Vinisius di Moraysın və Tom Jobimin şərəfinə seçilib.

Gözlənildiyinə görə, təşkilatçılar bazara üzərində yay Oyunlarının simvolu olan 12 min mal çıxaracaqlar. "Rio-2016" brendli məhsulların satışından 400 milyon dollar gəlir götürmək nəzərdə tutulur.

Təşkilatçılar Oyunların gənc auditoriyasını da maraqlandırmaq niyyətindədirlər. Odur ki, Olimpiadanın start götürməsinə bir il qalmış televiziyada talismanların iştirakı ilə serial yayımlamaq planlaşdırılır.

"Olimpiya talismanı" anlayışı rəsmən 1972 ildə Beynəlxalq Olimpiya Komitəsinin 73-cü sessiyasında təsdiq edilib. Talisman olimpiyaçılıq prinsiplərini önə çəkmək və konkret Oyunların təbliğinə kömək etmək məqsədi daşıyır.

Talisman Olimpiadanı qəbul edən tərəfin xüsusiyyətlərini əks etdirən insan, heyvan və ya əfsanəvi məxluq ola bilər. O, həm də müasir Olimpiya hərəkatının dəyərlərini təcəssüm etdirməlidir.

## XORVATİYALI ROBERT PROSİNEÇKİ AZƏRBAYCAN MİLLİSİNİN BAŞ MƏŞQÇİSİ TƏSDİQ OLUNDU

*Dekabrın 3-də AFFA-nın inzibati binasında İcraiyyə Komitəsinin növbəti iclası keçirilib*



İclasda Azərbaycan millisinin yeni baş məşqçisinin adına aydınlıq gəlib.

İcraiyyə Komitəsi Robert Prosineçkini baş məşqçi postuna təsdiqləyib. 45 yaşlı xorvatiyalı mütəxəssis bu postda almaniyalı Berti Foqtsu əvəzləyib. Artıq İcraiyyə Komitəsinin iclasına qatılan Prosineçki 3 il millimizdə çalışacaq.

Yeni baş məşqçi 6 köməkçi ilə işləyəcək. Onlardan üçü xorvatiyalı, üçü isə azərbaycanlı olacaq.

*45 yaşlı Robert Prosnineçki futbolçu kimi yarımmüdafiəçi olub. Avropanın bir sıra tanınmış klublarında çıxış etdikdən sonra 1991-ci ildə "Real"Madridə keçib. Sonra "Real"Madridin əzəli rəqibi "Barselona" Roberti heyətinə qatıb. 1 il katalon klubunda çıxış edən xorvatiyalı daha sonra "Sevilya" forması geyinib.*

*Xorvatiya millisinin heyətində 49 oyun keçirən futbolçu 10 qol vurub.*

*2004-cü ildə peşəkar futbolçu karyerasına ilk klubu "Dinamo Zaqreb"də yekun vuran Robert Prosineçki məşqçilik karyerasına start verib və bir çox komandalarda çalışıb. Son iş yeri Türkiyənin "Kayserispor" klubu olub. 2012-2013-cü illər mövsümündə "Kayserispor"da çalışan mütəxəssis komandanı Super Liqaya çıxarda bilmədiyinə görə tutduğu postdan uzaqlaşdırılıb.*

## BAKI OLİMPİYA STADİONU İLK "10 - LUQ"DA

*İngiltərənin məşhur "The Telegraph" qəzetinin redaktorlarından Adam Hurrey dünyada inşaatı davam edən nəhəng stadion layihələrini araşdırıb*

Hazırda tikintisi başa çatmaq üzrə olan Bakı Olimpiya Stadionu da dünyanın ən möhtəşəm 10 stadion layihəsi arasında göstərilib.

Siyahıya daxil olan stadionlar bunlardır: Estadio La Peineta (İspaniya, "Atletiko", 2017-ci il); Bakı Olimpiya Stadionu (Azərbaycan, 2015-ci il); Timsah Arena (Türkiyə, 2014-cü il); Zenit Arena (Rusiya, 2016-cı il); Stade des Lumieres (Fransa, 2015-ci il); Allianz Parque (Braziliya, 2014-cü il); Nouveau Stade de Bordeaux (Fransa, 2015-ci il); SSKA Moskva (Rusiya, 2015-ci il); Nyu Ferenc Puşkaş (Macarıstan, 2018-ci il); Əl-Vakrah (Qətər, 2022-ci il).



## ARGENTİNADA ƏN BÖYÜK KÜÇƏYƏ LİONEL MESSİNİN ADI VERİLİB

*Argentinanın El Çanar şəhərindəki küçələrdən bir neçəsinə futbolçuların adı verilib*



Braziliyada keçirilən dünya çempionatında Argentina millisinin gümüş medal qazanması münasibətiylə şəhər meri belə bir qərar verib. Ən böyük küçəyə argentinalı ulduz Lionel Messinin adıyla bağlıdır.

Bundan savayı, digər küçələrə Anxel Di Mariya, Xavyer Maskerano və Qonsalo İquainin adı verilib.

## MÜƏLLİMİMİZ ELMLƏR DOKTORU DİPLOMU ALMIŞDIR





Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Nəsiman Yaqublunun 2013-cü ildə “Azərbaycan milli istiqlal mübarizəsi və mühacirət mətbuatı” mövzusunda müdafiə etdiyi dissertasiyasına görə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 7 noyabr 2014-cü il tarixli qərarı ilə ona tarix üzrə elmlər doktoru elmi dərəcəsi verilmişdir. Təhsil fakültəsinin gənc tarixçiləri müəllimləri N.Yaqublunu bu münasibətlə səmimi - qəlbdən təbrik etmişilər.



## AVROPA BİRLİYİNDƏ SİYASƏT İCRASI HAQQINDA JAN MONNE SEMİNARI

Noyabrın 19-da Avropa siyasəti üzrə Jan Monne Kürsüsü Sahibi, Leiden Universitetinin Dövlət idarəçiliyi üzrə professoru Bernard Steunenberg Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin qonağı oldu. AB siyasətinin icrası və mədəni irs siyasətinə tətbiqi haqqında məruzə ilə çıxış edən B Steunenberg Avropa Komissiyasının siyasət icra agentliklərinin milli siyasət təsisatları ilə qarşılıqlı əlaqələri haqqında fikirlərini bölüşdü və Avropa ölkələrində müxtəlif tətbiq təcrübələrinin mövcud ola biləcəyini bildirdi. O, həmçinin, icra agentlikləri arasında AB-nə gələcəkdə siyasəti daha yaxşı formalaşdırmağa kömək edə biləcək "icra qanunvericiliyinin" yaradılmasının əhəmiyyətini vurğuladı.



## XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ KONFRANS





Noyabrın 20-də Xəzər Universitetində "Avropa Birliyi Araşdırmaları üzrə kurikulumların işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi" adlı Tempus layihəsi çərçivəsində "Kurikulumların nəzərdən keçirilməsinin nəticələri və ikili və ya birgə diplomların verilməsi" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Niderlandın Leyden Universiteti, İtaliyanın Genuya Universiteti, Polşanın Lodz Sosial Elmlər Universiteti, eləcə də Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Xəzər Universitetinin nümayəndələri konfransda iştirak edirdilər.

Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, fəlsəfə doktoru Fərda Əsədov universitetin rəhbərliyi adından konfrans iştirakçılarını salamlamış və onlara həm konfransın işində, həm də layihə üzrə gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi İlham Hümbətov və Azərbaycanda Milli Erasmus+ ofisinin rəhbəri Pərviz Bağırov ümidvar olduqlarını bildirmişlər ki, layihənin həyata keçirilməsinin bütün benefisiarlar üçün müsbət nəticələri olacaqdır.

Layihənin koordinatoru Baba Bayramlı layihə üzrə fəaliyyətlərin nəticələri və qarşıda duran vəzifələr haqqında təqdimatla çıxış etmişdir. Layihə üzrə tərəfdaş universitetlərin nümayəndələrinin kurikulumların işlənib hazırlanması haqqında çıxışları da dinlənilmişdir.

Leyden Universitetindən Bernard Steunenberq, Genuya Universitetindən Aqostino Massa və Lodz Sosial Elmlər Universitetindən Piotr Kinas çıxış edərək, Azərbaycanın tərəfdaş universitetlərində Avropaşünaslıq proqramı üzrə kurikulumları nəzərdən keçirərəkən gəldikləri nəticələr barədə konfrans iştirakçılarına məlumat vermişlər.

Konfransda ikili və ya birgə diplomların verilməsi və qısamüddətli tələbə mübadiləsi ətrafında da müzakirələr aparılmışdır.

## XARİCİ TƏLƏBƏLƏR
### XALÇA MUZEYİNDƏ



Noyabrın 29-da Xəzər Universitetinin bir qrup xarici tələbəsi Azərbaycan Xalça Muzeyində oldular. Onlar Azərbaycanın müxtəlif regionlarında xalçaçılıq sənətinin tarixi və ənənələri, məşhur xalça ustaları, naxışların mənası və digər məsələlər haqqında geniş məlumat aldılar. Muzeydən sonra tələbələr Milli Parkı gəzdilər və sevinclə bildirdilər ki, bu onların Bakıda keçirdikləri ən gözəl həftəsonu oldu.

## XƏZƏR UNİVERSİTETİNDƏ "POTENSİAL MƏKTƏB DİREKTORLARINA MƏKTƏBİN İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİM KURSLARI" DAVAM EDİR



UNICEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə noyabrın 17-də Xəzər Universitetinin Neftçilər kampusunda başlamış "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" uğurla davam edir.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir. Bu məqsədlə 9 fənn (İKT, Kurikulumun tətbiqi və idarə edilməsi, Təhsilin idarə olunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası, Psixometrika, Kitabxana - İnformasiya Mərkəzi Resursları) üzrə həftədə 4 gün 16 saat olmaqla keçirilən dərslər 12 həftə davam edəcək .

## KİTAB KLUBUNDA ŞAİRLƏ GÖRÜŞ





Dekabrın 3-də Xəzər Universitetinin "Təkamül" kitab klubunda şair, yazıçı Əli Xəyyamla görüş keçirilmişdir. Əli Xəyyam öz yaradıcılıq yolu haqqında iştirakçılara məlumat vermiş və tələbələrin suallarını cavablandırmışdır. Şairin suallara verdiyi cavabları, yazıçı-oxucu münasibətləri, yazı prosesinin özəllikləri haqqında fikirlərini tələbələr maraqla qarşılamışlar.

Sonra şair öz şeirlərini oxumuş, müəllifin kitablarının satışı və imzalanması mərasimi olmuşdur.





## "İNKİŞAFOLOGİYA" MÖVZUSUNDA TƏLİM

Noyabrın 27-də Xəzər Universitetinin Karyera Mərkəzi tələbələr üçün "İnkişafologiya" mövzusunda təlim keçirib. Təlimçi Bakı Dillər və Biznes Məktəbinin əməkdaşı Toğrul Ələkbərov idi. Təlimdə karyerada uğur qazanmaq üçün lazım olan motivasiya, motivasiyanın və özünə inamın müsbət cəhətləri və digər müvafiq məsələlər müzakirə olunub, tələbələrlə fərdi məşğələ keçirilib və onların sualları cavablandırılıb.



## KOÇ UNİVERSİTETİNİN ƏMƏKDAŞI "XƏZƏR"DƏ



Noyabrın 27-də Koç Universitetinin (Türkiyə) Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Melisa Abaçe Xəzər universitetinin, Koç Universitetinin bakalavr və magistr tələbələri üçün nəzərdə tutulan təqaüd proqramı haqqında təqdimat keçirdi. O, həmçinin, Koç Universitetində təklif olunan digər imkan – yay tədqiqat proqramı barəsində də məlumat verdi.

Tədqiqat proqramı tələbələrə maraq göstərdikləri sahələrdə görkəmkli professorlarla işləmək imkanı yaradır. M. Abaçe onu da vurğuladı ki, bu proqram tədqiqat qabiliyyətinə malik tələbələrin hazırlanması üçün nəzərdə tutulmuşdur. Təqdimat sual-cavab sessiyası ilə başa çatdı.

Təqdimatdan sonra M. Abaçe Xəzər Universitetinin rəhbərliyi ilə görüş keçirdi.



## UNİVERSİTETDƏ YAŞILLAŞDIRMA KAMPANİYASI

Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə oktyabrın 15-dən başlayaraq "Hərəyə bir ağac əkək" devizi altında Bakının 11 rayonunda şənbə və bazar günləri iməciliklər keçirilmiş, yaşıllaşdırma işləri aparılmışdır.

Xəzər Universitetinin rəhbərliyi, müəllim və tələbələrinin, həmçinin Nizami Rayon İcra Hakimiyyəti nümayəndələrinin iştirakı ilə Xəzər Universitetinin qarşısında da müxtəlif növlü ağac əkilmişdir.

## “KARYERA İNKİŞAFI HAQQINDA PEŞƏKAR MƏSLƏHƏTLƏR” MÖVZUSUNDA TƏLİM



Noyabrın 21-də Xəzər Universitetinin Mərkəz kampusunda FireWorks Human Resources Management şirkəti tərəfindən tələbələr üçün təlim keçirildi. Təlimin əsas mövzusu “Karyera inkişafı haqqında peşəkar məsləhətlər” idi. Təlimdə mükəmməl “CV” yazmağın 6 əsas yolu, “Covering letter”-in necə yazılması, uğurlu “Interview” üçün 8 əsas qayda, müsahibədən sonra “Təşəkkür məktubunun” yazılma qaydası və s haqqında məlumat verildi.

Sonra tələbələr 3 qrupa bölünərək, “Covering letter” yazdılar və qalib komandaya şirkət tərəfindən hədiyyə verildi. Sonda iştirak edən hər bir tələbəyə FireWorks HRM şirkətinin sertifikatı təqdim edildi.

## KİBERTƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ MÖVZUSUNDA SEMİNAR



Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə İsrail Internet Assosiasiyasının İdarəedici direktoru Dina Beer dekabrın 3-də kibertəhlükəsizlik mövzusunda mühazirə oxudu. Natiq tələbələrə kiber risklərini başa düşməkdə yardımçı oldu və təmsil etdiyi təşkilatın səmərəli təhlükəsizliyini təmin etmək üçün necə çalışdığını bildirdi, texnologiya inkişaf etdikcə müdafiəsi daha da çətinləşən virtual hücumlar haqqında danışdı.

O, iddia etdi ki, internet birliklərinin kiber hücumlarla əlaqədar üzləşdikləri problemlər bütün münaqişələrin bir hissəsinə çevrilmişdir. İnternet assosiasiyasının, adətən, ölkənin təhlükəsizlik və rifahı üçün mühüm amilə çevrilən kibertəhlükəsizliyin necə təmin olunması iştirakçılar üçün maraqlı oldu və onların müvafiq sualları da cavablandırıldı.





## TƏLƏBƏ MƏCLİSİNƏ PREZİDENT SEÇKİSİ



Dekabrın 5-də Xəzər Universitetinin Tələbə Məclisinə prezident seçkisi keçirildi. Seçkidə 3 namizəd mübarizə aparırdı. Gün ərzində keçən səsvermənin nəticələrinə görə Humanitar və sosial elmlər fakültəsinin III kurs tələbəsi Mirzəağa Səmədov Tələbə Məclisinin prezidenti, İqtisadiyyat və menecment fakultəsinin II kurs tələbəsi Əzizə Cəfərli vitse-prezident seçildilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı mühüm ictimai vəzifəyə seçilmiş tələbələrimizi təbrik edərək, Tələbə Məclisinə səmərəli fəaliyyət göstərməyi və uğur qazanmağı arzulamışdır.

## ARTVİN ÇORUH UNİVERSİTETİ ƏMƏKDAŞININ "XƏZƏR"DƏ MÜHAZİRƏLƏRİ

ARTVİN ÇORUH ÜNİVERSİTESİ 2007





Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin təşkilatçılığı ilə Artvin Çoruh Universitetinin (Türkiyə) müəllimi, fəlsəfə doktoru Çağlayan Yılmaz Mövlanə Mübadilə Proqramı xətti ilə dekabr ayında Təhsil fakültəsinin Filologiya, Azərbaycan dili və Ədəbiyyat müəllimliyi ixtisasında təhsil alan tələbələr üçün türk dillərinin sintaksinin öyrənilməsində yeni – "Oxlama" adlanan metod barədə silsilə mühazirələr oxumuşdur. Mühazirələr tələbə və universitet müəllimləri arasında böyük maraq doğurmuşdur.

## TƏHSİL FAKÜLTƏSİ XEYRİYYƏ YARMARKASI KEÇİRMİŞDİR

Dekabrın 11-də Təhsil fakültəsinin tələbələri tərəfindən "Ev şirniyyatları" adlı xeyriyyə yarmarkası keçirilmişdir. Satışa çıxarılan məhsulların hər biri tələbələrin özləri tərəfindən hazırlanmışdır. Tədbirdə universitet tələbələri ilə yanaşı əməkdaşlar da fəal iştirak etmişlər. Tədbirdə yığılan 460 manat məbləğində pul vəsaitinin yeni il qabağı kimsəsiz uşaqlara xərclənməsi nəzərdə tutulub.










## NEFT YATAQLARININ İŞLƏNMƏSİ MÖVZUSUNDA SEMİNARLAR

Statoil şirkəti ilə Xəzər Universitetinin Neft mühəndisliyi departamenti arasındakı əməkdaşlıq çərçivəsində növbəti seminarlar keçirilmişdir. Dekabrın 8-də keçirilmiş seminarı giriş sözü ilə Neft mühəndisliyi departamentinin müdiri, dosent Qəşəm Zeynalov açaraq, 2012-ci ildən bu əməkdaşlığın uğurla davam etdirilməsindən və onun real nəticələrindən danışmışdır.

Sonra Statoil şirkətinin Texniki meneceri Tarald Svanes "Neft yataqlarının işlənməsində yeraltı qeyri-müəyyənliklər haqqında" məruzə etmişdir. Seminarın sonunda neft mühəndilsiyi tələbələri ilə birlikdə mövzu ilə əlaqədar təcrübi məsələlər həll olunmuşdur.

Dekabrın 11-də keçirilmiş seminarı giriş sözü ilə Neft mühəndisliyi departamentinin müdiri, dosent Qəşəm Zeynalov açaraq, Statoil şirkətinin neft və qaz yataqlarının işlənməsi və neftvermənin artırılması sahəsində tətbiq etdiyi yeni texnologiyalardan və son illər bu texnologiyaların Şimal dənizində və Cənubi Xəzər hövzəsinin Azəri, Günəşli və Çiraq yataqlarında tətbiqi ilə alınan uğurlu nəticələrindən danışmışdır.

Sonra Statoil şirkətinin Texniki meneceri Tarald Svanes "Neft yataqlarının netftverma faktorunun yaxşılaşdırılması" mövzusunda məruzəsində Statoil şirkətinin neftvermənin artırılması ilə əlaqədar yeni texnologiyalarn təcrübi nəticələri haqqında dolğun məlumat vermiş və bu istiqamətdə gələcəkdə aparılacaq işlərin perspektivindən bəhs etrmişdir.

## MAGİSTR DİSSERTASİYALARININ MÜDAFİƏSİ

Neft Mühəndisliyi ixtisası üzrə Tezis Komitəsinin dekabrın 12-də Neft mühəndisliyi departamentinin müdiri, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent Qəşəm Zeynalovun sədrliyi ilə keçən iclasında departamentin magistrantları Nigar Cabbarovanın "Study of sand production processes in developing offshore oil and gas fields in Azerbaijan" ("Azərbaycanın dəniz- neft və qaz yataqlarının işlənməsində qum tıxacı prosesinin öyrənilməsi") və Lakshmanan Ezhilarasanın "Gas-condensate fields development optimization and production enhancement in the South Caspian Basin" ("Cənubi Xəzər hövzəsində qaz-kondensat yataqlarının işlənməsinin optimallaşdırılması və hasilatın artırılması") mövzularında dissertasiyaların müdafiəsi olmuşdur. Hər iki iş Q. Zeynalovun elmi rəhbərliyi ilə yerinə yetirilmişdir.

İddiacıların çıxışından sonra istehsalat müəssisəsi kimi BP şirkətinin mütəxəssislərinin və daxili ekspert kimi Neft mühəndisliyi departamentinin müəllimlərinin rəyləri təqdim edilmişdir. Müzakirələrdən sonra N. Cabbarova və Lakshamanan Ezhilarasanın dissertasiya işləri yüksək qiymətləndirilmiş və onlara magistr elmi dərəcəsi verilməsi haqqında qərar qəbul olunmuşdur.

Konrad Adenauer Stiftung

## DEPARTAMENT MÜDİRİMİZ ANKARADA BEYNƏLXALQ KONFRANSDA

AVİM AVRASYA İNCELEMELERİ MERKEZİ CENTER FOR EURASIAN STUDIES

Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri və Avropa İnteqrasiyası üzrə Jan Monne Kürsüsü mükafatı laureyatı, fəlsəfə doktoru Muxtar Hacızadə dekabrın 9-da Ankarada. Konrad Adenauer Stiftung ilə Avrasiya Araşdırmalar Mərkəzinin (AVIM) birgə təşkilatçılığı ilə "Qafqazda regional əməkdaşlıq imkanları və gələcək üçün perspektivlər" mövzusunda keçirilmiş konfransda əsas məruzə ilə çıxış etmişdir.

# SİDNEY (AVSTRALİYA):
## Opera Teatrı (Sydney Opera House)







Sidney Opera Teatrı Sidney şəhərinin Bennelonq Poynt limanında, Avstraliyanın Yeni Cənubi Uels ştatında yerləşir. Teatr binası Sidneyin simvoludur və Avstraliyanın görməli yerlərindən biridir. 1955-ci il 15 sentyabrda teatr binasının inşası üçün layihələrin qəbuluna başlanıb. Qalib layihə üçün 5000 funt-sterlinq dəyərində mükafat təyin edilib. 1957-ci il yanvarın 29-da 32 ölkədən daxil olan 233 layihə arasından danimarkalı memar Yorn Utsonun layihəsi seçilib.

Həmin il memar Sidneyə gələrək tikintinin aparılacağı yerlə tanış olub. 1963-cü ildə tikintinin 1-ci mərhələsi başa çatdıqdan sonra isə o, öz ofisini Sidneyə köçürüb. 1966-cı ilin sonlarında Utson layihəyə rəhbərlikdən uzaqlaşdırıldı və tikintinin davam etdirilməsi Piter Holla həvalə edildi. Bundan sonra Utsonun daxili dizaynla bağlı layihələrində bəzi dəyişikliklər edildi.

Teatr binasının tikinti işləri üçün 3,5 milyon funt-sterlinq, yəni 7 milyon ABŞ dollar tələb olunurdu. Tikintinin başa çatma tarixi 1963-cü il yanvarın 26-na təyin olunmuşdu. Lakin, opera binasının təyin olunan vaxtdan 10 il sonra, 1973-cü il oktyabrın 20-də açılışı oldu. Teatr binası üçün çəkilən xərclərin ümumi məbləğinin 102 milyon ABŞ dolları təşkil etdiyi açıqlandı. Bu isə gözlənilən məbləğdən 14 dəfə çox idi.

Sidney Opera Teatrının binası 183 m hündürlüyündədir, eni isə 118 m-dir. 1,8 hektar sahəni əhatə edir. Unikal damı 67 m-ə qədər hündürlüyündədir. Binanın damı İsveçdən gətirilən 1 milyon 56 min ədəd ağ keramika ilə bəzənib. Opera binasının 5 teatr salonu var. Bunlar, 2679 yerlik Concert Hall, 1547 yerlik Opera Theatre, 544 yerlik Drama Theatre, 398 yerlik Playhouse və 364 yerlik Studio Theatredir. Teatr binasının ümumilikdə 1000 otağı var. Bunlara 5 məşq, 60 geyim otağı, 4 restoran, 6 bar və çoxlu sayda hədiyyə dükanları daxildir. Teatr binası 25 min nəfərlik şəhərin ehtiyacını ödəyəcək qədər elektrik tutumuna malikdir və elektrik kabellərinin uzunluğu 645 km-dir.

Qeyd edək ki, memar Yorn Utson 2003-cü ildə bu əsərilə Pritzker Memarlıq mükafatını qazanıb. Sidney Opera Teatrı YUNESKO-nun Dünya Mədəniyyət İsrinə əlavə olunub.


Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
və bizimlə dünyanı kəşf et!


DÜNYA MƏKTƏBİ
Xəzər Universiteti "Dünya məktəbi"
2014-2015-ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
WORLD SCHOOL
ib
Beynəlxalq statuslu "Dünya Məktəbi"nin şagirdi ol
və bizimlə dünyanı kəşf et!
AZ 1130, Bakı şəhəri, 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9
Telefon: + (994 12) 563 59 47, 563 59 48 Mobil: + (994 70) 844 08 88


Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
və bizimlə dünyanı kəşf et!

# 2015



## YENİ İLİNİZ MÜBARƏK!

### Yanvar

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

### Fevral

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | |

### Mart

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

### Aprel

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | | | |

### May

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | | |

### İyun

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | | | | | |

### İyul

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | | |

### Avqust

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |
| 31 | | | | | | |

### Sentyabr

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | | | | |

### Oktyabr

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

### Noyabr

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | | | | | | |

### Dekabr

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

*1 yanvar - Yeni il bayramı*
*8 mart - Qadınlar günü*
*20-21 mart - Novruz bayramı*
*9 may - Qələbə günü*
*28 may - Respublika günü*
*15 iyun - Milli Qurtuluş günü*
*26 iyun - Silahlı Qüvvələr günü*
*17-18 iyul- Ramazan bayramı*
*24-25 sentyabr - Qurban bayramı*
*18 oktyabr - Dövlət Müstəqilliyi günü*
*9 noyabr - Dövlət Bayrağı günü*
*12 noyabr - Konstitusiya günü*
*17 noyabr - Milli Dirçəliş günü*
*31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəliyi günü*